***

Mənim ünvanım:
Nəhayətsizlik.
Zaman.
Məkan.
Dünən,
bu gün,
və sabah.
Görünən,
görünməyən.
Eşidilən,
eşidilməyən
Qalaktika.
Günəş sistemi.
Yer kürəsi.
Torpaq.
Bir az Avropa.
Bir az Asiya.
Böyük ölkə.
Doğma yurdum
Azərbaycan.
Bakı.
Sakit bir küçə.
Ev dörd, mənzil otuz yeddi.
Otaq.
Üçbucaq masa.
Kağız və qələm.
Şeirlər...

1962

***

Vaxtsız ölsəm,
çox yaşadı, deyin.

Vaxtsız öldü, deyin,
qoca ölsəm.

Bir il yatıb, ölsəm,
qəflətən öldü, deyin.

Uzun sürən xəstəlikdən sonra öldü, deyin,
qəflətən ölsəm...

1962

***

Yusifə

Bilirsiz qantel nədir?
Çuqundan tökülmüş,
Uzunbel səkkizə bənzər
əzələ bərkidən.
Mən bir dəfə
dünyanın ən ağır
qantelini qaldırdım:
telefon çağırdı məni,
götürdüm dəstəyi,
səs gəldi:
– Özünü ələ al,
öldü...
Qüvvəm çatmadı,
düşdü əlimdən
dünyanın ən ağır qanteli.

1962

***

Mən tez gəldim,
səndən tez.
Sənsizləndim.
Sənsiz
bir az gəzdim.
Gözlədim.
Göydə
bulud gözlədi.
Mənə göz elədi.

Bilmirəm indi,
gözlər kimindi.
Bəlkə sənindi,
bəlkə mənimdi...

1962

***

İstini cırıldada-cırıldada
araba keçdi.
Sağında – dəniz,
solunda – ürəyim.
Bir araba da keçdi ömrümdən...

İlıq, bomboz divarda
pəncərə söndü.
Sağında – başqa divar,
solunda – ürəyim.
Bir pəncərə də söndü ömrümdən...

Əlimi paltar asılan kəndirə uzatdım.
Qırılıb həyətə düşdü kəndir.
Sağında – torpaq,
solunda – ürəyim.
Bir kəndir də qırıldı ömrümdən...

Dördüncü barmaqda nişan üzüyü
parlayıb, söndü.
Sağında – başqa üzük,
solunda – ürəyim.
Bir üzük də parlayıb, söndü ömrümdən...

Özlüyümə gəldim ondan-bundan ayrılıb.
Şeir yazıb, atdım yeşiyə.
Sağında – ümidlərim,
solunda – ürəyim.
Bir şeir də yeşiyə atdım ömrümdən...

1963

***

Min yerdən dənizə
gəmilər çıxır, ay ana,
Ürəyim darıxır.
Bilirəm, ay ana,
ürəyim bilir,
tapılmır bu müdhiş
dənizdə itən.
Bir qayıq da belə keçmir ömürdən...

1963

***

Səməni...
Evinə
bir ovuc torpaq
gətirib insan.
Şam yanır...
Enir masanın bayramlığına
bir ovuc səhər...
Azacıq
sönür kədər...

1963

***

Sabahdan axşamacan gözüm yolda.
Nə bir yoldaş gözləyirəm,
Nə qız gözü.
Nə kağıza yapışan söz,
nə də ki, bir bəxt.
Sabahdan gözüm yolda.
Nə bir günəş möhürləyən səhər,
nə də axşam imzası gözləyirəm.
Gözüm yorğun...
yorğanları qapanır...

Kimsə yox,
heç kimi gözləmirəm.
Elə-belə...
İstəyirəm indidən
gözlərimi yol çəkməyə öyrədim.

Bəlkə lazım olacaq...
Sabahdan axşamacan gözüm yolda.
Gözləyirəm...

1963

***

Dalğalanan saçların
valsa bənzəyir, ay qız.
Tel qıvrılır, qırılır,
fırlanır sonra.
Mənim saçlarım qara,
mənim saçlarım qalın,
ritmsiz saçlarım,
xalis "Yetim Segahı".

1963

***

Romada nəhəng kilsələr,
Bakıda iri gözlü,
balkonu sarmaşıqlı bir qız var...
Nyu-Yorkda
Allaha çatmaq istəyən evlər,
Bakıda
siqaret tüstüsüylə dolu,
on dörd metrlik bir otaq var...

1963

***

Polyak qızı, yadındamı o gecə,
Siqaretlər yanan kimi sönürdü,
Sən yaşayan üçmərtəbəli evə
Yer üzündə bircə küçə dönürdü?

Polyak qızı, yadındamı o gecə,
Sinən dəniz kimi qalxıb-enirdi,
Tevtonların bayrağı tək divarda
Pan Yuzekin şalvarı yellənirdi?...

1963

***

Göy üzü yaşayırsa,
Qara buludla, maviliklə,
Yer üzü
Əməklə ya kələklə,
Mən də dolanıb,
Yaşayıram bəlkə,
Göy üzündən uça-uça,
Yer üzündən qaça-qaça...

1963

***

Nazim Hikmətə

Öləndə neçə yaşın var idi sənin?
Neçə qış, neçə bahar görmüşdün?

Öləndə
kimin saman sarısı saçlarının
qoxusunu eşitdin?

Torpağını gördünmü gözlərini yumanda?
Mavi gözlərinin səması indi yox.
Gecə çökdü gözlərinin səmasına.

Neçə ulduz söndü
mavi gözlərinin
qapanmış gecəsində?
İşığı bizə heç bir vaxt
çatmayacaq ulduzlar.
Öləndə neçə yaşın var idi sənin?
Yoxsa hələ doğulmamışdın?

1963

***

Ac, zalım, avara
vurnuxur meşədə canavar.
Meşə var – çox şükür!
Peşə var – çox şükür!
Var dişi canavar –
– eşq var - çox şükür!

Ac, zalım, avara
vurnuxur meşədə canavar.
Meşə var - eşələn!
Peşə var - dişlə!
Dişi var - kişilən!
Var xoşbəxtlikdən...

Ac, zalım, avara
vurnuxur meşədə canavar...

1963

***

Nəyə hürürsən?
Kimə?
Adamlar keçir gülə-gülə
yanından.
Sənsə hürürsən
bu dünyaya
hər yandan,
Bəlkə yadına düşür
babanı didmiş canavarlar?
Nə olsun...
Canavar pəncəsindən çıxıb,
kim sağ-salamat qalar?
Nədən hürürsən,
kimi görürsən
qürub günəşi tək
qızarmış gözlərinlə?
Hürmə!
Böyükdür bu dünya.
Dilini kim duya?
Kim bilə?
Yalan deyilsən ki,
hürdüyün gəzsin dildən-dilə!
Səni necə başa salım...
hürmə,
qadan alım!
Şəhər yerində
qapmağa, hürməyə bir şey tapılmaz.
Lal dolan bir az.
Əvvəlin sonu
nə olacaq görərik,
lazım olsa, lap, hürərik.
Sən öz başına,
mən öz başıma...

1963

***

Əsrimizin on beş başlı əjdahası
Bakı – Moskva adlanan
on beş vaqonlu uzun qatar
aparır səni məndən,
Tilsimləyəcək səni
Moskva adlanan böyük qəsrdə.
Doqquz nazirlik dağı'
doqquz ərizə gündüzü,
doqquz "hə-yox" gecəsi
aşıb, keçmək gərəkdir mənə.
Tilsimi qırıb,
səni görməkdən ötrü.
Əsrimizin on beş başlı əjdahası
aparır səni məndən...
Nə deyim mən sənə,
nə deyəsən sən mənə?
Ayrılıq nağılının
ilk perron səhifəsi.
Nə deyək?
Sağ ol,
yoxsa
əlvida?
Yox!
Gəl, salam deyək,
Salam deyək Ayrılığa!
Salam verək Məsafəyə!
Qəmimizlə salamlaşaq...

1963

***

Gecə yorğunluq kamerası ilə
yuxu çəkirəm.
Lent
bəzən səhərə qədər
fırlanır.

Bəzən küçədə gedən
kiminsə qıvraq filmi
mənim lentimi qırır.
Ya pişik novellası,
ya da ki,
yumruqla çəkilən
gecə xronikası.
Filmim bəzən rəngli,
çox vaxt rəngsiz.
Yuxum bəzən isti,
bəzən soyuq.
Füzulini gördüm
bu gecəki filmimdə.
Salamlaşdıq.
Ayrıldıq danışmadan.
O getdi öz yuxusuna.
Mən öz yuxuma...

1963

***

Üç səs eşitdim:
Qalın səs,
Orta səs,
Nazik səs.
Qalın sordu:
– Necəsən?
Orta sordu:
– Necəsən?
Nazik sordu:
– Necəsən?
Dedim:
– Elə belə!
– Elə belə.
– Elə belə...

1963

***

Orta sürətlə,
orta cürətlə
maşını sürmək...
Ölümə
bir az qalmış,
yavaş-yavaş,
tormozu basmaq...
Yox,
qarşısına qəflətən nəhəng,
bağlı darvaza çıxan
maşın tək
dayanacağam.
Oyanacağam
tormozların
ət kəsən
səsindən.
Yox,
qardaşım,
gec olacaq,
gec...

1963

***

Son gecədir bu gün yenə,
Sabah yenə son səhər,
Son yel dolur son yelkənə,
Qayıq üzür birtəhər...

Axırıncı ağacdır bu,
Əsir sonuncu külək,
Bağlayıb sonuncu yolu
Yenə sonuncu fələk...

İndi son küçə üstünə
Yağacaq son addımlar,
Yenə dönəcəklər tinə
Sapsarı son adamlar...

Doğulur sonuncu insan,
Sonuncu insan ölür,
Yenə son dəfə ağlayan,
Son dəfə gülən olur...

Xançal götürmə əlinə,
Düşmənini görsən əgər!
Son gecədir bu gün yenə,
Sabah yenə son səhər...

1963

***

Bu bulud
rəhmətlik nənəmə
oxşayır.
O bulud
qonşu küçədəki
qarayanız suçuya.
İnsanlar axır
bulud-bulud
göy üzündə.
Yaxınla,
yadla doludur
göy üzü də...

1964

***

İldırım çaxdı.
Diktator imzası tək möhkəm,
ümid kimi aydın və qısa...

Sonra yağış yağdı.
Yer üzünə axdı
göy üzünün artıq yükü...

Sonra bürkü...

1964

***

Bu külək
yer üzündə əsmiş, əsəcək
küləklərdən
ən qorxulusu deyil hələ.
Sarısından qorxduğum
küçə fanarının işığı
bir anlıq qorxudur,
qorxuların ən qorxulusu deyil hələ.
Qapınız bağlandı...
Ancaq bu qapı
bağlanan qapıların
ən qorxulusu deyil hələ...

1964

***

Keçir
əlləri cibində,
yaxası qalxmış günlər.
Köhnə və darısqal,
bir də
tabut kimi təptəzə evlər

onları yola salır.
Günlər hara gedir?
Günlər bir küçəyə gedir ki,
səkisində
antikvar dükanları olacaq.
Dükanlarda Ümid,
vətən həsrəti satılacaq.
Metro stansiyalarında
yuxularımızın
pis reproduksiyaları asılacaq,
Günlər axır
körpüsüz ömrün içindən.
Quşlar oxuyur...
Nədən?
Keçir
əlləri cibində,
yaxası qalxmış günlər...

1964

***

Qoca Neyhauza

Otağımda Şopen...
İndi gedin,
indi uzaqdan güdün,
son günümün
son nəfəsimi.
Bir də yaşamaq istəyən
insan həvəsini.
Bu kiçik noktyurn
səslənənədək,
mən də,
ömrüm də,
ikimiz də tək,

verib baş-başa,
yavaş-yavaş
yaşayacağıq yer üzündə.
Yer üzünün
titrəyən dizində...

1964

***

İndi ən qara fikirlərim
bağırsa telefon səsiylə,
qaldırmayacağam
son günümün dəstəyini.
Nə işdə,
nə evdə tapa biləcək
çarəsizlik məni.
Sevincdə gizlənmişəm indi!...

1964

***

Ölümümə bir az qalmış
Darayacağam saçlarımı,
Təmiz, ağ köynək geyəcəm,
Ölümümə bir az qalmış.

Ölümümə bir az qalmış
Göy üzü mavi olacaq,
Buludlar köpük-köpük.

Məktub yazacağam sənə.
Sevirdim, sevirəm, sevəcəyəm
Deyəcəm,
Ölümümə bir az qalmış,
Ölümümə bir az qalmış...

1964

***

Fırlanır yallıda
kainat,
günəş,
torpaq,
insan,
ipdən asılmış paltarlar,
Çarli Çaplinin əsası...
Bir də mən...
Fırlanırıq, fırlanırıq yallıda.
Zurna-balaban səsi,
yallının musiqisi
çoxdan qurtarıb.
Amma biz yenə də
Fırlanırıq yallıda...

1964

***

Sabahdan yağış, yağış, yağış...
Qışda yağır,
qar üstünə yağır yağış...
Bağışla,
bağışla yadıma düşdün,
yağış yağanda...
Qar islanarkən düşdün yadıma...
Bağışla...

1964

***

Yorğun qol kimi
düşəcəksən bir gün
divarların yanına.
Gözləmə

əbəs yerə.
Allah da kiminləsə danışır.
Ömrünü ölümə qoy...

1964

***

Bu gün buludlar
sinədə qalmış söz kimi,
və o söz rəngindədir
bu gün hər yan.
Cavabsız ölmüş
sualların qəbristanlığıdır
başqa insan...

1964

***

Bir il keçəcək...
Mən adi
on beş vaqonlu
"Moskva–Bakı" qatarına minib,
cənuba gedəcəm.
Axtarmayacaq məni
Moskvada bir kəs belə,
yad etməyəcək məni
Moskvada bir səs belə.
Mən isə,
Bakıya aparacağam
bu yataqxananın sarı qapısını,
küçələrin pisini, yaxşısını.
Sənin təbəssümünlə dolu
dar otağımın havasını,
Bakı arzularımın Moskvasını...

1964

***

Ətraf Rusiya, genişlik.
Kupelər dar.
Bakıya gecikir qatar.
Bir saat,
sonra iki,
uç saat indi.
Yol uzun...
Nə söhbət ürəkdən gəlir, nə oyun.
Şahmat fiqurları
həmişəkindən sapsarı.
Şahmat fiqurları tək
ora-bura qoyuruq
söhbət oyununda adamları...
Ətraf Rusiya, payız, palçıq.
Qatar gecikir,
insan dözümü də yarımçıq.
Söhbət kəsilir.
Qanına girir oyun,
şah-şah,
piyada-piyada,
at-at.
Gecikir qatar indi beş saat.
Adamlar, sərnişin yox,
məhbus kimi dilxor,
dərdli, ümidsiz.
Biz
indi
yolun tutduğu
vaxt yəhudisiyik.
Və atılmışıq,
toplaşmışıq bir yana.
On dörd vaqonlu
v a x t h e t t o s u n a...

1964

***

Sözlərini də,
ləhcələrini də,
unuda bilmirəm.
Yadımdan çıxa bilər qanunların.
Başqa dillərin dənizinə
atsa bir gün məni
ömrün qəflət,
ömrün soyuq seli,
bir an belə unutmaram
kədərini,
sevincini,
ümidini.
Bir hissini də unutmaram, azəri dili...

1964

***

Yağış bütün meridian boyu
isladır vitrinləri,
dağıtmaq,
yuyub aparmaq istəyir birdəfəlik
küçələrimizi,
evlərimizi,
şəhərlərimizi.
Yağış kiməsə satır bizi,
ayırır bir-birimizdən.
Pəncərə qarşısında dirilərimizdən uzaq,
ölülərimizdənsə
uzaq olmaq istədiyimiz anda,
səkidən-səkiyə qaçan
insanları eşidirik yenə.
Mənasız, islanmış
əski parçalarına çevrilir

küçə boyu asılmış bayraqlar.
Yağışsa yağır,
yağışa nə var...
İldırım çaxır,
işıqlanır bir anlıq
bütün dünya muzeylərindəki
batalya səhnələri.
Mənasız olur
özgə dilində oxunan duaların ümidi,
minarələrin hündürlüyü,
konstitusiyanın beş-on maddəsi,
sevimli qadın iyi.
Gərəksiz olur atalar sözü,
indiki yağışın özü.
Küçələrdən gələn nəm və təptəzə hava.
Bütün meridian boyu islanır vitrinlər...
İslanır dəniz, küçələr, səslər, biz.
Bir gün
yaşamağa da qoymayacaq bizi təcrübəmiz...

1964

***

Qara, qabar, qaranlıq,
qarı qarğışı tək
yara salır bağrıma.
Ağır, qara çalma tək
qaranlıq qapanıb torpağın
yorğun-arğın
başına.
Neçə vaxtdır
daraq dəymir
saçlarına torpağın.
Neçə vaxtdır
düşmür başı yastığa.

Neçə vaxtdır
darıxır
həsrətiylə
yorğanın.
Yorğun...
Qara, qabar, qaranlıq
ağ hamar kəfən kimi
sarıyır bağrımı.
Allah barmaqarası
baxır torpağa.
Allah da yorğun...

1964

***

Evə tələsirəm...
Elə bil əsirəm,
Küçənin söyüş,
sərxoş,
oğru barmaqlı əlində.
Qorxudan deyilməyən
söz tək qaçıram.
Qaçıram aram-aram,
sürünə-sürünə.
Qaçmağım
kimin gözünə görünə?
Kimə görünə
gecənin küçə döşəməsinə
düşmüş iynə?
Və
damarla qaçan iynə tək
axıram otağıma.
Sancılıram yatağıma...
Yox olur hər yan.
Və iynə olmamaq,
qarmaq olmaq istəyirəm bu an.

1964

***

Mən sağ ikən
yox olsa Xəzər,
kəsilsə qağayıların səsi,
silinsə qayaların kölgəsi...
Mən sağ ikən
barmağımdan üzük kimi
ömrümdən Xəzər çıxsa, Xəzər itsə...
Neyləyərəm,
neyləyərəm
dəniz də getsə...

1964

***

Ya gec, ya tez, bilirəm,
Bilirəm, gün gələcək,
Əllərimdən ümidlər
Çıxacaq əlcək-əlcək...

Ya gec, ya tez, bilirəm,
Düşüb səhnədən diri,
Divara söykənəcək
Tanış insan üzləri...

1964

***

Gedirəm.
Yox, qorxma,
əvvəlcə idarəyə dəyəcəyəm,
sonra Yusifgilə.
Qorxma,
sevincim də, kədərim də
çıxmayıb

konstitusiyanın sərhədlərindən.
Kimdən, nədən gizlənim
evimizin divarları arxasında?
Mənim kimiləri
nə fitlə tuturlar,
nə itlə...
Qorxma,
idarəyə gedirəm.
Qulaq as,
laqeyddir şəhərin.
Gedirəm,
qorxma,
ölümdən tez gələr
bu gün də taksi...

1964

***

Böyük bir darvaza,
azarı varmış kimi
zarıldayır.
Açılanda,
bağlananda.
Darvaza, zor darvazadır,
aça bilmirəm.
Darvaza, zor darvazadır,
qaça bilmirəm.
Zarıldayır,
açılanda,
zarıldayır,
bağlananda.
Sərin külək kimi
bir səs gəlir
arxasından darvazanın,
iti xançal kimi

sancılır
yaxasına darvazanın.
Eşidirəm.
Darvaza, kiçik imiş,
zarıldamır.
Darvaza, küçük kimi
zingildəyir...

1964

***

Yer altından,
dəmir bellə,
min itmiş şəhər tapılır,
min sönmüş insan tapılır.
Doğru,
yalan tapılır.
Kəllə olmuş başlarda,
güllə olmuş daşlarda,
saxsı bardaqlarda,
daş yaraqlarda
oxunur keçən,
oxunur gedən...
Bu əsrdə tapılır,
yeni eradan əvvəl,
gecə çağı çöldə itən...
Yer altının yer üzlüyü,
sınıq-sınıq,
qırıq-qırıq
qalxır üzə,
qalxır bizə...
Nələr yoxdu yer altında,
nələr gəzmir sirr atında?
Sümüklərin və daşların,
latın, azəri adları,

sümüyə,
daşa dönmüş,
zaman, dövran saatları.
Sarı kəllə,
sümük kəllə,
quru kəllə
təbəssüm tək yumşaq əllə
sığallanır,
ağıllanır...
Quru kəllənin önündə,
sümüklü təbəssümündə
adam bəzən özünü
diri, amma kəllə sanır...
Düşünürsən,
birləşirsən quru, sarı kəllənin
dövranıyla
günləriylə, anıyla.
Bəlkə içini yeyirsən,
bəlkə yalan deyirsən?
Lakin deyirsən:
– Kəllə, kəllə...
Günümüz pis gətirdi,
dövranımız nəs.
Kəllə, kəllə, kəllə,
yaxşı günlər olacaq bəlkə?
Bəlkə, bəlkə, bəlkə...

1964

***

Enir kağızın ağına
sətirlər.
Ürəyimin,
fikrimin kölgələri
sərindirmi?

1964

***

Bir əl...
On əl...
Min əl...
Əllər...
məni əllər boğacaq,
əllər, əllər doğacaq!

1964

***

İri,
mavi mamont idim,
yer üzünün buz ömründə...
O vaxt nə Koroğlu vardı,
nə Meri Pikford,
nə Ləmbəranski, nə Henrix Ford.
O vaxt
sağ yox idi,
sol yox idi.
İşıqforlu yol yox idi.
Buz...
Dəniz...
Yenə buz...
Soyuq idi...
İri,
mavi mamont idim.
İndi... fortepiano müəllimiyəm.

1964

***

Bu çinardan dar ağacı,
royalımın taxtasından qış ocağı
quracaqlarsa...
Demək,
nəfəs almışam,
ömrüm boyu asılarkən...
Demək,
buz olmuşam,
ayaqlarımın altda Günəş basılarkən!...

1964

***

Qapqara gözləri
qupquru ağacda,
daralmış şəhərlə
qaralmış şəhərlə
sürünür kor qoca.
Ağacla damcı-damcı
kor yağır küçəyə.
Ağacla damcı-damcı
kor yağır gecəyə...

1964

***

Çoban olsaydım əgər
məni yamacda
qoyunlar otarardı.
Quşlar mənə atardı
ovçu olsaydım əgər.

Xançal olsaydım,
insan mənə batardı.
Xalq gecə bilib yatardı
gündüz olsaydım əgər.
İnsan olsaydım...

1964

***

Qoyunlar
qəssabı tanıyırlar.
Bir kişi
on beş bağın
qoyununu kəsirdi.
Qohumuna, dostuna,
nisyəsinə, nəqdinə.
Qəssab gələndə,
bıçaq görünəndə,
qoyunlar dayanırlar,
yeri tappıldadırlar...
Tap...
Tap...
Tap...
Kabab,
qutab...
Tap...
Tap...
Tap...
Bir qara qoça
deyirdim asta:
– Qoyun olma, çıxış yolu tap...
Tap...
Tap...
Tap...

1964

***

Hər gün
səhər altıda,
– Süd! Süd! Süd! bağırır
həyətdə kiminsə səsi.
Bu səhər
üşüyə-üşüyə
həyətə düşdüm.
İstədim soruşam,
hardan tapır bu adam
səhər tezdən
bu cür qüvvətli səsi?
Nə boydadır zalımın nəfəsi,
böyük bir evi
səsiylə yuxudan qaldıra bilir?
Gördüm, qarıdır,
gözlərindən yuxu tökülür...

1964

***

Düşdü paltarınla o gün parketə,
İctimai fikir, dövlət, gələcək,
O gün keçən kimi boş qaldı içim,
Qaraçı köçünün köhnə yeritək.

İndi Şüvəlandan keçən yolların,
Hamısı birləşib yanvara dönür,
Fəsilsiz illərə gedəcək indi,
İyunsuz, iyulsuz, avqustsuz ömür.

Kimə ağız açım, kimə yalvarım,
İndi Şüvəlandan Buzovnayadək?
Danışa bildiyim o az günlərdən,
Beş-altı söz qaldı, iki-üç köynək.

Gərəksiz, işlənmiş şeylər atılıb,
Bağlar arasının dar yollarına,
Dünya qulaq asır bu yay gecəsi,
Hasar qonşumuzun köksüz tarına.

Bilirəm, bu gecə nə olur-olsun,
Yuxuma yenə də atam girəcək,
Ulduzlar sayrışır vətən göyündə,
Ölən balıqların çırpıntısıtək...

1964

***

Bir axşam taksidən düşüb payıza,
Bilmədik haraya, hayana gedək,
Dərin sularını qatıb dayaza,
Dəniz də bağlandı yay kinosutək.

Yağışın əlindən qaçıb bir küncə,
Dayandıq üzümüz qibləyə sarı
Yenə tapılmadı, payız gəlincə
Bağlı ümidlərin itmiş açarı...*

1964

***

Uşaqların
kağızdan bükdüyü
qayıqlar tək dolansa arzularım,
qaçaram yer üzünün suyundan, nəmindən.
İstəsəm, qaçaram

*Mahnı mətni. Musiqisi Emin Sabitoğlunundur.

özgə gözlərinin qəmindən,
qonşumuzun qara itindən,
arxadan səslənən milis fitindən.
Qaçaram
filarmoniya konsertlərinin ipəklərindən,
su qatılmış pivələrin köpüklərindən,
yumulan gözlərdən,
açılan dizlərdən,
içimi isidən
yumşaq nağıllardan,
evimizi basmış
köhnə jurnallardan.
Qaçaram sapı qırılan təsbehlərdən,
dolu və boş qədəhlərdən,
məscidlərin əzanından,
kilsələrin zəngindən,
Nizami muzeyinin rəngindən.
Hər şeydən qaçaram mən.
Amma sənin gözlərindən...

1965

***

Dünən yığışıb getsən də,
qaya rəsmləritək
köhnə gəldi mənə
dirsəklərinin
masanın tozunda qalmış yeri.
İki ağ ləkə.
İki yumru.
Sənsizliyimin
bərəlmiş gözləri...

1965

***

Oturub yer üzünün qapısında
karvanımı gözlədim.
Karvanımın yolunda
kəsildi meşələrim,
yox oldu.
Buludlarım gözlərimin qabağında
min şəkil aldı.
Qurumağa başladı dənizim.
Torpağımda
bir yandan evlər tikildi,
bir yandan söküldü.
Pərdə asdılar
gündüzümün qabağından.
Karvanımdan bircə gecəm
sağ-salamat gəldi çıxdı
yanıma.
İtirməyim deyə
gecəmi də,
özümü gecəmə bağladım,
günlərimin qandalıyla...

1965

***

Qışda dəniz,
qapısız, pəncərəsiz.
Qışda dəniz,
göy üzüylə əkiz.
Söyüd ağaclarını
evə gətirmək istəyirəm qışda.
Baba olmaq istəyirəm
bu yaşda.

İnanıram qışda
insan ömrünün
xoş günlərlə dolduğuna.
İnanmıram, amma
gəmilərin
“doğur-doğur” olduğuna...

1965

***

Surətləri bir,
sürətləri bir,
külək gözləyib,
fırlanarlar əlbir
yol dəyirmanları.
Bəzən bir ay hərəkətsiz,
bəzən gündə otuz dəfə
ora-bura dönə-dönə,
yaşayarlar yer üzündə
yel dəyirmanları.
Biri-birindən seçilməz,
onu-onundan.
Külək gələndə
bir yerdə çevrilər üzləri.
Amma bu birlikdə,
bu əlbirlikdə,
yer üzündə kim
tənhadır onlar qədər,
kim
onlar qədər küləklə bağlı,
küləkdən asılı?...

1965

***

Rənglənib tozla
pəncərənin şüşəsi...
Kimsə adını yazıb şüşədə,
barmağıyla tozu yara-yara.
Kimsə toz içində
vals oynayıb,
barmaq üstə, ora-bura,
insan var, toz var, neyləmək?
Silinəcək kirli əskiylə
pəncərəyə yapışan toz,
insan adı,
bir də toz üstə vals...
Axı
pəncərə təmiz olmalıdır,
axı
"Dünya bir pəncərədir,
hər gələn baxıb gedər..."

1965

***

Küləkli payız günündə
atılmış bağ evinin
qapısıtək
açılır, örtülür
ürəyim.
Barmağımla
günlərimin profilini çəkirəm
dünya pəncərəsinin
toz basmış şüşəsində...
Ay Allah,
heç olmasa
başımı sığalla!

1965

***

Neçə ay səfərsiz,
neçə ay bir sayaq
dolandım.
Xəstəliyindən xəbərsiz,
bədbinliyindən uzaq
dolandım.
Ayrılıq əfsanə deyil,
casusa,
milisə gərəksiz
beş-on ürək sirrimdir.
Ayrılıq
gözlərinə düz baxa bildiyim
yeganə,
yeganə dirimdir...

1965

***

Bu gün birinci dəfə
döydün ömrümün qapısını.
Açmadım.
Açacaqdım qapını
inadkar olsaydın azacıq.
Onda mən yazıq...
Endirib evimizdən
aparacaqdılar məni
Kommunist küçəsi ilə yuxarı.
Sonra burulacaqdılar
Anarla Yusifin təzə evinə sarı.
Sonra
silkələnə-silkələnə
sonuma gedəcəkdim
min tabut üzü görmüş qruzovikdə.

Mənasız olacaqdıq sən də, mən də...
Ancaq indi
yaşaya bilərik
müttəfiq kimi.
Çiyin-çiyinə, ümid-ümidə...
Ala bilərlər əlimdən
Buzovna qayalarını,
Xəzərin
sahildə quruyan qayıqlarını,
Abşeronun
doşaba üzüm əzən nazik ayaqlarını...
Əlimdən ala bilərlər
hər yeni günümün sonbeşikliyini...
Bircə səni
ala bilməzlər əlimdən,
ölümüm.
Səni
çıxara bilməz həyatımdan
nə zaman, nə insan.
Çiyin-çiyinə,
ümid-ümidə dolanaq.
Bu vaxt,
bu kədər,
bu otaq...

1965

***

Yer üzünə qan hoparkən,
ürəyin dərddən qoparkən,
göy üzünə,
buludlara bax!
Buludlar
pişik balalarına da
bənzəyirmi, ay Allah?..

1965

***

O əyri xətt,
görümün yolun kəsən sərhəd,
“üfüq” adlanır.
Deyirlər,
yer üzü
orda qatlanır,
bir də
xəyal, arzu
ordan atlanır.
Azadlığı görür kimsə
əyri üfüqdə,
kimi məhəbbəti.
Ya da sadəcə,
soyuducuda bir kilo əti...
hərə bir üfüq görür,
hər kəsin öz üfüqü.
Bəzən doğma, bəzən yad,
üfüqlərsə milyard-milyard!
Gözlər sanı, gözlər qədər.
Gözlər sanı əyri sevinc,
gözlər sanı əyri kədər...
Bəzən
azadlıq axtarılan üfüqdə
qarı paltar yuyur, deyinə-deyinə.
Bəzən
məhəbbət gəzilən üfüqdə,
“dahi” nitqini məşq edir
nazir,
qara frakını geyinə-geyinə.
Qarıyla nazirin
üfüqbazlar nə vecinə?
Qarının gözləri
kirli paltarların sayında,
nazirin düşüncəsi
məclisdə əleyhinə qalxacaq

deputat əlləri sayında.
İkisi də öz hayında...
İndi mən də,
bu uzun şeri yazıram,
damağımda siqaret yanır,
uzaqdan məni də
kimsə üfüq sanır...

1965

***

Qapısında bir zəng var
hörümçək toru
basıb üstünü.
Otağında
bir cüt kreslo durur
biri it günündədir,
o biri təptəzə qalıb.
Pəncərəsinə
bir akvarium qoyub.
Beş-on balıq üzür
bulanıq suda.
hamısı öz işində, gücündə.

1965

***

Başqa bir qız da
var imiş
səndən başqa
yer üzündə, gülüm!
İndi ya sən öldür məni,
ya da mən səni...

1966

***

Eşitmişəm bu yay bağda,
bir danimarkalının
nağılını oxuduğun yerdə,
pəncərənə sərçə qonub.
Gözləri iki qara muncuq,
köksünün altı yupyumşaq...
Gözlərin dolub
birdən-birə.
Ağlamısan
o danimarkalının nağılını
üzünə sıxıb.
Ağlamısan
yayın o istisində...

1966

***

Yolsuz, cığırsız da
gedib bir yana
çıxmaq olar.
Amma hara?
Evlərin nömrəsinə baxa-baxa,
xəbər ala-ala
qabağından çıxan adamlardan,
axtarıb tapmaq olar
bir kəsi.
Amma kimi?
Əl-qolunu bağlayan
zəncir kimi
qırıb atmaq olar
ömrün ayıq günlərini,
gərəksiz olmuş andları,
ata-baba yurdunu

gözləri
şad xəbərə bənzəyən
bir qadın yolunda.
Amma necə?
Amma haçaq?
Amma niyə?

1966

***

Sənin səhərdən axşama kimi oxuduğun
o qəribə, yumşaq, anlamadığım dildə mahnı
indi də,
bu gün də qulaqlarımda çalınır.
Bu gözəl və təsəllisiz,
bu uzaq və təsəllisiz mahnının
özgə dilli sözləri
əzbər olub dilimdə, qulağımda...
Sənin səhərdən axşama kimi oxuduğun
o qəribə mahnı
vətən kimi uzaq,
vətən kimi yazıq,
vətən kimi sayaqdır, bir sayaq...

1966

***

Bu yol sənin, bu yol mənim...
Gəl belə ömür sürək.
Gəl yummayaq
bəxtimizin ağzını,
ömrümüzün də sözünü kəsməyək
danışdığı yerdə.

Peyğəmbərlik
nə sənə yaraşır,
nə mənə.
İstəsək də
əlimizdən gəlməz
bu Allahsız dünyada
Qoy yol çəksin gözlərimiz,
nəfəsimiz
boğazımızdan çıxana kimi.
Qoy min şeyə yozsunlar
doğulub
dünyaya gəlməyimizi!
Ancaq hələ ki,
qapımızın ağzında
yəhərlənməyib
bizi o dünyaya
aparacaq atlar,
gəl başımızı aşağı salıb,
gedək öz yolumuzla.
O yol sənin, bu yol mənim...

1966

***

Günəş nədir?
İşığında
səni görmədiyim
bir ulduz.
Dünya nədir?
Sənin evinə aparan
bütün yolları bağlı
bir planet...

1966

***

Gör bir necə
ayrı saldı baxtımız bizi
meşə ağaclarından,
dağ otlarından,
çay daşlarından.
Allahdan
aldığımız ömrü
gör bir necə
payladıq insanlara!

1966

***

Bu gün
ləpədöyəndə
qapqara mazuta bulanmış
bir qağayının
meyiti üstündə
xaç kimi dayanmışam.
Məzara da
bənzəməyə başladım,
ana...

1967

***

İstidən qaçıram...
Amma nə evimizdə,
nə küçələrdə,
nə qohum, nə dost evində
yağış yağmır.

İstidən qaçıram...
Lakin bir damcı şeh belə yoxdur
gördüyüm üzlərin
üzərində.
İstidən qaçıram...

1967

***

Qağayını saymasaq
Allahla dəniz arasında
kimsə yox...

1967

***

Aparır, məni vaxt aparır,
Könlündən, əlindən qoparır,
Ay ana, gözlərim qapanır,
Gələrəm, qaranquş gələndə,
Bəlkə, bəlkə, bəlkə də...

Gələrəm, bu yaya gələrəm,
Yay ötsə, payızda gələrəm,
Nigaran qalmısan, bilirəm,
Gələrəm, durnalar gələndə,
Bəlkə, bəlkə, bəlkə də...

Çıxarlar dünyaya qatarlar,
Qatarlar min yerə çatarlar,
Hələki dünyada qatar var,
Gələrəm, vaqonlar ötəndə,
Bəlkə, bəlkə, bəlkə də...*

1968

*Mahnı mətni. Musiqisi Emin Sabitoğlunundur.

***

Bu ayrılıq dəniziylə
Səni aparan gəmi,
Yuxumdan keçdi bir gecə,
Moskvadan may kimi...

Ondan sonra küçə gördüm,
Getdim aptekə sarı,
O gün ilk dəfə səsləndi
Ömrün son akkordları...

Ömrün sonuna az qalıb,
Düz sayıramsa əgər,
Bəlkə beş il, bəlkə yüz il,
Bəlkə qapıya qədər...

1968

***

Ay Allah, kömək et mənə,
kömək et, ölümdən əvvəl,
Zuğulbayla
Şüvəlanın arasındakı
sahilin
əyrisini unudum.
Yadıma düşməsin
Moskva metrosundan
maya çıxmağım...

Ay Allah, kömək et,
kömək et, ölümdən əvvəl,
çıxsın beynimdən
Füzulinin,
Pasternakın şeirləri

Unudum
atamla gəzdiyim hər yeri...
Kəsilsin
İçərişəhərdə eşitdiyim
qız toyunun qarmon səsi,
yox olsun gözlərimdən
öküzlərin
şaxtadan buxarlanan nəfəsi.
Ay Allah, kömək et mənə,
kömək et, ölümdən qabaq,
bir bulud da
papiros tüstüsünə, divə, Tolstoya,
bir də sənə oxşamasın göy üzündə.
Kömək et, unudum
sevimli valsın
son taktlarını...
Qoy ölümdən əvvəl,
yadıma düşsün
Varşava hettosunda oxunan
mahnıların bilmədiyim sözləri.
Qoy Praqadan götürülüb,
dünyada qoyulsun
Yan Qusun
gözləri əskiylə bağlanmış heykəli.
Qoy qulağımda olsun
xunveybinlərin səsi,
qoy əzilsin əlimdə
yumularkən gözlərim,
tapılmamış dərmanın reseptitək
Türkmənçay müqaviləsi...

Ay Allah, kömək et mənə,
kömək et, ölümdən əvvəl...

1968

***

Var – dövlətim
qalmadı ki, üstündə gözün olsun.
Mənə də qar qalmadı ki,
üstündə izin olsun...

1969

***

Məni bir günün içində
tutub,
hökmümü vermək olar.
Elə həmin gündə
kürəyimi
dayamaq olar divara.
Di gəl,
min il,
yüz min il,
günbəgün,
aybaay, ilbəil
güllələmək
lazım gələcək məni...

1969

***

Qaçdı dəniz, qaçdı səma bu axşam,
Quşların səsi də tək qoydu məni.
Üstümdə qalmayıb, sürünüb getdi,
Buludun yamaca düşən kölgəsi.

Soxuldu ömrümün səksəkəsinə,
Dəmir çəkmələrin ətkəsən səsi,

Əl-qolum zəncirlə niyə bağlandı,
Taleyin vəkilsiz məhkəməsində?

Yağış da tərs kimi dəliyə dönüb,
Nə evlərə yanır, nə papaqsıza,
Bu nursuz suların keçib əlinə,
Dünya miyoldayır həyətimizdə.

Hələ ki vaxt qalıb, utanma, nahaq,
Utanma mənimlə insan olmaqdan,
Söyüd budağından yazdığım şeir,
Qalacaq qəhrəman heykəli kimi.

Günəş baş götürüb qaçandan sonra,
Yumdum gözlərimi bağlanım deyə,
Nə xeyri olacaq min dəfə bağlan,
Qapısız bir evdə pəncərə kimi...

1969

***

Görürəm ot basır, toz-torpaq örtür,
Kimsəsiz sözlərin karvan yolunu.
Deyirəm, dediyim daşlara dəyir,
Yayda kor quyuya düşən vedrətək.

Yuxumdan muradsız kəhərlər keçdi,
Yuxudan ayıldım göz qabağında.
Kim yazıb adımı çaldı dörd mıxla,
Fələk bağladığı qapının üstə?

Bilmirəm hardadır kələfin ucu,
İçimdə özünə kim yuva salıb?
Hələ ki gec deyil gərək öldürüm
Olduğum insanın əliylə məni.

Sözümü ağzımda qoyma, ay Allah,
Allahsız bir kimsə yalan tutantək!
Bu meydan, bu şeytan, bu tütək səsi,
Bu da tənhalığın səlahiyyəti...

1969

***

Ürəyi sözlə dolu
adam kimi öləcək,
yoxsa açıb tökəcək
içindəkiləri
bloknotum?
Qarğalar alacaq
başının üstünü,
ya göyərçinlər?
Bu neçə min sözdən
hansı qalacaq
kimin yadında?
Bu son səhifəsiylə
sabahacan
bağlanacaq bloknotum,
ya əbədi?
Açılsa,
kim açacaq onu?
Xalqım,
düşmən,
ya meh?..

1969

***

Ay Allah,
al bu qələm,
bu da alnım!

Fikirləş,
tələsmə,
yaxşı bir şey yaz...

1969

***

Mən sənin
yer üzünə düşən
kölgələrini yığıb,
bir nəhəng,
qurama gecə tikmişəm özümə.

1969

***

Bəlkə qorxmaq vaxtı çatıb?
Zavodların tüstüsüylə
Xaç çevirir sinəsində
Bakının titrəyən əli...

Ocağımız nədən söndü?
Kim tapdadı yolumuzu?
Bizi tapmaq asan şeydir,
Axtaran tapılmayacaq...

Qarayanız insanların
Doğulduğu bu yerlərdən
Gündə neçə qatar keçir?
Ürəyimdən nələr keçir...

Bu çiçəklər nədən soldu?
Kim söndürdü son çırağı?
Bizi görmək asan şeydir,
Görən göz tapılmayacaq...

1969

***

Ürəyimin qapısı
Səhərdən açıq qalıb,
Könlüm bu gün ruhumu
Qovub yollara salıb...

Dərd məni üstələyər
Sən dadıma çatmasan,
Aydınlığa çıxmaram
Sən qolumdan tutmasan...

Adaları dənizə
Deyirlər divlər atıb,
Məni bu tənhalığa
Kaş biləydim kim satıb...

Bu qaranlıq yollarda
Azıb itərəm, inan,
Bəxtimin tək şamını
Sən gəlib yandırmasan...

Dünya Günəşi içir,
Quşlar cənuba köçür,
Bu əbədi Günəşin,
Bu qayğılı quşların
Gözü qabağında bil,
Ürəyimdən bir nisgil,
Fəqət xoş fikir keçir.
İnanmırsansa, gəl bax,
Bu mən, bu sən, bu Allah!

1969

***

Svyatoslav Rixterə

İndi lap asta de, yorulub dünya,
Özü də tez qurtar dediklərini.
Ömrümüz bir yana, tale bir yana,
Unutma metroya gecikənləri.

Konsert qurtarandan sonra dön geri,
Gözlə hamı getsin, tək qal azacıq,
Bayaq ağladığın prelüdləri,
Get, oxu bu dəfə bomboş salona.

Söykən əyrisinə qara royalın,
Bax, boş sıralarda oturmuş dərdə,
Gözlərin yumulub öldüyün anda,
Diril gözətçinin addım səsindən.

Çıx böyük şəhərin yad gecəsinə,
Get taksilər duran evin yanına,
Maşın gələnəcən dayan dünyada,
Kimsəsiz məzarın başdaşı kimi...

1969

***

Ac qarnına
yatdığım gecələrdə
mənə bir ağızdan
lay-lay deyir
bütün ömrüm boyu yediyim
qoyunlar, toyuqlar, balıqlar.
O gecələr yuxuma
taxt-tacından düşmüş
padşahlar girir...

1969

***

Külək ağalıq eləyir küçələrdə.
Səs-səsə verib
şəhərin
bütün açıq qalmış qapıları.
Bu küləkdə, bu səsdə
kimi gözlədiyi qatarın
gecikməyindən qorxur,
kimi
ölüb-gedənlərinin
gələcəyindən...
Keşikdə duran
qarayanız milis serjantının
yadına
bir nar ağacı düşür.
Qırmızı ulduzlarla dolu
yaşıl bir səma...
Uzadır əlini oğlan
budaqlara sarı.
Ayılır röyasından
barmaqları küləyə dəyən kimi.
Divan tutur o gecə
qarayanız milis serjantı
əlinə keçən oğru-moğruya.
Rəhmsiz yumruğa dönür
nara həsrət qalmış əl...

1969

***

Gəl gedək,
yavaş-yavaş,
görək nə gəlir başımıza.
Yalquzaq canavarlartək
unudaq dəstənin,
sürünün nə olduğunu.

Acından ot yeyək,
daş gəmirək,
Allah rastımıza
ölü maral,
yaralı dovşan çıxaranacan!
Səksənək
yarpaq xışıltısından,
ürkək
kol qaraltısından.
Dalaq səksəkəli yuxuya...
Başımızın üstünü
ilk qış alanda
qoy düşsün yadımıza
doğma dəstəmiz,
baş-başa verib,
isinməyimiz.
Qoy düşsün yadımıza
dəstəylə basmarlayıb parçaladığımız
ceyranın ilıq qanı...
Ağlayaq.
Ulayaq.
Ölək.
Amma meşəmizin
hər tərəfini,
hər ağacını görək...

1969

***

Sənin bir ahından
yüz min yel dəyirmanı
fırlanar...
Sənin barmaqların
Varyete səhnəsinə
lüt - çılpaq çıxmış
çöp kimi arıq
qız uşaqlarıdır.

Yetişməmiş qız uşaqları...
Sənin ahın, barmaqların
dağda təkənin ayağı altdan
qaçmış bir daş kimi
gəlir üstümə.
Bilirəm,
o daş
gicgahıma dəyəcək
əvvəl-axır.
Və mən öldüyüm anda
alışıb,
iki nəhəng məşələ dönəcək
təkənin buynuzları.
İşığa qərq olacaq
dünya başdan-başa.
Və o işıqda
görəcəksən getdiyimi.
Gedərkən çiynimlə
şkafın üstündən
yerə saldığım
farfor balerinanın
qırıntılarını...
Bir ah çəkəcəksən dərindən.
O an
fırlanmağa başlayacaq
yer üzünün yel dəyirmanları.
Varyete səhnəsinə çıxacaq
barmaqların yenə.
Dirilib,
onlara qoşulacaq
farfor balerina.
Oynaya - oynaya
yüz min dəfə
adımı pıçıldayacaq sana...

1969

***

Azacıq sulanıb
hakimin gözləri,
dikilib onillik pencəyinin
didilmiş qollarına.
Qulaq verib,
prokurorun nitqinə,
arabir həsrətlə baxır
qabağında oturmuş
cavan caniyə.
Onu cavan bir qızın,
dünya gözəlinin
evində tutublar...

1969

***

Buludlar
restorandan
təzəcə çıxmış gürcülərtək
ağır, təmiz, mehriban.
Bağımız it günündə...
Meyvələr quru,
hovuz çatlaq,
quyu kor...

1969

***

Çörək pulu tutdu
ayın-günün qabağını.
Qara gün gəldi...

1970

***

Gün-güzəran
görünmür gözümə
gözlərim taleyimin
əlinə dikilən gündən.
Sən də səhər-axşam
deyirsən
yaşamaq lazımdır
indi mənə.
İndi mənə
şeir yazmaq lazımdır,
yaşamaq yox...

1970

***

Neçə ağac
şikəst oldu bu qış
Əlsiz-ayaqsız
gəlib çıxdı yaza
meşələrin çoxu...
İndi yarpaqlar
uşaqlar kimi səsli,
uşaqlar kimi təmiz.
Ötən qışdan xəbərsiz.

1970

***

Gəl, qoluma gir,
gedib bir baş çəkək
heyvanxanaya.

Sinəm sözlə dolub,
açıb demək istəyirəm sənə.
Üzünü...
qəfəsdə mürgü vuran
bir nəhəng aslana tutub...

1970

***

Yadıma salma, qurban olum,
bu gün ad günündür.
Sənə bir şey
ala bilməyəcəyəm...
Bir kəsin də ömrünə
girmək qismət olmayıb mənə.
Hamının qapısı ağzında
dayana bilmişəm ancaq.
Sənin də.
Taleyim bu dünyaya
əliboş göndərib məni...
Odur, yadıma salma,
qurban olum,
bu gün ad günündür...

1970

***

Sevirəm deyən dodaqlara,
Günəşə baxan uşaqlara,
Dənizə çıxan qayıqlara,
Bir yağış yağır gecə, səhər.

Hər damlası bir çiçək, bir gül,
Bir arzu, bir söz,

Bir tale, bir bəxt gətirir,
Bəzən bir ümid, bəzən göz yaşı.
Gətirir bir çiçək yağışı.

Bir yağış yağır gecə, səhər,
Boyayır rənginə dünyanı,
Böyüyür sevinc, sönür kədər,
Bir yağış yağır gecə, səhər...*

1970

***

Sinəmizdə
aha dönüb çıxacaq
bir xatirə də
tapa bilmirəm.
Ömrümüzdən
nə adalar,
nə ağ ilxı keçdi.
Bir dəfə də girmədik
qaraçı yuxusuna...

1971

***

Mənə bu gün
qocalmısan dedilər.
Öləcəyimi deməyin.
Mənə bu gün
Qocalmısan
dedilər...

1971

*Mahnı mətni. Musiqisi Emin Sabitoğlunundur.

***

Nə daş qaldırdım,
nə at çapdım.
Nə bir yadı
azad insan edə bildim,
nə özümü.
Dünyaya baxmağa gəldim...

1971

***

Molla Pənah Vaqifə

Külək əsir bayram günü.
Bu gün.
Arabir parkdan
bir ölüvay orkestrin
səsini gətirir evimə külək.
Evimdə
pendir-çörəkdən savayı
heç nə yoxdur.
Bir də beş-on çimdik
Mokko qəhvəsi qalıb
dəmir qutunun dibində.
Bu gün gözlərim dikilib
bayraqlardan səkiyə düşmüş
ölü qartal qanadlarının
kölgəsinə...

1971

***

Yaz, yaz,
ən haram çörək də
aclıqdan gözəl,
ən yavan çörək də

ölümdən dadlıdır.
Hələ ki sözlə dolur sinə,
yastığa baş qoymaq günah,
həyatdan bezmək allahsızlıqdır.
Aç gözünü, bax,
gör bir nə qədər
məsafə var yer üzündə!
Aç gözünü,
dol, yaşa, gül,
yaz, boşal, öl...

1971

***

Hər axşam,
ilin bütün fəsillərində
rastıma çıxır bu adam.
Gözləri həmişə sönük
yerişi xam,
əlləri əlacsız.
Elə bil indicə alıb
anasının
ölüm xəbərini.
Çiynində tabutla düşür
bu beş nömrə tramvaydan...

1971

***

O yay, hər gecə,
Bakının kimsəsiz küçələrində
bir marş çalınardı!
O səslənən kimi

Bayıldan Qaraşəhərə qədər
hamı bilərdi ki,
mən,
dost-aşnadan ayrılıb,
sərxoş, müdrik bir niyyətlə
özümü asmağa gedirəm...
İndi bəzən,
əlim ağır
bazardan geri dönəndə,
qapısı bağlanan kimi liftimizin,
yenə qəflətən səsə gəlir bir orkestr,
mavi marş çalınır.
Mavi marş çalınır
mən
onuncu mərtəbəyə
qalxana kimi...

1971

***

Daha nədən,
kimdən yazım?
Qürbət elin vağzalında,
yarı ayıq,
yarı xoflu
mürgü vuran
zənci kimiyəm.
Cibimdə pul,
ürəyimdə vətən sözü,
gözlərimdə vətən özü,
öz üstümdə vətən gözü yox.
Aldanmıram, uymuram
neçə aydır, bəlkə il
pəncərə işığına,
Xəzər sahilindəki,

dildə ev dediyimiz
qapılı-pəncərəli
bu yalçın qayalara.
Neçə ildir Bakıda
gözümə dəymir mənim
rahat nəfəs alan kəs.
Bəlkə var,
Allah bilir,
kim bilir, bəlkə də var...
Baxıram, yorğun-yorğun
fınxırırlar arabir
arabadan açılıb
faytonlara qoşulmuş
bu əsilsiz yabılar...

1971

***

Gecə göy üzü ulduzlarla dolu.
Biri,
neçə min günəş boydadır
bəzi ulduzların.
Bəs niyə qərq olmuruq
onların işığına,
yanmırıq istisinə?
Uzaqdırlar, çox uzaq,
özgə dərdi kimi uzaq...

1980

***

Ürəyim yol çəkir bir közə dönüb,
Yollar da tərs kimi uzanıb, gülüm,
Yuxumdan hər gecə ilxılar keçir,
Bilmirəm nə olub, haradan bilim?
Belə getsə, sınar quşların səsi,

Dənizin də səsi günbəgün batar,
Yubanma, əzizim, gəl qurtar məni,
Arxadan dərd çapır, qorxuram çatar.

Halıma yanan gərək,
Səsin düşəndə yada,
Ötən günləri qoru,
Yaxşı bax, vermə bada,
Ayrılıq bir dənizmiş,
Sən uzaq, yaşıl ada...

Tez ol, xəbər yolla, görüm necəsən,
Gözlərin necədir, yerişin necə,
Yaman darıxmışam mən səndən ötrü,
Barı bir soraq ver, özün gəlincə.

Yerini bilmirəm, bilsəm gələrəm,
Könlünü alaram, sevərəm yenə,
Xəzərin köksündən qalxan dumana,
Qarı şanı büküb, gətirrəm sənə...*

***

Duman gölü bürüyər, suda üzər sonalar,
Üzümüzə hər yandan dəyər körpə nəfəsi,
Qərib bir nəğmə deyər mehin, qamışın səsi...

Səslər deyər: Sonalar,
Sonalar, ay sonalar,
Dünyada təzə nə var?
Yox olubmu həyatdan
Xoş sözə, etibara,
Eşqə həsrət qalan göz?
Yalqızlıqda dolan göz?
Sonalar, ay sonalar,
Dünyada təzə nə var?

*Mahnı mətni. Musiqisi Emin Sabitoğlunundur.

Duman göldən çəkilər, sularda işıq gülər,
Yenicə çağlayanda şən yaşamaq həvəsi,
Qərib bir nəğmə deyər mehin, qamışın səsi...*

1982

***

Bir kəsin
yadına düşmək
istəyirəm yaman,
bir kəsin yuxusuna girmək.
Sağlığıma içilmək
istəyirəm yaman.
İstəyirəm
arzularımın
əlindən tutan,
xatirəmi
yerdən qaldıran olsun.
Bir kəsin gülüşünə,
birinin ahına
dönmək,
bir pəncərədə yanıb,
bir pəncərədə
sönmək istəyirəm yaman...

1982

***

Məni unut, unut,
yaddaşın da
bir yük olub ömrümə.
Təkliyində qalan
səsim,

*Mahnı mətni. Musiqisi Aydın Əzimindir.

doğrum, yalanım
özümə gərəkdir hələ.
Səndən çox
özümə gərəkdir
sənsiz qalmağım...

1982

***

Unutma,
bu gecə yerinə girəndə yum gözlərini,
yorğanı da lap başına çək ki,
zil qaranlığa batasan.
və orada
bir anlıq zülmətdə yadına sal məni.
Onda, orda görəcəksən ki,
az da olsa,
gözlərimdən işıq düşür üstünə...

1982

***

Bu dünyanın söz-söhbəti,
ikiüzlü həqiqəti.
gəlib qulağıma dolur.
Bu dünya şeir yazmağa
mənə bu gün mane olur...

1982

***

Bu gün bir şerim üstündə
Allah dayanıb ağlayıb.
Beş-on şeir də yazmaqçün
Məni hələ sağ saxlayıb.

Bu gecə qulaqlarıma
Qaranlığın səsi dəyib,
Yazılmamış şeirlərin
Ruhu bədənimi geyib.

Əllərimlə şeir yazır,
Nəyinsə tərs iradəsi,
Kimsəsiz səhnədə qalxır
Ümidlərin ağ pərdəsi...

Çiynim yenə də söykənir
Evimizin divarına.
Bu günüm göz yaşı tökür,
Uşaqlığın məzarına...

1982

***

İndi yalvar bu yolların
Döngəsinə, ayrıcına,
Bu yolların qırağını
Kollar basıb yana-yana.

Bu yollara çıxıb indi,
Hara dönəsən biryolluq?
Döngələri didilibdir,
Ayrıcları yoluq-yoluq.
Bir bahadır dizi üstə
Düşüb göz yaşını tökür,
Əlacsız nağılların da
Dərdini uşaqlıq çəkir.

Bağımızda alma dəyib,
Ömrün budağını əyib,
Budaqların arasından
Gözümə bir ölüm dəyib...

1982

***

Bax, bu qara-boz buludlar,
göy üzünün bu gününkü tutqunluğu
nə səsiylə, nə nəfəsiylə demir ki,
yağış yağacaq...
Bu göy üzü kiminsə,
bəlkə nəyinsə vəsiyyətidir
yazılıb başımızın üstündə,
gözlərimizin qarşısında tutulub...
Ancaq bir kəs bilmir
onu yazanın dilini.
Bütün sözləri tanış,
ahəngi doğma olsa da,
kimsə oxuyub deyə bilmir ki,
nə yazılıb bu gün göy üzündə,
kimin vəsiyyəti durub
gözlərimizin qarşısında.
Kim ölüb?
Bilmirik kimə ağlayaq...

1982

***

Dağların səsi uzaq,
Evlərin eşiyi sazaq,
Hardasa həsrət gizlənib
Onu tapıb şerin yazaq.

Gedib ömür, nəyi qalıb,
Yad dənizdə lövbər salıb,
Bu kimsəsiz gecələrin
Könlünü bir şeir alıb.

Pəncərəmi duman tutub,
Harayına duman çatıb,

Bu gecə ay işığında
Neçə şerim mənsiz yatıb.

Ümid paslı, arzu seyrək,
Külək necə olsun dirək?
Bağda itən sözlərimə
Səhər erkən şeh düşəcək...

1982

***

Bu qayayla o qaya barışmaz,
o çayın səsi yaxın qoymaz özünə
bu çayın səsini.
Bu izlərin yiyəsi
dişlə-dırnaqla dayanıb
özü saldığı çığırın keşiyində...
Burda hər kəsin öz laylası olub,
hər kəs yırğalanıb öz beşiyində.
Burda bir günəş yanır
hamının başı üstündə,
ikincisi alışıb yansa,
bir kəs salamat qala bilməz burda.
Burda bir ürək dayanmaz,
o biri dayananda,
bir ayaq yorulanda,
yorulmaz o biri ayaq.
Bu mənzərəylə o mənzərə
barışmaz heç bir vaxt
və bir mənzərəyə
dönə bilməzlər birləşib.
Burda canlı yaşayır,
başqa canlını qoymaz yaxına,
bu dünya insanlarındır,
insanın yox...

1982

***

Səsim yaralanıb düz ortasından,
Yaradan qan axır göylərə, yerə,
Səsimin qanına mən bulaşmışam,
Yarasıyla çıxmışam küçələrə.

Günlərim üzülüb ömürdən qopur,
Günlərim su kimi ölümə hopur,
Danışsam, sevgilim, çəkil o yana,
Səsimdən qan damar ağ paltarına...

1982

***

Mənim bir pişiyim olacaq
yer üzündə ən yumşaq.
Bir kreslo tapılacaq oturmağa
dünyadan da geniş,
yer üzünün ən gözəl tütünüylə dolu
bir ingilis qəlyanı
ətirli tüstüsüylə
bürüyəcək məni,
bir də nəhəng divar saatı
duracaq gözlərimin qarşısında,
ömrümün
ən gözəl çağını
göstərə-göstərə...

1982

***

Üzünüzü divara tutun,
yer üzündəki heykəllər!
Qranitdən yonulmuş

bir at belinə
dipdiri,
totuq bir uşaq minib,
səyirdir qranit atı...

1982

***

Yenə də uğuldadı beynim.
Yenə də...
Kimə,
nəyə gərəyəm, Allah?
Çoxmu qapı qalıb
bu ömrün koridorlarında?
Kor əlində
fotoşəkil kimiyəm...

1982

***

Yorğun maral gözünə
bənzəyən dəniz,
bir də hardansa
səhraya atılıb,
ağlayan su pərisi
düşdü yadıma.
Nəylə dolur,
ürəyim nəylə dolur?
İkicanlı dünya
həmişə müharibə doğur...
Bu gün yaman uzandı...
Uzaqda dan ulduzu,
Otaqda
neft lampası yandı...

1982

***

Gəlişinə lap az qalıb,
Cəmi ikicə saat,
Gəlmə, qurban olum, gəlmə,
Bu gün də məni aldat...

Unut verdiyin vədəni,
Ya da xəstələn yenə,
Ancaq gəlmə, qurban olum,
Sevinmək düşmür mənə...

Hər gün nəyisə gözləmək,
Ömür, gün dirəyimdir,
Mənim sevinc, məhəbbət yox,
Ayrılıq çörəyimdir...

1983

***

Bir yol görmədim dönməsin,
Bir şam görmədim sönməsin.
Allah mənə dil veribsə,
Niyə danışıb, dinməsin?

Çiçək dərmək istəyirəm,
Dəniz görmək istəyirəm,
Mən də bir az bu dünyada,
Ömür sürmək istəyirəm.

Sinə dağlamaq üçünmüş,
Qapı bağlamaq üçünmüş,
Gülüşlə başlanan günün,
Sonu ağlamaq üçünmüş...

Şimşək niyə göydə çaxır?
Çay neçin dənizə axır?
Yad gözü heç, öz gözlərim
Mənə hər gecə yad baxır...

1983

***

Bu günü,
bu günümü
bir kəs görmür xoşbəxtlikdən.
Bu gün, şükür,
göz qabağında deyiləm.
Gözlərdən uzağam
təkcə Niyarımın
fotosundakı gözlərdən başqa.
O da xoşbəxtlikdən
mənə yox,
qərənfilə qonmuş
kəpənəyə baxır...

1983

***

Barış göz yaşınla, qaytar özünü,
Kədərdən ayrılıq ağırdır, ağır,
Addımla baxtının tozlu yoluyla,
Dar gündə köməyə ölümü çağır.

Cücərmək, gül açmaq kişilik deyil,
İndi erkəklikdir baharda solmaq,
Günəş yana-yana, işıq içində,
Təkbaşına sönüb, qaranlıq olmaq.

Ölüm qarşısında hər gün, həmişə,
Diz çöküb alçalmaq deyilmi həyat?
Ömür dediyimiz səhnəyə baxıb,
Ölümə əl çalmaq deyilmi həyat?

Qorxma yaddan çıxıb, unudulmaqdan,
Diri məzarıdır insan yaddaşı,
Ancaq şeir üçün yaşadır məni
Bu Yer kürəsinin torpağı, daşı...

1983

***

Xançalımın parıltısı qınında,
Yarımın gözləri özgə yanında,
Simurq quşu bu gün qonub oxudu,
Aman, özgə damında, yar, damında.

Meşənin solunda, çayın sağında,
Çəmənin göyündə, qarın ağında,
Yarımın izləri qalır, ay Allah,
Aman, özgə bağında, yar, bağında.
Burdan bir atlı keçdi gün batanda,
Quzular baş-başa verib yatanda,
Yarın ağ örpəyi göründü getdi,
Aman, özgə atında, yar, atında...

1983

***

Yalan deyirlər,
yalan sözdür,
asanlıqla,
gülə-gülə
doğmayıb, yaratmayıb
öz musiqisini Mosart.
Belə asan,
gülə-gülə ölə bilməz insan.
Yalan deyirlər, yalan...

1983

***

Otuz ikinci il olaydı.
Olaydım Çikaqoda.
Bir kafedə
qəlyan çəkə-çəkə oturaydım.
Və mütləq

bir svinq çalınaydı orda.
Çalınaydı
kökdən düşmüş qəhvəyi royalda
Çalanı özüm,
həm də zənci olaydım mütləq...

1983

***

Gedirəm, yenə də qayıtmaq üçün,
Ömür evə dönüb – ev birotaqlı,
Hara üz tutasan, hara qaçasan,
Dünya da bağlıdır, qapı da bağlı.

Bu neft lampasının zəif işığı,
Divara əlacsız kölgələr salır,
Allah şerimdən də "sevinc" sözünü
"Sənin deyil!" deyib, əlimdən alır...

1983

***

Rəngi solmuş bir səslə
deyilərkən "sevirəm" sözü,
qadın səsində
rəng seçə bilməyəndə
həsrətin gözü,
quru yurda,
dağılmış ocağa dönür
təbiətin özü...
Odur sus, saxlama həyatımı
rəngi solmuş səslə,
soldurma yaşadığım bu
əlvan dünyanı,
uydurduğum işığı belə

söndürmə gözlərimdə.
Onsuz da bilmirəm,
bilmirəm ömrüm kimdədir,
ölümüm kimdə...

1983

***

Səndən nə xəbəri,
nə sorağı var onun...
Enişi də,
yoxuşu da
sənsizdir bu yolun.
Ancaq bu yol
sənin izlərini üstünə ala-ala
bir bağa sarı getmək istəyir,
bu yol sənlə
ağaclar arasında itmək istəyir,
bu yol
səni kiməsə yetirib,
bitmək istəyir...

1983

***

Gizlət ayın işığını,
Bəlkə bizi görən var,
Qorxuram gecələri də
Əlimizdən alarlar.

Qar yağsa, heç kəsə demə,
"Qış gəlib yer üzünə",
Birdən baharı tutarlar,
Düşüb qışın izinə.

Eşitsən ki, bahar gəlib,
Evdən çıxma bir yana,

Nişana dönər, sevgilim,
Çiçək taxma yaxana...

Bu qorxu nə vaxt başlanıb?
Əsrin hansı ilində?
Söz deməyə söz tapmıram
Bu torpağın dilində...

1983

***

Bir ovuc sərinliyi olmayan kölgə...
Ağacı xəstədir,
qızdırma içindədir bəlkə?
Ya bəlkə bu kölgəni ağac yox,
torpağa kiminsə,
nəyinsə qapqara kədəri salır?
Bəlkə bu kölgəni
Allah bilə-bilə
çıxarıb qarşıma,
indi də məndən söz gözləyir, söz alır?
Kim sərinlənə bilər
bu qızmar kölgədə?
Kim bilir
daha nələr görəcəyik
vətən dediyimiz bu ölkədə...

1983

***

Səslər ağrılı,
rənglər yaralı...
Qanla dolub
bütün məsafələrin gözü...
Allaha sarı

qaçan duaların da
dalınca güllə atılır indi...
İnsan ömrü gəzir
ümidlərin meyitləri arasında
Şeirlər irinləyir
nəyinsə yarasında...

1983

***

İnsanların hamısı gözəldir, hamısı,
həmişə yox ancaq.
Hər nə uydururamsa,
sonradan görürəm olub dünyada.
Nə saatın, nə zamanın rəqəmlərinə
uyma, aldanma, qardaşım,
yeni eradan əvvəl yaşayırıq hamımız...
Göz yaşı dənizindən tutulan balıq
tarix dadındadır.
Biz unutmuşuq hər şeyi,
ancaq hər şey Allahın yadındadır.
Hər gün yüz kərə irəli sıçramaqdansa,
bütün ömrün uzunu
cəmi bircə addım kənara atıb
bir daş üstə otur.
Oturub göy üzünə,
və yollara bax.
Dünyada ən qədim şey göy üzüdür,
ən köhnəlmiş şey – yollar...

1983

***

Nə qədər sual cavabsız qalarmış
bircə gödək insan ömründə?
Nə vaxta qədər

həyatın özünə belə
yeganə doğru cavab
ancaq ölüm olarmış?
Nə çağa kimi
heç nə bilməyəcəyik yaşayarkən,
heç nə bilməyəcəyik
ağlaya-ağlaya, gülə-gülə?
Elə beləmi gedəcək?
Ya
gah elə, gah belə?
Ən nəhəng, içi dolu gəmi də
bir gün görünməlidir axı dənizdə,
yan almalıdır axı sahilə!..

1983

***

Görünmək, heç olmasa gözə dəymək,
sevilmək istəyib,
xoşbəxt olmaq arzusuyla
Bakının küçələrini gəzə-gəzə,
yenə gəlib çıxıram bura,
dirənirəm dənizə.
Və gəmi dibi qoxuyan bu liman,
min insan sifəti görmüş sular
sanki deyir:
"Doğumla ölüm arasında səbir var..."
Və qışın ən sazaqlı günündə
əynindən çıxıb yerə düşür
ümidlərin, arzuların libası...
Və yenə soyuq,
yenə yay həsrəti, yenə günəş yası.
Və yenə
yeganə təsəlli kimi
gəmi dibi qoxuyan dəniz havası...

1983

***

... əzbər də deyəcəklər şeirlərimi,
sözlərim də bəd ayaqda bəlkə
kiminsə yadına da düşəcək.
Beş-on qarayanız bala
məndən də çox,
məndən də aydın görəcəklər
şair ömrümün bağlanmış qapılarını...
Məzarım üstə
araq da içəcəklər yəqin.
Biləcəklərmi görəsən, ancaq
harada, nə vaxt,
kim yazıb şeirlərimi?

1985

***

Sübhün qapısı ağzında
ora-bura gəzə-gəzə
bir musiqi akkordu,
bir dekabr gecəsi,
çaydandan qalxan
bir bəyaz buğ yoxluğu.
Sobanın istisi,
qəlyanından tüstülənib, qalxa-qalxa
harasa uçan,
yer üzünə yorğun-yorğun baxa-baxa
uzaqlaşan bir dəstə ruh,
bir qapı,
bir yol,
bir sübh həsrətinin yoxluğu...

1985

***

Hamı dağılışdı,
çıxıb getdi hər kəs öz
iş-gücünün dalınca...
İndi oturub yazı yazmalıyam.
İnsanlar ölüm ayağına gəlib çıxıblar,
ancaq bunu elə yazmalıyam ki,
mən belisınmış,
axırı yaxşı qurtarsın ölənlərin...
Ölüm də istəyirlər –
ildə bir-iki ümid də, işə bax.
Bir ayaq üstə indi gəl,
gəl fırlan, fırlan, şair oğlu, valsda...
Neyləyim!
hansı ömürdən qaçım,
hansı ölümü çağırım köməyə?
Qonaqlar da dağılmışdı tərs kimi
şüşələr dolu,
qədəhlər boş qalsa da...

1985

***

Bilirsənmi nədən,
niyə öldün sən?
Dünyanın ən pis dərdinə –
susan, danışmayan insanın
eşidə bilmək azarına tutulmuşdun.
Bilirdin hardadır kimin fikri,
kim necə yaşayıb,
necə ölmək istəyir.
Özü də, aman Allah, bu dünyada,
bu zamanada!
Yerli-dibli xəbərin yox idi

“MƏN” sözündən.
Bir də tək idin.
Ancaq bir qəribə yekəxanalığın
vardı tənhalığında.
Razısanmı sözlərimlə?
Razı olsan da bir söz deməyib,
başını aşağı salacaqsan o dünyada
utandığından...

1985

***

Zəhləmi aparan,
bircə an da susmayan
bir səs eşidirəm.
Qılınc tərtəmiz parıldayır işıqda
qana əlin bulanıb, al qana.
hönkürə-hönkürə göz yaşı axıdırsan
o məzarın üstünə.
Gərək indi yox, burda yox,
qılıncla aranda bir addım
olan gün qarğıyaydın,
qılıncla sənin arandakı
məsafənin üstündə göz yaşı tökəydik.
Gərək atmayaydın o bircə addımı.
Açmayaydın
indi bir an susmayan
o səs yiyəsinin ağzını...

1985

***

Professor, bilirəm,
bu xəstəlikdən can qurtarmaqçün,
bir zəhrimar içkidən,

bir də
azadlıq arzusundan əl çəkmək gərək.
Bir də gərək qulağıma dəyməsin
ağlayan körpə səsi,
bir də bizim ana dilin sözləri...
Professor,
sol əlim ağrıyanda
sağ əlim bağırır,
ayaqlarım tutulur, professor,
gözlərim bu torpağı görəndə...
Professor,
qurban olum, məndən keçdi deyəsən,
muğayat ol, professor,
iki qız övladımdan....

1985

***

Təpədən enib suya yan aldı.
İndi su içəcək,
su içəcək ayı...
O yana-bu yana baxıb,
beş-on yol iylədi aləmi.
Sonra bir suya baxdı,
bir də yuxarı.
Su içmədi nədənsə.
Yanpörtü yeriyə-yeriyə
aşıb təpəni, getdi...
Su içən ayı görmək də
qismət olmadı mənə.
Yenə qaldım
şeirlə musiqi arasında
tək-tənha.
Yelkənli gəmi görməyib,
su içən ayı görməyib...

1985

***

Mən bu əzabdan həm qorxur,
həm də onun arzusuyla yaşayırdım.
Mən ondan həm utanır,
həm də vicdanımı soyundurub,
lüt-çılpaq çıxarırdım
onun qarşısına.
Özüm dilləndirib onu,
özüm də utanmaqdan
yerə girirdim onun qabağında...
Hardan gəlib çıxıb bu əzab,
hansı cansız göndərib onu?
Axı dünyada heç bir vaxt
ən adi mətləbdən belə agah olmayacaq
şeir yazan bəndə.
Axı məndən kənardadır ətraf, kənarda,
iqlimdə isə
bu ətraf əks olunmuş
güzgüdən savayı heç bir şey yoxdur, yox...

1985

***

Nə bir söz, nə inilti,
nə göz yaşı, nə söyüş,
nə də hirsdən, əlacsızlıqdan
dodaq gəmirən dişlər.
Heç bir şey.
Bircə süst düşmüş gözlərin
laqeyd baxışı,
bir də qupquru qurumuş bədənin
zəncirlənməmiş hərəkətsizliyi...
Sağda-solda yalçın qayalar,

irəlidə və arxada tozlu torpaq yol.
Qaçqın düşmüş vicdandansa,
nə bir xəbər, nə soraq...

1985

***

Niyə avaz tərs gəlir,
Zil deyilən pəs gəlir,
Ömrün ən gözəl falı,
Əvvəl-axır nəs gəlir?

Uşaqlıq tutub bizi,
Harasa atıb bizi,
Qiymətimiz var idi,
Kim nisyə satıb bizi?

Bizi soyudan qardır,
Ömrün yolları dardır,
Eşitmişəm hardasa,
Yar yatan vətən vardır...

1985

***

Solmuş gül-çiçək təpəciyidir
indi sənin məzarın.
Ətrafındakı laqeyd daşlarda
tanımadığım adamların adları,
bir həyata,
bir də ölümə doğulduqları

illər yazılıb...
Mavi göy üzündə
ucları qaralan qovaqların
kölgəsi düşüb üstünə...
Bir müharibədən sonra,
o birindən əvvəl öldün.
Müharibə görmədin.
İndi də
solmuş gül-çiçək təpəsinin
altında qalıb,
görmürsən
başın üstə
qanad itiliyən qaranquşları...

1985

***

Toplar min-min atılsa da,
Bu sirri Allah bilir,
Məndən mənə bu dünyada,
Ancaq yuxular gəlir...

Unudulur ən xoş günün,
Ən mötəbər qoxusu,
Aləmə meydan oxuyur,
Adi insan yuxusu...

Ürəyimdən düşən sözlər,
Ayaq altında qalır,
İnsanı insan gününə,
Allah yox, insan salır...

1985

***

Gözə görünməz bir səadət gəzər,
gəzər bu otaqlarda, mətbəxdə,
nə pəncərəyə əksi düşər,
nə görünər güzgüdə,
şəhərə çıxar, çıxar sənlə,
taksiyə minib sənlə
sən arxada əyləşəndə
şoferin yanında oturar səadət,
hər an sənlə, hər an yanında,
di gəl ki, bir an görünməz,
görünməz gözlərinə səadət,
göstərməz özünü, səsini çıxarmaz,
min yol çağırsan da onu,
ağlasan da, gülsən də,
elə hey gəzər ha, gəzər buralarda,
gözə görünməz səadət
sənə baxa-baxa,
görünməyə-görünməyə gözlərinə...

1985

***

Bu gecə səssiz-səmirsiz gəldi,
gəldi üstünə.
Ağaclara, kollara, qoxulara,
axırda da qaranlığa döndü.
Qırdı belini gün işığının...
İndi qorx.
Qorxusuz yaşamaq olmaz insana.
Mərd adam sanırsansa özünü,
qorxmalısan
tüfəngsiz gəzdiyin bu meşədən də,
evdə qoyub getdiyin tüfəngdən də...

Səndən bir addım aralıda
nə vaxtsa kökündən çıxan palıdın
çürüyən gövdəsi qaralır.
Özü min ildən çox
sən indi qorxduğun yerlərə baxırdı.
Gündüz işıqda, gecələr qaranlıqda...

1985

***

Ölüm ayağında can verən
bir xəstənin yanında
oturmuşam sanki.
Yastıq üstə ora-bura vurnuxur
olmayan xəstənin başı,
əlləri havada gəzir,
nəyisə, kimisə tutub,
saxlamaq istəyir xəstə.
Onun əzablarına baxa-baxa,
bir-bir yadıma salıram
eşitdiyim, bildiyim xəstəlikləri.
İnkar etmək istəyirəm hamısını.
Ancaq onun dərdinə nə dərman,
nə mənim inkarım əlac ola bilər.
Çünki
elə ağrı olur ki,
ondan ancaq
ölüm qurtara bilir
xəstənin
başı üstə oturan adamı...

1985

***

Sarı qamışların dibi yaşıl, tünd yaşıl,
bu rəngin iyi də tünd,
qara lil qoxuyur uzaqdan belə,
səhər erkən yaşılbaşlar
səs-səsə verib, qaqqıldaşanda da
tünd yaşıl rəngi solmur, açılmır.
Sarı qamış dibinin
seyrəlmir, çəkilmir qoxusu,
azacıq azalsa da barıt iyindən...
Günəş yavaş-yavaş açıb, ağardanda
suyun üzünü,
bu suyun qiymətinə qalxır,
yaman bahalanır insan ömrü.
Görən gözlərin xoşbəxtliyini
görən göz olmur, hayıf,
çünki həyat yox olub, görünmür
sarı qamışların arasında...

1985

***

Getmə, yaxın durma o daşa,
o daşın altında gizlənən əqrəbdən
indi qurtarsam səni,
sabah o qayadan çıxan gürzənin
yolunu kəsə bilməyəcəyəm,
uzaqda olacağam bəlkə...
Qasırğanı, tufanı döndərib,
yatırda bilərəm, ancaq
zəlzələnin tilsimi
mənim əlimdə deyil...
Odur, inanma, güvənmə mənə,
gedəndə, daşlara, qayalara

baxa-baxa yeri,
yatanda
qasırğadan, tufandan qorunmuş yerdə uzan
və yuxuya getməzdən əvvəl dua elə,
dua elə ki,
zəlzələ olmasın bu gecə...

1985

***

Səhər beş oldu, cümlələr,
Gəlin bir nöqtə qoyaq,
Yorğan-döşək olan yerə
Baxır daha əl-ayaq.

Musiqi də radiodan
Bir saatdır yox olub,
İndi neçə-neçə dildə
Səmaya söyüş dolub.

Qoyun-quzu səsə gəlib,
İndi örüş vaxtıdır,
Peysərimin yastıq ilə
İndi görüş vaxtıdır.

Gedib bu saat yatmasam,
Günüm yarımçıq qalar,
Yuxuda məni gözləyən,
Bir adama sözüm var...

1985

***

Keçmişə əlvida demək olmaz,
gələcəklə
vidalaşa bilər insan ancaq.
Alabəzək, qurama,
zınqırovlu papağı başında

dar ağacından asılmış təlxək kimi
görünür mənə
bu günlərin hər gülüşü, hər sevinci.
Yoruldum, yoruldum bu gün.
Heç cür
özümün xoşuna gələ bilmirəm yenə.
Dilim də gəlmir, nədənsə
özümə xoş gün arzulayım...
Qapının arasından
bir zolaq işıq düşüb döşəməyə.
Elə bil kimsə fanarla işıq salıb,
gecə qaranlığının içiylə
harasa getdiyim
ucsuz-bucaqsız səhraya...

1985

***

Bizdən qorxmayın, yox,
qorxun bizdən sonra gələnlərdən...
Bir kəs bilmir niyə, nəylə,
hansı niyyətlə gəlir onlar.
Bir kəsin də ağlına gələ bilməz
haradan çıxacaqlar
bizdən sonra gələnlər...
Nəğmələri necə,
nəğmələrinin sözü necə,
nədən olacaq?
Öldürməyəmi gələcəklər ancaq,
yoxsa
nəsə deyəcəklər sizə
başınız üstə
qılınc qaldırmaqdan qabaq?
Qorxun,
qorxun bizdən sonra gələnlərdən...

1985

***

Buralar haradır?
Kimindir buralar?
Yox, bu qarayanız insanların
biri də
mənim didilmiş xəyalımın
uydurması deyil.
Hər kəs özü-özünü uydurub bu şəhərdə.
hər gün mini keçir yanımdan,
neçə mini də uçub gedir
başımın üstündən.
Bu şəhər məskəni deyil mələkələrin.
Cənnət qapısı da deyil bu şəhər.
Gözü açılıb yumulan kukla kimi
doğulan gündən baxıram
bu yerin adamlarına.
Mələkə dəymir gözümə aralarında,
məni də qanadlı görmür heç kəs.
İnsan hər tərəfdən görünmür, çünki
kəpənək yaxşı görünür
mən gördüklərimdən...

1985

***

Sifətin nə vaxtdır yadımdan çıxıb,
Tanıya bilmirəm küçədə səni.
Sənin sorağınla keçmişə baxıb,
Qaytara bilmərəm ölüb gedəni.

Dilə gəlsə belə hansı məzardan,
Soruşa bilərəm necə olmusan?
Allah bilir, səsin gələcək hardan,
Allah bilir, harda yuva salmısan.

Adam qadir deyil geri dönməyə,
Keçmişlə gələcək görüşmür heç vaxt,
Keçənə, gələnə hey dəyə-dəyə,
Bir günün içində qurdalanır baxt.

Yaddaş qıfıl vurub ötən günlərə,
Qapı döyə-döyə olmaz yaşamaq,
Gecədən bir parça kəsib səhərə
Vura bilməz indi şeytan da yamaq...

1985

***

Gəl kilsəyə gedək,
sənlə kilsədən çıxmaq istəyirəm.
İstəyirəm
görsünlər, belə görsünlər bizi,
bizi bir yerdə.
Kilsə zəngləri çalınsın,
Bakının küçələrində də,
getməsin burnumuzdan
kilsədə yanan şamların iyi.
Gəl gedək,
sonra çıxaq kilsədən,
şəhərə çıxaq birbaş.
Və baxaq yanımızdan ötən
adamların sifətinə.
Görək evə qədər
gözümüzə dəyəcəkmi
İsa peyğəmbərə oxşayan
bircə kişi, ya qadın...

1985

***

Barmaqların gəzdi, gəzdi
saman sarısı saçlarda,
barmaqların sənə inanmışdı,
əlacsız olur axı
barmaqlar qürbətdə...
Sənsə yazılmamış şeirlərini
azdırırdın
saman sarısı saçların
cəngəlliyində,
sinəndə qalan sözlərin
ürəyinə bəlkə məlhəm olacağına uyub...
Olammazdı heç bir vaxt, şair...
Güneysiz dağlar,
dörd yanı quzey dağlar,
sənə inanan barmaqlar...
Ürək azarı bir yana, Nazim Hikmət,
qürbətdə məhəbbətin,
bir də məsafənin infarktı...

1985

***

Neyləmək olardı axı o anda?
Ya gərək
Saturndan baxaydın dünyaya,
ya dünyadan üzülüb başlı-ayaqlı
bir uzaq ulduza dönəydin...
Əlindən nə gələ bilərdi
axı o dəqiqə?
Başa düşüb, anlamaq olmazdı heç nəyi,
heç nə görünmürdü çünki.
Bir iz də görünə bilməzdi
o qatı dumanda.

İnsan beyni yorğun qoca səyyahdır,
səhrayla harasa
üz tutub gedən səyyah.
Neyləyə bilər o, nə gələr əlindən?
Bircə anlıq, bir anlığa
başını sinəndən qaldır,
qaldır, ay Allah...

1985

***

Şeirlərim qalır mən gedə-gedə
yerdə qalır, yalquzaq izi kimi...
Kim düşəcək bu izlərə,
kim gələcək arxamca
şeirlərimə baxa-baxa?
Bir qaya dibində yaxalayıb,
başımı pəncəmə qoyub yatarkən
tüfənglə vursa məni,
Allaha qurban olum.
Vay o gündən
başıma boyunduruq salıb,
apara kiminsə qapısına bağlamağa...
Yağ, yağış, qadan alım, yağ,
yaxşı-yaxşı yağ
dünyanın mən gələn,
mən gedən yerlərinə.
Şeirlərimi yer üzündən yuya-yuya,
gözlərimə dola-dola yağ, yağış...

1985

***

Sol əlimlə sağ əlimin
Arasında duman, dağ,
Hansı əlim qürbətdədir,
Hansı ölü, hansı sağ?

Sol əlimlə sağ əlimin
Arasıyla çay axır,
Hansı əlim batır suda,
Hansı sahildən baxır?

Sol əlimlə sağ əlimin
Arasında yağar qar,
Hansı əlim istidədir,
Hansı çöllərdə donar?

Sol əlimlə sağ əlimin
Arasında qapı var,
Hansı əlim döyər onu,
Hansı görəsən açar?

1985

***

Yuxumda,
yuxumun kollarında, daşlar arasında,
yapışıb daşların kələ-kötürlüyündən
bir gürzə dərisini dəyişir.
Ağrıdan içində zarıya-zarıya,
anasından əmdiyi süd burnundan gələ-gələ,
qabıqdan çıxır gürzə.
Yuxumda,
yuxumun kollarında,
daşlar arasında
ilan ağlayır...

1985

***

Meydan ölüm meydanı,
Yalçın qaya dörd yanı.
Ölən tapmaq asandır,
Burda öldürən hanı?

Qaynar axır
Atın qanı,
Köpüklənir,
Qızır canı,
At səyirdir
Qulyabanı,
Hörür, hörür
At yalını.

Burda ölən diridir,
Diri mindən biridir.
Meydan ölüm meydanı,
Bura vətən yeridir...

1985

***

Səbirsizəm, tükənmişəm, partlayıram,
çıxa bilmir sinəmdən
daşa dönüb ana dilin neçə sözü,
səbirsizəm, dözəmmirəm,
kişnəyin,
at heykəlləri, kişnəyin,
kişnəyin məscidlərin,
kilsələrin qabağında,
batırın əzanların, zənglərin səsini,
bəlkə daş atların
bağırtısı oyada bilər

sinədə daşa dönmüş sözləri,
bəlkə tunc madyanların əmcəyindən
süd axmalıdır boğazıma,
açmaq üçün boğazımın yolunu.
Kişnəyin, at heykəlləri, kişnəyin...

1985

***

Məktub yazsan, yağış yağan gündə yaz,
Şəklini eyvanda çəkdirib göndər,
Soyuq olsa, şaxta vursa aləmi,
Şəkildə yay olsun, bağda üzüm dər.

Soruşma heç kəsdən Bakı necədir,
Küçələr yenə də külək əlində,
Gecələr araqdan qızmış cavanlar,
Dünyanı söyürlər ana dilində.

Vallah, deyib-gülən günlər də olur,
Tanışların çoxu ölməyib hələ,
Dərd, azar törənib, artsa da hər gün,
İntihar həsrəti gəlməyib hələ.

Təkcə xəbərsizlik sıxır adamı,
Səs çıxmır Allahdan, radiolardan,
Bahar əvvəlkitək çiçəklə gəlir,
Qışın gəldiyini bilirik qardan...

1985

***

Sözümüz sözdü, bir şey olmasa,
göz dəyməsə bu ayın sabah gələcək gününə,
o sabahkı günün on ikinci saatında
qopub uçmasa yerindən Yer kürəsi,
dodaqlarımızda ana dilimiz

arabir rus sözləri ilə,
qulaqlarımız bir-birimizin səsində,
gözlərimiz bir-birimizin üzünə,
gözünə baxa-baxa
oturacağıq danışdığımız yerdə,
süfrəmizdə bir qalaq qutab,
əlimizdə araqla, ya şərabla dolu qədəhlər,
çiynimizdə vətən göyünün çəkisiz ağırlığı.
Və qarşımızda Xəzər olacaq,
bir şey olmasa,
göz dəyməsə bu ayın sabah gələcək gününə.
Qarşımızda Xəzər olacaq
o sabahkı günün on ikinci saatında,
Qopub uçmasa yerindən Yer kürəsi,
qarşımızda Xəzər olacaq,
onu görmək üçün bu gündən,
bax, bu gündən gözlərimiz dolsa...

1985

***

Qaldırma o daşı.
o daşın altında bəlkə
gözləri yaşarmış
bir əqrəb yatıb.
Baxma dərədən qalxan dumanın üzünə.
özxoşuna gəlməyib o bu dağlara bəlkə?
Niyə, neçin hər gün ya çıxırsan,
ya çıxmaq istəyirsən bu küçələrə?
Bilirsənmi
nə ağır yük düşüb çiyninə yolların?
Yaman dərddir
sinən üstə gedənlərin
əvvəl-axır öləcəyini bilmək.
Hələ torpağına, daşına, asfaltına axan

insan qanını,
üzüquylu üzünə yıxılan
qocaları, sərxoşları demirəm...
Dəymə, çox dəymə, əl vurma,
tərpətmə bu dünyanı!...

1985

***

Dağlar torpağın dalğalarısa,
yer üzünün
fırtına tikəsidir bu yerlər...
Və kəndlərimiz uzaq zamanlardan bəri
hər gün, hər an batmaq qorxusunda,
insanlarımız ölüm ayağında,
keçmişlə bu günümüz bır qayıqda...
Yoxdan, heçdən
yelkən qaldırmaq olurmuşsa,
bu dalğaların belində, yedəyində
bu qayıqda
elə yoxdan heçə üzmək nəsibmiş bizə...
Bilinməz nədir,
hardadır
bu dənizin sahili, limanları,
hara yan alıb,
lövbər salar
bu yerlər, bu kəndlər...

1985

***

Ayrılma o sarı,
yox sapsarı yağışa açılmış pəncərədən.
Gözlərini yumma
islanmış yolun qarşısında.
Tutma

əllərinlə qulaqlarını,
eşit, eşit
xəfif yarpaqlara dəyən
ağır damlaların səsini.
Bir uzaq ümidin
üzünə baxırsan bəlkə,
bəlkə sarı yağışa dönmüş
bir yuxulu həsrətlə
göz-gözə,
üz-üzə dayanmısan...

1985

***

Onun süfrəsi dama-dama,
rəngi yaşıl,
üstü dolu.
Onun süfrəsi açılır
söhbətlərin, xatirələrin üzünə,
bağlanır yad gözlərə,
tutulur maaşla eşidən qulaqlara.
Çörək – çörək dadır,
şərab – şərab.
Yağış çiləsə,
həyətdən evə keçir onun süfrəsi.
Onun süfrəsi
ən gözəl xatirədir gördüklərimdən.
Onun süfrəsi
qalib bayrağıtək
açılır hər səhər...

1985

***

Gedir, gedir baş götürüb,
Saxlama, qoy dəysin daşa,
Çilik-çilik olsun yollar,
Sonra otur, yolsuz yaşa.

Unut getməyi, gəlməyi,
Ağır yükdür bizə ayaq,
Bizimçin ancaq yuxuda,
Yanıb sönə bilər mayak.

Ürəyini sıxma bir an,
Demə "bəs yollar neçindir?!
Qardaş, bizim gözlərimiz
Ancaq yol çəkmək içindir...

1985

***

Yoxdur daha sənin gözünün yaşı.
Sevincdən ağlanan günlər qurudu,
İndi yüz meşəni bir ocağa çat,
Tüstüsü ucalmaz, görünməz odu.

Quşlar yaralanıb, uçanda göydə,
Torpaq dizi üstə düşüb, ağlayır,
Qayaya dayayır sırtını külək,
Yağışın yolunu bürkü bağlayır.

Çürüyən ağaclar ölüm qoxuyur,
Otların üstüylə salınmır cığır,
Buludlar yenə də min şəkil alır,
Çaylar əvvəlkitək dənizə axır.

Aləm çaşıb qalıb, hər şey qarışıb,
Aşıq yuxusunda kökə gəlmir saz,
Kaş ki bircə günlük geri dönəydin,
Gözlərin yenə də dolaydı bir az...

1985

***

Gəlib lap gözlərimin
qabağında dursan da,
yenə də uzaqdan, güclə
görəcəyəm səni.
Çünki ilk gəlişinlə
keçmişlərə getdin.
Ən əcaib yuxulardan da
uzaq, əlçatmaz xatirələrə...
Bir insanı tutub,
saxlaya bilməmişəm əlimdə,
hamısı düşüb bəxtimin burulğanına,
xatirələrə batıb...
Günlər doğar-doğmaz yosun bağlayır,
ömür yamyaşıl su içində.
Bütün ümidlər qaya dibi qaranlığında.
İçim, çölüm
gözsüz mağara balıqları...

1985

***

Salam, salam,
bağ hasarına düşən kölgəm, salam...
Yaman bezikmişdim
qışın kölgəsizliyindən, yaman.

İndi sənə baxa-baxa,
arxamdakı günəşə də
salam verirəm, kölgəm.
Salam, işıq,
salam, yay,
salam, isti,
salam, kölgəsizlik həsrəti, salam...

1985

***

Necə qulaq asa bilirdi,
qulaq asa bilirdi o adama...
Yadında qalırdı sözlərə, cümlələrə
fikirlərə bürünmüş səsinin
istisi də, soyuğu da.
Onun yaddaşı
dəqiqələr yığılmış sandıq idi.
Özü də deməzdi, danış!
Gözləyirdi...
Sonra sənin sözlərini
özünə deyərdi bir-bir,
danışardı nağıl kimi.
O xoşbəxt günlərdə
öz nağıllarıma qulaq asa-asa,
yuxuya gedərdim mən,
nənəmin,
rəhmətlik nənəmin səsini
yorğan kimi üstümə çəkib...

1985

***

Bir çəpər qırağında
döyülən uşaqlığın
hıçqırığı bu gün çıxa,
göz yaşı axa yer üzünə, aman Allah,

qırx ildən sonra,
yarpaqları toz basmış
bu zeytunun yanında...
Bəlkə günahlardan ən böyüyü
ağacın gözü qabağında ağlamaqdır,
bəlkə baltadan da pisdir
ağac dibinə daman göz yaşı...

1985

***

Yol ver, çəkil,
qoy ötüb keçsin bu buludlar da,
vaxt ayır, yer ver
qoy Afrikanın hansısa küncündə
bir insan da acından ölsün,
bir sərxoş da üzü üstə yerə dəysin qoy
Saratov limanında –
oğrun-oğrun axan İdelin
gözləri qabağında...
Bu dünya təkcə sənin deyil...
Üzüquylu yıxılıb ölmək,
bulud kimi keçib getmək,
təkcə sənin alnına yazılmayıb
bu dünyada...

1985

***

Çiskinli payız gününün,
kimsəsiz bir parkda çalınıb ölən
valsın ot basmış məzarının,
duman içindən çıxıb,

qan öskürə-öskürə
gözlərinin içinə baxan
insan azarının,
bəzən gözəl,
bəzən sözgəlişi deyilmiş sözlərin,
açılan gündən
yumulmaq qorxusuyla yaşayan gözlərin,
həmişəlik keçmişdə qalacaq sabahın,
gələcəyin sinəsindən çıxacaq ahın,
təkliyin sinəsində
xaç çəkən əlin təntənəsi, bayramı?
Yüz neçə illiyi?
Aman Allah, sənə söz atmaqdır
Çexovun yubileyi...

1985

***

Özümü zorla,
darta-darta çəkib,
şeirlərimə gətirdim.
Gördüm yenə
bir sözə,
bir Allaha bəndəm.
İkisi də sap kimi nazik...

1985

***

Kim? Niyə? Haçaq?
Bilmirəm.
Kimə? Niyə? Nə vaxt?
Bilmirəm.

Kimdən? Neçin? Nə zaman?
Bilmirəm.
Hardan? Hara?
Bilmirəm.
Niyə? Neçin?
Bilmirəm!
Bilmirəm!
Bilmirəm!

1985

***

Gecənin dağınıq qaranlığından,
Keçib düz dənizə üz tutur külək,
Yelkənlər küləklə dolmaq istəmir,
Bu külək dənizin nəyinə gərək?

Ayrılıq düzündə insan baxtının,
İzləri qurumaz suyla dolubdur,
Ümid bel bağlamır yenə sabaha,
Gələcək elə bil çoxdan olubdur...

Bir yuxu dayanıb qapım ağzında,
Tozlu astanaya düşüb kölgəsi,
Qapını açmağa çağırır məni,
Yozulmaz yuxunun kimsəsiz səsi...

Bu bağlı dünyanın torpaqlarında,
Bilmirəm, nə üçün salınıb yollar,
Yaxşı ki, qapını döyən yuxunun
Səsini batıran dəniz səsi var...

1985

***

Bu küləkdən,
bu şimal-şərq küləyindən
hansısa bir xoş günün iyi gəlir.
Pəncərə pərdəsi yırğalanır o xoş günün
unudulmuş,
fəqət gəlişi də, deyilişi də
gözəl olmuş
sözləri kimi.
Bu küləyin səsi də
hansısa bir qadının səsinə yox,
dalğalanan qəhvəyi saçlarına bənzəyir...
Haçaq, nə vaxt?
Bir yer, bir qadın, beş-on söz,
bir külək,
və qəhvəyi qadın saçları var idi...
Daha yadımda heç nə yox, heç nə,
bugünkü külək isə
oyada bilmir yaddaşımda yatan
xatirələrin çoxunu...

1985

***

Sən allah, birdən-birə, xəbərsiz
görünmə gözümə.
Nə keçmişim,
nə gələcəyim hazırdır
səni görməyə indi.
Payıza da
düz dörd ay var hələ.
İndi gizlənməyə,
nə arxasında
boz yağış yağan

bir pəncərəm,
nə də sözlərində itə biləcəyim
bir şerim var.
Ada kimi dörd yandan açıq
dörd yandan kimsəsiz,
dörd yandan arxasızam indi...

1985

***

Qumlu sahilin üstüylə
isti sürünür,
heysiz dənizin köksündə
qayıq görünür.

Bir cansız yelkən sallanıb,
dor ağacından,
elə bil külək asılıb,
dar ağacından...

1985

***

Bu yağış yad yağışdır,
Yağsa da indi burda,
Uşaqlıqda mən onu
Görməmişəm heç harda.

Şüvəlan yollarında,
Rast gəlməmişəm ona,
Nənəmlə çox gedərdik,
Ətağanın yanına.

Görməmişəm mən onu,
Zina fala baxanda,
Şikəst əli kasadan,
Doğru falla çıxanda.

Bəlkə ilan dovşanı
Yol üstündə boğanda?
Uşaqlığım olmayıb,
Mənim yağış yağanda...

1985

***

Qayalarla insanlar gen
düşüb bir-birindən,
meşələr o yana, bizlər bu yana üz tutmuşuq,
nəhəng su yığımıdır,
dəniz deyil Xəzər artıq,
qaya kimi möhkəm,
meşə qədər gözəl,
dəniztək geniş olmaq,
gülünc gəlir daha bizə.
Torpaqla ayrılıq başlanıbsa,
bu yolların heç biri qürbətə getmir,
və bir cığır keçmir vətəndən...

1985

***

Bəlkə də bir daha yanmaz,
İndi sönən o pəncərə,
Gündə neçə işıq sönür,
Gözlərimiz görə-görə.

Bizim göydə durnaların,
Hər gün qatarı pozulur,
Yuxular sona yetməmiş,
Artıq hardasa yozulur.

Kimisə qorxu bürüyür,
Kiminsə titrəyir əli,
Qaranlıqda duran qaya,
Qalib ölümün heykəli.

Səsdən səsə həyan olmaz,
Əgər tutulubsa dillər,
Daha qatar düzə bilməz,
Bizim göydən keçən illər.

1985

***

Yatan küçük kimi yumşaq
bir ürək rahatlığı.
İrəlidə nə qızmar günəş var,
nə dağlardan sağılmış duman.
İrəli aydın,
arxa arxayın...
Xoşbəxt,
özü-özünə inanmayan bir gün.
Özü-özünə qorxu gəlməyən,
doğulduğundan utanmayan bir gün.
Yaddan çıxmayıb
bir küçə adı,
bir telefon nömrəsi.
Sağa getdin-xoşbəxtlik,
sola vardın-xoşbəxtlik,
irəli aydınlıq, arxa arxayınlıq.

Yerində dayanıb tərpənməsən,
bircə addım atmayıb qımıldanmasan,
yanından keçəndə
səndən arxayın ötüb, keçəcək Allah...

1985

***

Hara baxır, niyə baxır,
Daşda iz qoyan gözlər?
İşığa apara bilməz,
Daş üstə qalan izlər.

Yağış yumaz, gün yandırmaz,
Bu izləri min illər.
Kimsə deməz: "Daha bəsdir,
Yorma daşı, dur, yetər!".

Gecənin içində itər,
Gündüzə nişan olar,
İzlər gecə qaranlıqla,
Gündüz işıqla dolar...

1985

***

Bu tarım çəkilən simlər,
Bu son mizrab, bu son səs,
Nəğmə uzaqda oxundu,
Burda qaraldı nəfəs.

Süzüb sındıra-sındıra,
Kim "Ruhani" oynadı?

Nə qoşmanın özü qaldı,
Nə ustadının adı.

Seyrəl deyib, gəlmə deyib,
Dağdan duman aldılar
Yerdən, göydən üzülüşüb,
Bir simdə yurd saldılar.

İndi gəlin toy-düyünə,
Əgər qalıbsa həvəs,
Bu tarım çəkilən simlər,
Bu son mizrab, bu son səs...

1985

***

Bu insanların üzü toz rəngində,
qızmar istidən keçən
torpaq yol qoxuyur bu insanlar.
İlan yatar,
can qızıdar
burda yatan
körpələrin qoynunda...
Bu torpağa yağış yağmaz,
qar düşməz.
Bu torpağın arxları bir nəğmədən,
quyuları
bircə sözdən quruyar.
Bu yerlərdə
aşıqlar bürkü çalar,
bürkü ağlar gəlinlər...

1985

***

Gəl, şeir, gəl,
ancaq asta-asta
dırnaq üstə gəl.
Görən olmasın səni,
yerini bilməsinlər.
İşıqdan gizlənə-gizlənə,
qaranlıqla gəl.
Özü də bir sözün, bir misran
eşidilməsin, şeir.
Dilin lal olsun,
bizim ana dilimiz...
Bizdən daha keçdi,
keçdi deyəsən,
barı sən qoru,
salamat yetir bura özünü.
Gəl, kənara atmışam qələmləri,
səni onsuz da zaman
barmaqlarımın iziylə
yazdırır mənə...

1985

***

Bura buradır, başqa yer deyil,
şeirlərimin itən yeri də,
tapılan məskəni də buradır,
o tindən bu tinə qədər bir yer,
bu yerin üstündəki ev,
evin içindəki diriliyim,
nəfəs almağım,
su içməyim,
havam, çörəyim, ömrüm,
ömrümün sözlərə,

sözlərim şeirlərə düzülüb,
günahlarımı yumaq istəməyi,
məni öz xəcalətimdən çıxarıb,
bura, ancaq bura bağlamağı,
məni burda saxlamağı ki,
işdən-gücdən qalmayım mən,
bu tinlə o tin arasında uçan sözlər
mənə dəyib, bu dəftərə düşsünlər...

1985

***

Şimala get, mən də sənə
Cənubdan məktub yazım,
Yazım ki, kökə gəlməyir
Yad pərdələrdə sazım.

Neçə nəşəm oxunmadı,
Yaddan çıxdı neçəsi,
Şimala pay verib, aysız
Qaldı cənub gecəsi.

Gülüm, bəlkə bu sözləri
Yazan dəli əlidir,
Yox, sevgilim, kəsilsə də,
Dilim güney dilidir...

1985

***

Səhər günəş doğmayacaqsa,
nə mənası var gecə çıraq yandırmağın?
Qaranlığa alışmaq vaxtı yetib bəlkə?

Bəlkə içəridən yanıb
işıldamağa başlamışdır gözlərimiz?
Kim isə bilmədiyim, eşitmədiyim dildə
nəsə oxuyur, oxuyur,
bilmirəm laylay deyir, ya mərsiyə,
kimdən ötrü oxuyur...
Yağış yağmayacaqsa sabah,
torpağa bu gün dən atmağın
nə mənası var?
Bəlkə quraqlığa öyrənmək dövrü başlanıb?
Bəlkə içimizdən şumlanıb,
içimizdən göyərməliyik indən belə?
Kimsə çıraq yandırır,
kimsə yer şumlayır,
günəşə və öküzlərə
laylay deyə-deyə...

1985

***

Yöndəmsiz bir ümid
şeri bütövlükdə də olmasa,
misra-misra ölüm ayağına
gətirib, çıxara bilərsə,
o ümiddən uzaq, uzaq,
qan iyi gəlir o ümiddən...
Buz dodaqlı arzulardan da uzaq,
uzaq, qışın yatağındakı öpüşdən,
uzaq, qartək yağan sevincdən,
məhəbbət nəğməsi deyən şaxtadan uzaq...
Nə olur – olsun,
burda ölmək olmaz ümid uğrunda,
yaşamaq da olmaz məhəbbət naminə.
Uzaq, uzaq
ölümdən də, ömürdən də indi uzaq,

indi şeir yazmaq mövsümüdür burda,
misraları bəd ayaqda, qara gündə
gəlib bir-bir,
üzünə duracaqlarsa da...

1985

***

Heç olmasa, hər yüz gündən bir,
bir gündə bircə saat
yadınıza salın on bir yaşınızı,
yadınıza salın o günləri,
görün o günlərdə nə qədər yaxın, əziz,
doğma adamlarınız var idi,
çoxu da sağ, sağ idi hələ
sizin on bir yaşınız olanda.
Yadınıza salın o vaxtın
neft plitəsinin iyini,
yan-yana salınan yorğan-döşəkləri,
qohumların, qonşuların üz-gözünü,
yadınıza salın,
salıb görün ki, yox idi o vaxt
indi yaşadığınız günlər,
bu günün dərdi-səri,
görün, görün necə qəribə idi,
gözəl olmasa da, on bir yaşınız...

1985

***

Hardasa məndən uzaqda
Əlim əlimə dəyir,
Əlsiz qalan bir ömürdə,
Ölüm ölümə dəyir.

Qığılcım qoparıb yerdən,
Kölgələr alovlanır,
Ötən günlərin oduna,
Gələn günlər də yanır.

Ahım gedir aran boyu,
Dağlara dəyə-dəyə,
Ahımdan qalan izlər də,
Başlayır közərməyə.

Taqətdən düşən günlərin
Əsir dizləri tir-tir,
Əlsiz ömrə öz yanında
Ayrılıq yer göstərir...

1985

***

Sizin bağda yuxu varmı,
Yağış yağırmı orda?
Bizi qışda şaxta vurdu,
Cücərmədik baharda.

Keçən yayda çox şey qaldı,
Beş-on şeir, tar səsi,
Yuxunuza heç girirmi,
Körpə uşaq nəfəsi?

Dənizdən çoxmu uzaqdır,
Sizin bağınız bu il?
Payızda kimsəsiz olur,
Yayda qaynayan sahil.

Qapınızı axşam üstü,
Döyən olurmu birdən?
Ömür deyəsən tez keçdi,
Ötən yay olan yerdən...

1985

***

Ömrün qabağında durub,
Bilmirəm, qapı hanı?
Divarda elan görürəm:
“Vse biletı prodanı...”

Gəlmişəmsə, görməliydim
Axı mən də dünyanı,
Hara dönüm, hara gedim,
“Vse biletı prodanı...”

Qapı ağzında illərlə
Kim saxlayır insanı?
Əgər ömrün hər anına
“Vse biletı prodanı...”

Buz bağlamış minarədən
Ölüm deyir əzanı,
Allah da keçə bilmədi,
“Vse biletı prodanı...”

1985

***

Yorulma, sən allah, yorulma,
getmə yuxuya durduğun yerdə,
damıb ürəyimə, damıb, yaman damıb ki,
o taya bulud göydən yerə enib,
salam verəcək bizə.
Bir tanışımız da
göy üzündən gələcək...

Aralanma, sən allah, aralanma,
çox uzaqlaşma bu dənizdən,
görürəm, görürəm ki, o köpüklənən dalğa

qayaya dəyib, dağılmaqçün gəlmir,
gəlir ki, bizə salam versin.
Bir tanışımız da
dənizdən gələcək...

1985

***

Kaş böyüyə-böyüyə səsi çıxaydı,
nəğmə deyə biləydi ağac,
biləydik, ilin hansı fəslində
nədən oxuyur, necə oxuyur ağaclar?
Və uzaqdan, lap uzaqdan eşidəydik
ən uzaq bir qovağın səsini,
biləydik ki, göyərçin, ya başqa bir quş
qonub onun budağına, sevinir qovaq,
ya da qulağımıza onun
dili, acısı dəyəydi,
o an başa düşəydik ki,
kimisə asmaq istəyirlər
fəryad qoparan ağacın budaqlarından...
Kaş səsinə səs, harayına hay
verə biləydik ağacların,
kaş bir xor səslənəndə irəlidə,
biləydik ki,
meşə var qarşımızda...

1985

***

Yuxu iyi gəlir
hər yandan yenə.
Yorğan-döşək axtarır buludlar

yer üzünə baxa-baxa.
Yollar, küçələr mum kimi yumşaq,
qarşımdakı divarların gözləri qapanır.
Arabalar keçir
evin qabağından,
yuxularla yüklənmiş öküz arabaları.
Və lay-lay cırıldayır
araba təkərləri...

1985

***

Əl barmaqlarının dırnaqlarında şəkil,
hər dırnaqda bir heyvan əksi,
iki əl meşə, barmaqlar ağaclarmı?
Yoxsa oduna indi barmaqlar doğranmalı,
barmaqlar yanmalı sobalarda, ocaqlarda?
Yox, acı qoxudan,
yanan barmaqların ağrısından
oturmaq olmaz buralarda,
elə istidənsə, belə soyuq yaxşıdır,
barmaqlar dona-dona,
dırnaqlar şəkilsiz,
gömgöy dodaqlarla
Allaha dua eləyə-eləyə
ən dəli bir ümidlə
yayı gözləyə-gözləyə...

1985

***

Bir yanda, bir yerdə olsam,
xoşuma gəlsə oralar, yapışsam oralara,
birdən-birə Allaha dönəcəyəm

və ovcumda görünəcək
bir ev, bir uşaqlıq, bir yol...
Və bir torpaq ki,
döyüb-döyüldüyüm uşaqlığım, tənhalığım
gəlib gözümün qabağında duracaq,
deməli, kor olmaq qorxusu
kürəyimi yerə vuracaq mənim.
O anda birdən anlayacağam ki,
bu nə şair həsrətidir,
nə konyak gücü, nə qürbət qorxusu...
Vətəndir,
bir evlik, bir uşaqlıq, bir yolluq...

1985

***

Kim qaldı?
İndi kimə salam verim?
Yadıma salıb, keçirdim bir-bir
gözlərimin qabağından
bütün yaxın, uzaq ölülərimi...
Hamısını ən xoş çağında diriltdim.
Üzlərindən təbəssüm çəkilməmiş
salam verdim hamısına.
Bir bahar fəslinin çadırına yığdım
onlarla,
bəlkə yüzlərlə bu dünyada
həsrətlə yaşayıb,
bu dünyanın həsrətiylə ölənlərimi.
Ayrıldıq...
Və ayrılığın səhrasıyla
yeridim yavaş-yavaş,
hara getdiyimi bilməyə-bilməyə.
Ancaq gördüm, başımı
sinəmdən qaldıran kimi,

gördüm hara getdiyimi.
Uzaqda kiminsə yaddaşı gözləyirdi məni,
gözləyirdi salam vermək üçün...

1985

***

Ağ qapıya kölgə düşüb.
İnsan kölgəsi.
Royal səsi gəlir
ağ qapının dalından.
Kimsə həzin-həzin,
Şopenin valsını çalır
ağ qapıya düşmüş insan kölgəsinə...
Yağış kölgəsi çiləyir
payız kölgəsində duran
başıaçıq musiqiçinin üstünə...
Çiyni titrəyir
ağ qapıya düşmüş insan kölgəsinin.
Ağlayır insan kölgəsi.
Bir polyak oğlunun,
dirilmək istəyən bir insanın
səsinə ağlayır insan kölgəsi.
Damır, damır
valsın açıq yaxasına
damla-damla
göz yaşının kölgəsi...

1985

***

Bir yuxuya ki fil girə,
fil girə yuxuya Afrikadan, Hindistandan,
ən yaxın heyvanxanadan belə

min kilometr uzaqda görülən yuxuya,
neyləyəsən, neyləyəsən
bu yuxudan ayılandan sonra?
Nəyə, necə yozasan bu yuxunu,
ya kimə, harda danışasan onu?
Axı neçin, neçin fil girsin,
fil xortumla şeypur çalsın
burda, ay kişi, burda görülən yuxularda?
Yox, deyəsən ya mən dəliyəm, xəstəyəm,
ya hardasa bir filin ruhu azıb yolunu,
çaş salıb aləmi,
qarışdırıb yuxuları,
bu yuxuyla açmaq istəyir, bəlkə
ruhunun kor gözlərini...

1985

***

Yağır, yağır, yaman yağır,
çoxdan yağır...
olmasaydı navalçaların səsi,
yağışın köpüklü şırıltısı,
deyərdin qoy yağsın, qoy axsın,
yağmurdan savayı bir şey yoxdur,
olmayıb, olmayacaq dünyada,
həyata, yerə elə biz də göydən
yağa-yağa gəlib çıxmışıq,
anamız qara bulud,
atamız şimşəkdir,
günəş isə düşmən əməlidir,
kimsə qurutmaq istəyir bizi,
əlimizdən almaq istəyir
köpüklənən navalçaların səsini,
sözümüzü, nəğməmizi...

1985

***

Səhər gəlsə o qorxduğum,
təngə gəlmiş arzuların bəxti gətirəcək,
gecə gəlsə,
yorğun yuxular can qurtaracaq məndən.
Sərxoş olsam, yaxınlarımın,
ayıq olsam,
öz canım qurtaracaq canımdan.
İnan, çiynindən düşüb,
torpağın belinə yük olacağam.
Bəlkə bir ruh çəkisində
qalacağam buralarda,
gözlərə görünməyə-görünməyə.
İçimdən bir-birinə salam verəcəklər,
maşın sürəcəklər içimdən neçə-neçə.
Və kimsəyə deyə bilməyəcəyəm ki,
eşikdə yağış yağır, qar yağır,
bir kəsin tuta bilməyəcəyəm əlindən.
Ruhum da mənə bənzəyəcək,
mən ruha indi oxşayan kimi...

1985

***

Adımı neyləyirsən?
Adsız bir insan qalmaq istəyirəm
bu qədər öz adı olan bitkilərin,
şeylərin,
adı olan ayların, günlərin arasında.
Nə fərqi, canım, nə millətdənəm?
Qarabuğdayı bir insan oğluyam,
zəncidən xeyli bəyaz,
Norveç balasından yüz qat tünd,
baş dolandırıram

neçə xalq, neçə millət,
bir də beş-on dəniz arasında.
İşim-gücüm
sən bilmədiyin bir dildə,
bu dilin xəbəri olmadan
şeirlər, nağıllar yazmaq.
Yox, onu da bilmirəm,
bəlkə burda həsrət içində,
bəlkə buranın həsrətiylə
gedəcəyəm dünyadan...

1985

***

O kənd çağırsa səni,
çıxma o kəndin sözündən,
uşaqlığın sözünü vurma yerə.
Ömrün dolaşıq düşmüş yollarından,
qoy heç olmasa, bircə cığır açılsın
o kəndin lal, səssiz harayına...
Bütün ötən günlərimiz,
sükuta dönmüş gedim fəryadıdır,
o fəryad gəlib çatammaz qulaqlarımıza,
qulaqlarımız sükut eşitməyə alışmasa.
Bir ağac, ya bir insan kölgəsi
ömrün ən işıqlı gününə düşməlidir,
düşməlidir mütləq,
çoxdan quruyub kəsilmiş bir ağacın,
ölüb getmiş bir adamın kölgəsi.
Və o kölgəyə ayaq dəyən anda
açılmalıdır uşaqlığın dili,
bir kənd çağırmalıdır səni
sükuta dönmüş fəryad səsiylə...

1985

***

Axır ki, gəlib çıxdı Bakıya.
Neçə ay nigaran
qalmışdıq, necə nigaran...
Deyirdik, Allah bilir,
harda itib-batıb,
harda, kim məzar qazıb ona.
Nə bir məktubunu almışdım,
nə də yuxumuza girmişdi bədbaxt.
Yavaş-yavaş çıxırdı
adamların yaddaşından da.
Səsinə oxşayan
bir səs dəymirdi qulağımıza
adamla dolu bu boyda şəhərdə.
Yerişinə bənzəyən
insan ayaqları da dəymirdi gözümüzə,
nə şəhərin mərkəzində,
nə mikrorayonlarda.
Gəlib çıxdı axır ki.
Kaş gəlməyəydi...
İndi gözləməyə bir kimsəmiz yox...

1985

***

Gəlməyin, sən allah, gəlməyin.
Bura gələn yolların qırağında
bir ağac, bir kölgə yox,
bu yollarda qalan izlər
yanır, hey yanır gün altında,
başının üstündə görünməyib
bircə ulduz belə,
bura gələn yollar
heç vaxt keçməyib gecədən...

Gəlməyin bura, gəlməyin,
yormayın ümidinizi,
ayaqlarınıza heyfiniz gəlsin.
Orda qalın,
gündüzlər çiçəklərə,
gecələr ulduzlara baxın,
unudun buraları, unudun...

1985

***

Elə bu rəngdəyəm, öz rəngimdə,
yamyaşıl otlar arasında sürünəndə də,
qumral düzlərin qırpınmayan
göz açıqlığında da,
ağ qarın yağan, qalan, əriyən,
gəldi-gedər həqiqətində də,
elə bu rəngdəyəm, öz rəngimdə.
Dəyişə bilməməyim,
rəngdən rəng ala bilməməyim,
hər yerdə, həmişə görünmək xofunda,
daima göz qabağında olmaq qorxusunda...
Hər gün burda,
hər gün görünə-görünə,
hər gün başqa rənglər görə-görə.
Bir rəngin məhbəs kamerasında
ömürlük dustaq,
rənglərin azadlığına çıxmaq arzusunda,
rənglərin yad, düşmən
olduğunu bilə-bilə...

1985

***

Gəl, gəl, sənə bir sözüm var,
keçən ilin xatirəsi.
Niyə cəmi səkkiz, bəlkə on
günün qalıb yadımda?
Niyə səni
əvvəlindən axırına kimi təzədən,
özü də tamam başqa cür,
başqa yerlərdə,
ayrı adamlarla yaşamaq istəyirəm?
Neçin içində o yerlər,
o adamlar oldu ancaq?
Bircə gün olmazdımı
Parisdə yaşayım səni
keçən il?
İçində
ikicə saat
okean ola bilməzdimmi?

1985

***

Biz bir yerdə,
ikimiz
həyat qura bilərik,
və ikimiz birədi,
əl-ələ verib,
Allah uydura bilərik
qurduğumuz həyat üçün...
Ancaq, gülüm,
həyatın içində yer tanısa da,
Allahın hökmü olsa da,
biz
bir yerdə ola bilmərik
heç bir vaxt...

1985

***

Səni yuxu basdı durduğun yerdə,
Allahı duayla yorduğun yerdə,
İndi son sözünü bu qum deyəcək,
“Yorğun gözlərini tez yum” deyəcək...

Barmaqlar göz olub kağıza baxır,
Şeirlə şairin göz yaşı axır,
Kimsə quyu qazıb, ya tələ qurub,
Sonsuz bir səhrada ağ yelkən durub...

Dəli sözlərini sapa düzəndə,
Açılan mənaya ürək dözəndə,
Deyirsən kaş həyat, kaş insan ola,
Ömür də, ölüm də kaş bir an ola.

Özün axıdasan qanı damarda,
Yapışıb qalmaya çiynin divarda,
Düşdüyün ağ gündə, ya da ki darda,
Bir dəfə biləsən, hardasan, harda...

1985

***

Yox, ondan sən deyən bir xəbərim
yoxdur, yox...
Deyirlər bir dəfə, hansısa yolda
kölgəsinə baxa-baxa gedəndə,
ağlayıb birdən.
Bir də,
gecə yatanda,
yuxuda ağacdan asılmış qağayı görüb.
Bir-iki ümid dəyişib,
beş-on iş yeri.

Əvvəlkitək dolanır, heç dəyişməyib.
Danışanda səsi çıxmır,
susanda qəribə şeirlər deyir...

1985

***

Ağ ay, sönük ulduzlar,
yoxsul, yamaqlı gecə...
Qaranlıq dilənir
külək səsiylə.
Korluqdur, korluq...
Şərab içmiş öküz gözütək,
qızarıb nə isə üfüqdə.
Bir adamın ürəyi getmir
nəğmə səslənəndə, şeir deyiləndə.
Korluqdur, korluq...
Yenicə açılıb səhər,
cəmi bir gün qalıb sabaha,
bircə gün.
Əlimizdən gələn də,
yenə cəmi bircə günü, bu günü
yaşamaq olacaq ancaq.
Korluqdur, korluq...

1985

***

Buraxmaz, daha buraxmaz səni
boğazına, bədəninə sarılmış budaqlar,
min il insan həsrətində olan bir ağac
ayrıla bilməz nə kədərindən,
nə sevincindən,

balta da bata bilməz indi,
min ilin boşluğunda
qıvrıla-qıvrıla insan axtaran budaqlara,
bu ötən əsrlərin ağac həsrətinə
kimsə zor gələ bilməz,
qatil ola bilməz bir köpəkoğlu ona.
Bu ağac, bu budaqlar ayrılıq olub min il,
min-min hakimlərin, dövlətlərin,
inqilabların içində dura-dura,
sağ-salamat saxlayıb ayrılığını,
qoruyub həsrətini,
və baş əyməyib nə bir dövrə,
nə bir baltaya,
ağac qalıb, ağac həmişə.
bu torpağın insan həsrətiylə doğulub,
insan həsrətiylə xışıldayan, yarpaq tökən
ağacı olub min il...

1985

***

Suallardan birinə
bir cavab verən lazımdır axı,
bu yollardan heç olmasa, birinin
hara getdiyini deyən.
Axı bu meynəliklərdə azıb qalana
bir kəs bir salxım üzüm verib,
ən yaxın təpənin yerini göstərməlidir,
göstərməlidir ki, heç olmasa,
o təpənin üstündən
başqa bir təpəyə qədər görəsən
nə var, nə yox dünyada.
Və biləsən ovsunçunun evi harda,
yaraya məlhəm qoyanın evi hardadır...
Bir kəndə elə-belə, əliboş getmək olmaz,

gərək bir kəndə gələndə
başqa bir kəndin adını verəsən.
Belə olmaz, olmaz vallah,
yel kimi kimsəsiz, yel kimi köksüz...

1985

***

Rəhmət demək olmazmı
iki gün əsib,
bir gün yatan küləyə?
Niyə baş çəkən yoxdur
ölən qışın məzarına?
Qırmızı lalələr başdaşıdır
basdırılmış ağ qarların...
Neçə yuxunu öldürür
hər səhərin işığı?
Neçə arzu basdırılır
insan səslərində hər gün?
Yadımıza düşmür, görünmür gözə,
ruhu inildəyir, ancaq
ürəkdə yıxılıb, qalxa
bilməyən ümidlərin,
ötən günlərin...
Ehtiyatla gəzin, addımlayın evdə-eşikdə,
əzməyin ayaq altda, basdalamayın
əzizlərinizi...

1985

***

Beynimə əl vura bilmirəm,
qızdırma içindədir beynim bu gün.
Neçə saxta sözün, həyasız yalanın

insandan üz döndərmiş
insan üzünün soyuğu dəyib beynimə.
Beynim qızdırıb bu gün.
Özümlə baş-başa verib,
özümlə danışa bilmirəm bu gün.
ayrı düşmüşəm tənhalığımdan,
ən isti xatirələrim belə
yağışa düşüb məndən uzaqda,
töyşüyüb yaddaşım,
nəfəsi qaralıb ötən günlərimin bu gün.
İçim kənar, yad, soyuq.
İçim qürbət,
içim özümdən, ana yurddan uzaq.
Uzaqdan baxıram özüm özümə,
görürəm, qızdırma içindədir beynim,
qızdırmalıdır soyuq dəymiş beynimin
gəzdiyi doğma yerlər.
Və bu yerlərin qayaları
günbatanın rənglərinə söykənir...

1985

***

Bir pişik xumarlana indi,
yumaqlanıb, adamın qucağında.
İçəridə pul dərdi olmaya,
bayırda dava-dalaş səsi, söyüş.
İçəri isti,
bayır qarlı ola kaş
Bir də, aman Allah, sənə qurban,
divarda bütün sevdiyin insanların,
şəkilləri ola kaş
Düşə sevdiyin insanın əkslərinə
torşerin bənövşəyi işığı...
Düşməyə yada,

ötən pis günlərdən biri də,
gələcəyin bir qara günü də
dəyməyə gözünə
arxasında ağ qar yağan pəncərədə...

1985

***

Orda, bax indicə, bu saat,
o telefon budkasına girən kimi
pəncərədən ötmüş külək
səslənəcək bütün qonşu evlərində
telefonlar.
Bütün qulaqlara, qonşu qulaqlarına
bir səs, eyni səs dəyəcək telefonlardan
bax, bu küləyin,
burdan ötüb,
pəncərənin şüşələrini cingildətmiş
dəli küləyin səsi.
Bir qonşu bilməyəcək
kimə zəng vurur külək,
nə demək istəyir
telefon budkasının tozunu
sovura-sovura.
Bir kəs görməyəcək
telefon budkasında vurnuxan
küləyin gözlərini...

1985

***

Dəlilik gəlməsə də birdən-birə,
cəhənnəmə ki,
bu gündən sabaha qədər baş

dolandırmaq olar
axmaqlıq içində,
bir cüt sərsəm təbəssümlə çiyin-çiyinə
yaşamaq olar iyirmi dörd saat,
iyirmi dörd saatın beş saatını
bu məmləkətin trass yolunda,
yeddi-səkkiz saatın Gəncə motelində,
o birilərini, Allah bilir, harada, necə,
ancaq o dediyim təbəssümlə,
çiyin-çiyinə,
çox sərxoş olsan, baş-başa,
axmaqlıq içində,
əgər dəlilik,
dəlilik gəlməsə, birdən-birə,
göz görə-görə...

1985

***

Sonra da bir əhvalat
baş verdi o gün.
Bu gün də biri.
Sabah da
nəsə olmalıdır,
olmalıdır mütləq,
sabah özü olacaqsa əgər.
Olmasa,
başıma gələn əhvalatlardan
ən ürəyimdən olmayanı,
ən müdhişi
mənimçün,
sabahsız gələn bir günün
özü olacaq.
Nə yaman çox işlənirmiş dilimizdə
“oldu”, “olacaq” sözləri...

1985

***

Bağların bağrı daş bağlayıb,
ağacların dönüb üzü
nankor göydən,
naşükür torpaqdan.
Göz görən nə varsa,
sinəsi dağlı,
söz gələndə
ya ağız, ya qulaqlar bağlı...
Bir sözə bənddir
yenə insan,
yazılmamış şeir kimi.
Körpünün bir ucu o tayda,
bu tayda o biri ucu.
Üstüylə gedəni isə
yenə də yol,
yenə həmin,
yenə köhnə yol...

1985

***

Dağlarda dağ, səhrada səhra qorxusu.
Dağlarda səhra,
səhrada dağ yuxusu.
Orda da, burda da insan ömrü keçir,
keçir sevinc içindən, dərd içindən
tunelə girib, gedən qatarlar kimi.
Ancaq bu tunelin ucunda
işıq ucu görünməz.
Bilinməz sevincin axırı nədir,
nəylə qurtaracaq dərd.
Odur bilinməz, sevinc nədi, dərd nədi.
Səhra kimin, dağ kimin,
insan ömrü kimindi...

1985

***

Sən allah, dəyişməyin,
dəyişməyin bu dünyanı.
Çayların axarı
baş götürüb
dənizlərə üz tutmayacaqsa bir gün,
arabir
duman içində,
yox olub, görünməyəcəksə adalar,
insan oğlu bəxtiyar olub,
sevincə qərq olacaqsa ömürlük,
bir şerim
yada düşməyəcək
bəd ayaqda...

1985

***

Ölməkdən ötrü mənə
bir neçə qələm,
bir qalaq kağız,
siqaret, tütün,
bir az da musiqi gərəkdir.
Ölməkdən ötrü mənə,
bütün dünya
və bir otaq lazımdır.
Qış,
bahar,
yay,
payız,
bir də,
bir insan ömrü lazımdır mənə
ölməkdən ötrü...

1985

***

Bəlkə bu qədər də,
bu yaşda bu qədər də
tələsmək lazım deyil daha?
Bəlkə dəyişmək lazımdır
hisslərin gəlim-gedim cədvəlini...
Bəlkə daha götür-qoy etmək
vaxtı çatıb,
göydən gələn səslərə
qulaq vermək vaxtı?
Baxtı gətirsə, ya özü istəsə,
vaxtında ölə bilər hər insan,
Allaha oxşatmasa özünü yaman,
özü də bəd ayaqda ancaq...
Kimin xeyrinədir
yekunu vurulmuş ömür?
Axı kainat yorulmadan, usanmadan
deyir, deyir hər an,
necə ayrılmaq olar ondan.
Fəqət sükut içində deyir,
deyir susa-susa...

1985

***

Qadan alım, stansiya rəisi,
doğrudanmı
qatarların da vaxtında
gəlib-getməyi
Allahdan asılıdır?
Axı mən də Allah bəndəsiyəm,
tələsirəm o dənizin sahilinə yaman.
Stansiya rəisi,
axı Allah yaxşı bilir,

məni kim gözləyir orada.
Mən cəhənnəm,
yıxma bütün dərdlərimizi
Allahın üstünə,
qoy minim,
qoy gedim bu qatarla,
stansiya rəisi.
Öz gecikən qatarını gözləyə bilməz,
qırx beş yaşında adam.
Məhəbbətə yubanmaq olmaz bu yaşda,
stansiya rəisi...

1985

***

İndi də yağmurlu payızdan sonra,
bacalarından tüstü qalxan
bir kəndin qış günü,
sonra yenə ağaclar, stansiyalar, yol...
Bir-bir gəlib,
bir-birinin evini yıxan
və sənə bu yolda meydan oxuyan
xatirələrin zorakılığı...
Sonra yenə vaqon pəncərəsi,
konyak,
içinə səs-səs, qoxu-qoxu dolan
nə vaxtsa doğulacaq şeirlərin toxumu.
Və axır ki, nəhayət, şükür,
təzə mənzərə:
Bacalarından tüstü qalxan
bir kəndin qış günü...

1985

***

Yenə həyata qaytarmaq istəyirəm
Köhnə dostları.
Xatirəmdə külə dönmüş ötən günləri
dirildib,
keçirtmək istəyirəm yenə
“Metropol” restoranının qapısından.
Aman Allah,
necə tanışdır mənə
bu sözləri yazan əl...
Bir-iki həftə yaşayıb o günlərdə,
yenə bu evə qayıtmaq istəyirəm.
Kömək umuram o köməksiz zamandan...
Ancaq bir-bir getdi o köhnə dostlar...
Kimi qapıdan, kimi özündən,
kimi yadımdan çıxıb...

1985

***

Suyu qaçmış hovuza
Bənzəyir dəniz indi,
Solğun yerlərdə qalır
Saldığın hər iz indi,
Toy günü yarı ölmüş
Gəlinlərə bənzəyir
Ağ paltarlı buludlar...

Sən gələndə
Çiçəklər açılardı,
Sən gələndə
Daşlar da gül açardı,
Sən gələndə
kədər məndən qaçardı...

Gündüzlərin səması
Nədənsə indi bumbuz,
Gecələr başım üstə
Nə ay yanır, nə ulduz,
Nədənsə bu xoş baharda
Sarı yarpaqlar açır
Söykəndiyim ağaclar...*

1985

***

Yer üzünün bir yerində də,
bütün insan və quş tarixi boyu
bir kəs belə, baxmayıb mənim qədər
Qaranquşların uçuşuna.
Qaranquşların səsi gözüm görə-görə,
qulağım eşidə-eşidə
bir məsciddə, bir kilsədə deyilməmiş
dualara dönüb,
və bu duaları mənə oxuyub qaranquşlar,
Allah bilir, məndən nə uma-uma,
nəyi, kimi görə-görə mənim yerimdə.
Və mən beliqırılmış onda anlamışam,
qanmışam ki,
eşitsəm də qaranquşların duasını,
görsəm də özlərini
əl uzada bilməyəcəyəm onlara,
Allah ola bilməyəcəyəm.
Quşların Allahı qanadsız imiş,
mənimki əlsiz-ayaqsız...

1986

*Mahnı mətni. Musiqisi Mobil Babayevindir.

***

Bu arıq atların kölgəsi qara,
Günəş şahə qalxıb, torpaq kişnəyir,
Mən hara, gördüyüm bu ilxı hara?
Hər gün gözlərimə gör nələr dəyir...

Bezikib, lap təngə gəlirəm hərdən,
Elə bil hər əzab, dərd mənə qalıb,
Sonsuz qadın kimi acı düzlərdən,
Hansı qüvvə mənim yolumu salıb?

Buranı göz nədir, qarğış da tutmaz,
Burdan yağış qaçıb, üz döndərib qar,
Bir səsin dalından o biri çatmaz,
Bir səsdən huylanmaz bu arıq atlar...

1986

***

Yaralı-yaralı,
torpaqdan aralı,
buludlar keçir.
Qanımı içir
bu qərib mənzərə,
yapışıb canımdan
gözlərim görə-görə.
Neçə yaxınım,
bu günə
yana-yana baxanım,
baxa biləcəyim
yoxdur burda,
qalmışam darda,
tək-tənha,
baxa-baxa bu aləmə.

Nə deyim dilimə,
dilimdə söz yoxdur
bu günü deməyə,
bu günü söyməyə.
Qalmışam tək-tənha
dünyanın burasında.
Kaş biləydim harasında...
Torpaqla
yaralı buludlar arasında...

1986

***

Gəl, gəl ata-anadan qalmış
yetim həsrət,
gəl daha keçib,
gəl ocağıma,
mənimkilərlə birgə yaşa, bir böyü.
Oğulluğa götürürəm səni də,
yad yetim, yad həsrət.
Abır-həyadan da keçib,
xəcalət yeri deyil,
gəl, döş də verim, əmizdirim səni,
həsrəti saxlayan, həsrət böyüdən
şair südüdür...
Gəl, qoy yüngülləşsin
çiynindəki yetimlik yükü,
gəl, səni də uzadım
bizim dilin beşiyinə,
yırğalayıb laylay deyim ana kimi
sənə də yad həsrət
yad həsrət - doğma şeir...

1986

***

Aralananda
gözlərin mavi pərdəsi,
bir qadın göründü
royal səsində bitmiş
çiçəklərin arasında...
Bu qadın mənzərəsində
bir karvan yolu,
yolun sonunda karvansara,
karvansara günbəzinin üstündə
bir ipək sevinc bayrağı
yırğalanır, yırğalanır...
Və bunlar hələ musiqi yox,
bircə tək akkorddur,
qadına yönəlmiş dualardan
ilk duanın
ilk sözü...

1986

***

Uzaq qaraltıdan ilxılar ürküb,
Mənə bir söz göndər səsinə büküb,
Bu yaz açılmasa köhnə yaralar,
Deməli, hələ də vaxt var, ümid var.

O batan gün deyil, nə isə olub,
Qürubun gözünə yenə qan dolub...
Qışın buz çağında gələndə bahar,
Qorxudan qar üstə çiçəklər açar.

Daha işıq salmır nə günəş, nə ay,
Boş beşik başında oxunur laylay,
Ömür səhrasının tən ortasında
Neçə işıq ağlar işıq yasında.

Beyninə qan sızıb, ən adi sözün,
Gərək ölməyəydin, görəydin özün,
Gecənin üstünə biri də çöküb,
Mənə işıq göndər bir sözə büküb...

1986

***

Bəlkə gedib damla-damla yığım,
qayaya dəyib,
çilik-çilik olmuş dalğanı?
Bəlkə o buludu
qoymayım dağılmağa?
Amma necə?
Bəlkə unudum tək olduğumu?
Özümlə durub-oturmayım indən belə?
Bəlkə şeir yazmayım daha?
Yox, gülüm,
qayaların və buludların
dadına yetmək olmaz mənə.
Mənə
yaşamaq da olmaz,
mən şeir yazmalıyam...

1986

***

Qaçıb,
gecənin içində də
gizlənmək olmur daha.
Birini yumub,
o biriylə səni nişana
alan kimsənin

açıq gözünə bənzəyir ay,
ulduzlar
tüfəng lüləsindən çıxmış
qırmalar kimi gəlir üstünə...

1986

***

Quşlardan xəbərsiz
bir gündür bu gün.
Əllərim sıxılır
yenə də həsrət,
ikiəlli salam verir mənə.
Və bircə quş səsi eşidilməyən
bu həsrətin içində
bilsəydim sözlərini
bir dua oxuyardım.
Quş səsi istərdim göylərdən.
Ancaq dua bilmirəm.
Bildiyimi,
şeirlərimi oxuyuram
üzümü qibləyə tutub.
Şair sevməyən Allah
şeir sevirmi, görəsən?

1986

***

Darıxanda pis darıxıram.
İnsan darıxmağı deyil bu,
insan ömrü deyilən şeyə
heç bir dəxli yoxdur bu darıxmağın...
Bir vəhşi heyvanın

qəfəsdə ağaran dişləri
çıxır qəlbimdən,
gəmirir, gəmirir varlığımı.
Belə günlərdə
bel bağlaya bilmirəm özümə,
özümə etibar eləmirəm.
Çünki özümə yox,
şeirlərimə bənzəyirəm darıxanda.
Bu da ölümdür.
Quduz olub öldürülmüş
canavarın, itin ölümü.
Qızmar gün altda ölüm...

1986

***

Partiya iclaslarında
nədənsə
uşaqlığım düşür yadıma.
Görürəm İbrahim dayının
Rusiyadan alıb gətirdiyi
Zoyka adlı inəyimizi,
bağımızın hasarına daraşan
sarıyanız narın qumu,
şinabbub yuvasını,
dümağ buludlarla dolu göy üzünü.
Ürəyim açılır
partiya iclaslarında...

1986

***

Bir park alleyası görürəm
sabahın hansısa uzaq şəhərində.
Bir payız başlanır

üzümə gələn o günlərdə,
və orda bir yad yağış
başlayır yağmağa...
Hava təmizlənir sabah,
ot ətriylə dolur
sabahkı parkın alleyası.
Açıldıqca yarpaqların yaşılı
nədənsə bu günün yarası da açılır,
sabahkı parkın alleyasında.
Açılır
sabaha hələ xeyli qalmış,
sabaha dəyməmiş ömrün ayağı...

1986

***

Yavaş yeri,
ürkütmə o uşağın baxdığı
yasəmən kölgəsini.
Üzü dönməsin bizdən kölgələrin də...
Ağac kölgəsi
ağacdan düşə bilər yerə ancaq,
ürkütmə,
çıxıb getməsin burdan
ağaclar, kollar...
Sonra bir körpə gözünə
bir yasəmən kölgəsi dəyməz,
yox olar sərinlik.
Yer də kasadlaşır, söhbətlərimiz də.
Onsuz da üç nöqtəylə yazılır
dilimizin neçə sözü.
Odur asta yeri, yavaş gəz.
Basdalama
yasəmən kölgəsindən baxan
körpə gözlərini...

1986

***

Xəbərlər var,
xəbərlərdən xəbərim yox...
Bu gün yəqin
kiminsə neçə yüz illik məzarına
təzə-tər çiçəklər qoyulub,
bir başqası öldüyü üçün yox,
meyidi iylənəcək deyə
basdırılıb torpağa...
Hardasa açıq-aşkar İlahi qüvvə kimi
bir dünya gözəli görünüb gözlərə.

Hardasa çirkin bir qadın görkəmi
şübhə doğurub Allahın varlığına...
Kimsə sərxoş olub ağlayıb,
kimsə içməyə bir şey tapmadığından.
Hardasa ömür güc gəlib ölümə.
Hardasa ölüm ömrün kürəyini vurub yerə.
Hardasa yenə illər uzunu
bar gətirmir meyvə ağacları.
Hardasa almalar dəyir yulğun budaqlarında.
Nələr olmur yer üzündə hər gün, nələr?
Xəbərlər var,
xəbərlərdən xəbərim yox...

1986

***

Sizinlə barışa bilmirəm mən.
Eyni ağaclar
tamam başqa-başqadı ürəyimizdə,
adları dilimizdə bir olsa da.
Ayrı-ayrı yerlərə gedir
üstüylə addımladığımız

eyni yollar.
Yaşadığımız günlər, aylar
bir dövrün, bir zamanın içində deyil,
eyni yerdə, eyni vaxtda
görüşə bilmərik biz.
Ayrılıq da başqa şeydir
bu dünyada,
sizdən ayrı düşmək deyil...

1986

***

Biriniz buraya gəlin bu axşam,
Başım sığal üçün qəribsəyibdir,
Bu səhər heyrətlə yerə baxmışam,
Gözümə bir qərib kölgə dəyibdir.

Görmüşəm kölgəmin düşdüyü daşlar,
Ovulub torpağa dönmək istəyir,
Gələn beşillikdə, əziz yoldaşlar,
Ulduzlar deyəsən sönmək istəyir.

Qupquru quruyub yerin gözləri,
Qaralan qaralıb, solan solubdur,
Yağış duasının bütün sözləri,
Bu eldə-obada unudulubdur...

1986

***

Niyə açıldınız,
yuxu görən gözlərim?
Neçin yenə bu divar saatına,
rəngi solmuş bu divara

başladınız baxmağa?
Yuxudan nə tez doydun, sağ gözüm?
Nə tez üzün döndü yuxulardan,
sol gözüm?
Məni gecə koru eləməyin,
yox olmasın ömrümdən qaranlıq da.
Bağlanın, gözlərim, bağlanın...

1986

***

Nə deyə bilərsən mənə?
Onsuz da
biləndə hər şeyi bilirəm,
bilməyəndə öz adım da
qəribə, uzaq bir səs kimi
səslənir qulağımda.
Dünyanın hansı sirrini aça
bilərsən mənə,
hamısı dünyanın özündən əvvəl
açıldığı halda?
Özü də ömrün hər anı sirlə gəlib
sirlə gedən bir dünyada...
Bilirəm,
bu tində birinin ürəyinə
bıçaq girəndə,
o biri tində ana bətnindən
ağlaya-ağlaya bir uşaq çıxacaq.
Və neçə ildən sonra o uşaq
ya bu tindən sakitcə keçən,
ya da əlində bıçaqla duran olacaq.
Demə,
bir söz demə,
nə deyə bilərsən mənə?

1986

***

Üzümlər başım üstə,
üzümlər salxım-salxım,
amma necə qalxım
əl uzadım gilələrə,
indi mənə göz dağı olmuş
bu ağ, qara,
salxım-salxım güllələrə?
Bu gün qalxa bilmirəm,
bu gün yerdə,
bu gün qumda qalan günümdür mənim,
bu gün ilan günümdür.
Sürünürəm,
bu gün doğrum
yalan olan günümdür...

1986

***

Sabah
bu yolun qırağında olmasa da,
axırında bir ağac tapacağam.
Sabah
ağac kölgəsində oturub,
bir şerin bütün misraları
gəlməsə də,
beş-on sözünü tapacağam.
Sabah
bu sözləri bir-birinin yanına düzüb,
bir yol təsviri tapacağam.
Sabah
bu yolun qırağında olmasa da,
axırında bir ağac tapacağam...

1986

***

İki babam,
iki nənəm ölüb.
Bir ata basdırmışam.
Bir anam var
o da xəstə.
Bəs kim alsın
indi könlümü mənim?
Ana yurdda,
bəd ayaqda,
ata-baba məzarı da,
ana azarı da
həyan olaydı gərək...

1986

***

O meşə yuxu idi.
Uşaqlıq yuxusu...
O yuxu
indi də görünəcəkdi,
uşaqlığın qış aylarında
oduna doğransa da...
İndi
o meşənin yerində
şumlanıb uşaqlığın yuxusu.
İndi
o yuxunun təpələri,
yamacları üzümlük,
düz yerləri Allah bilir nə...

1986

***

Hardayam,
Hardayam mən?
Bura
bir yandan işıq salın,
bircə anlıq.
Çıxa bilməsəm də buradan,
heç olmasa,
görüm
hardayam...

1986

***

Bir tanış daş-qaya yox,
salam verib,
hal-əhval tutmağa.
Bir ağac ala bilmir könlümü,
yarpaqları
yad dildə xışıldayır çünki.
Yerişindən, kölgəsindən
nə bir qadın,
nə bir erkək tanıya bilirəm,
diksinib, qanrılmıram
arxadan açılan bir yad öskürəyə.
Dayanıram,
sırtımı bir ögey divarın
qırmızı kərpiclərinə söykəyib.
Baxıram qarşımdan
ötüb-keçən Dubultı adamlarına.
Yaxşılı-pisli, hamısı özgə.
Burda, bu şəhərdə
yeganə tanışım, yeganə doğmam
sərxoşluğumdur, sərxoşluğum...

1986

***

Gözlərim aydın olmaq istəyir,
xoş xəbərin
yalanı da gəlib çıxmır...
Ürəyim açılmaq istəyir,
dil gəl ki, qarşısında
açılıb çıxmağa bir şey, kimsə yox...
çoxdan bəri
bir Allah bəndəsi
muştuluq ala bilməyib məndən...
Qaranlıqda qara qarğa kimi
görünməz olmuşam.
Vallah,
dediklərim giley, ahu-zar deyil.
Ancaq bu üzlə də ölmək istəmir adam.
Üz gülə-gülə,
bu dünyadan bir-iki şad xəbərlə
getmək istəyirsən o dünyaya...

1986

***

Kaş
yer üzündə oturub,
söhbət eləməyə
bir adam olaydı...
Dünyada tək qalanda
yaman darıxır adam.
Allahdan
görəsən kimə, hara
şikayət eləmək olar?...

1986

***

Yer üzündə yüz illərlə duran
ən möhtəşəm məscidlərdən, kilsələrdən
qat-qat artıq etibar doğurur məndə
milyon illərdən bəri
axar suların səsindən başı çıxan
bu qara daşın tənha mötəbərliyi.
Gəl, gəl oturaq o daşın üstündə,
üzbəüz, gözbəgöz...
Varlığıma gözlənilməz bir sillə dəyib,
duman içində axır fikirlərim
başdan-başa.
Odur, bu çağlayan çayın
səsini batıra-batıra,
insan qulağı eşitməmiş
bir fəryad bağırtısıyla
sual verirəm sənə:
– Bu qara daş varmı bu dünyada?
Varsa, çıx get, qayıt göylərə,
məscidlərin əzanından,
kilsələrin zəngindən xoşhallanmağa.
Mən də özümə – günümə dönüm,
ürəyi rahat, qəlbi sualdan qurtulmuş.
Bilim ki, yer üzü var, çay var yer üzündə,
çaydan başı çıxmış bu qara daş var.
Mötəbər yerlər var bu dünyada...

1986

***

Bunlar burda baş qoysalar yerə,
Yer kürəsini çarpayı,
vətən torpağını yastıq sanıb,
çoxmu yuxu görə bilərlər burada?

Haradan,
kimin gücü ya səxavəti hesabına
yuxu gələ bilər
burda yerə baş qoyub uyanlara?
Yox, bir o qədər də çox
yuxu qalmayıb daha aləmdə,
yuxular da götür-qoyla gəlirlər
gələndə bura.
Yuxuların qıt dövrü başlanıb artıq.
Öz yuxusu olanlarsa, buralarda
hər əlli kənddən, bəlkə birində,
şəhərlərində, bəlkə iki-üç adam...
Yuxudan, gecələrdən bomboş,
əli boş, içi boş
çıxarlar
burda yastığa baş qoyub yatanlar...

1986

***

Axşamüstü
qaranlıq bir küncdən
gecə gələcək yuxular.
Baxır sənə bic-bic,
yuxular güdür səni
bir-birinə göz vura-vura,
işığın sönməyini
gözləyə-gözləyə.
Axşamüstü süd iyi gəlir,
gecələr qan-qan deyib,
səni qaraya basıb,
soyuq tər içində
oyadan yuxulardan...

1986

***

Hardansa bir sarı çiçək düşdü
atın qaşqasına.
Dayandı at dağ yolu qurtarmamış,
yetməmiş bir kəndə, bir yaylağa...
Ətraf yox, bütün dünya yalçın qayalar,
sıldırım, quşqonmaz bir aləm.
İnamsız bir ümidlə dərə
axtaran gözlər,
bu gözlərin qorxusuna
qüvvət verən aran həsrəti.
İndi buraların təmiz havası zəhər,
sakitliyi ən dərin məzar sükutu...
Gör bir atı dörd nalıyla
hara mıxladı hardansa düşmüş
bir sarı çiçək.
İndi, gör, nə çəkir
at qaşqasında saralan çiçəyə bərəlmiş
bir cüt insan gözü...

1986

***

Donma, donma,
səbr elə
indicə Günəş doğacaq,
isti işıq düşəcək üstünə.
Görürsənmi,
şərqdə üfüq qızarır?
Yox, yox,
canavar gözü deyil, günəşdir!
Donma, sən allah, donma...

1986

***

Nə yaxşı ki,
bu daş varmış
bu ayrılıqda.
Nə yaxşı ki,
yağış yağmırmış bu ayrılıqda.
Bir az
bu daş üstündə dincəlib,
arxayın durub getmək olar
islanmamış meşə yoluyla.
Bu ayrılıqdan
başqa ayrılığa sarı...

1986

***

Baş götürüb gedir,
köçmür,
qaçır töyşüyə-töyşüyə,
qarala-qarala nəfəsi
dəniz səsi.
Suyunu, balıqlarını yığıb ortaya,
dörd yandan çəkib sahillərini
bağlama eləyir özünü dəniz,
və qürbətə üz tutur
bu dəli küləyin kürəyi üstə.
Köhnə xalının naxışları kimi
solur göy üzündə qağayılar,
quma hopur sutək
qağayı kölgələri...
Və bu köhnə dəniz yerinin
quru yurdunda
boğaza gəlir xatirələr
bulanan sərxoş ürəyi kimi...

1986

***

Rica edirəm, yalvarıram,
o Günəşdən bir az bu yana dur.
İndi dənizə bax.
Gördünmü, nə gözəldir Xəzər?
Gördünmü, necə istidir Günəş?
Gördünmü,
səni necə
görə bilir gözlərim?
Orda dur, qımıldanma, ömrüm...

1986

***

Gəmiyə baxa-baxa
dənizi də yadımdan çıxartdım.
Gəmiyə baxa-baxa
unutdum gördüklərimi,
tanıdıqlarımı.
Yadıma görmədiyim limanlar düşdü.
Qəribə dillər
dəydi qulaqlarıma.
Bir tanış insan üzü gördüm
gəmiyə baxanda.
Gəmiyə baxa-baxa qaldım...

1986

***

Darıxma, gözlə,
indicə gəlirəm.
Allaha bir söz deyib,
bircə insan ömrü yaşayıb,
gəlirəm.

Çox çəkməz, çox uzanmaz,
nədir ki, vaxt üçün
bir insan ömrü?
Heç nə, heç bir şey.
Bir doğum, bir ölüm
və onların arasında
Allaha deyilən bircə kəlmə söz.
Ya – hə, ya – yox....
Gözlə, sevgilim torpaq,
gözlə,
meşələrlə xumarlanan,
dənizlərlə bərələn,
çaylarla axan gözlərinə
qurban olduğum...

1986

***

Sabah səhər tezdən
gəl bura,
gəl yadıma sal özünü,
o qoca meşənin ayı cığırı.
Gəl, qaldır gözlərimdə
bu qış baltalanmış ağacları,
qızart gözlərimdə əbədi solmuş
itburnu, moruq kollarını.
Meşə içinin yay bürküsündə
bir sərin meh dəymişdi üzümə,
yadındamı?
Bax, onun haradan əsdiyi çıxıb
yadımdan,
gəl, ayı cığırı, gəl,
yadıma sal meh yerini...

1986

***

Bayrama nə qədər,
neçə gün qalıb?
Bəlkə bu gündür bayram?
Bu gündürsə, mübarək,
mübarək olsun
çalğısız, oyunsuz bayramım,
qurbansız, qoyunsuz bayramım,
nəğməsin pəsdən deyən,
qaranlıqda əlvan geyən bayramım.
Bayram gəlib,
sevin, könül,
başına gün dolanıb,
ocaq, tonqal
yer altında qalanıb...

1986

***

Kimdən indi üz döndərib,
kimin üzünə gedəsən
gülə-gülə?

Kimin gözündən gen düşüb,
kimin gözündən axasan
yad yanağında özünü silə-silə.

Ay Allah,
qanın da haqqı,
nahaqqı olurmuş?
Necə? Niyə?

Gəl, insan oğlu,
gəl indi yat,
gəl indi oyan
bilə-bilə...

1986

***

Axı diri insanın kölgəsi
çox qala bilməz
bir yerdə,
bir divarda.
Elə isə nə olub bu kölgəyə,
nə olub mənə?

1986

***

Yağış yağacaq
bu gün də yenə.
Mənsə yuxuda
iri,
iri bir günəş görmüşdüm
bu gecə.
Yenə...

1986

***

Gəl bura, birgə oxuyaq,
Görək nə çıxır bundan,
Uzaqda fit verən qatar,
Kaş çıxmasın yolundan.

Kimdən istəyirsən, soruş,
Məni tanımır heç kəs,
Odur qorxma, gəl oxuyaq,
Sən iki səs mən heç səs...

Qatar burdan yaxşı keçdi,
Bir şey olmadı, şükür,
Oxu, əsl məqamıdır,
Ay doğur, gecə çökür.

Başla, xısın-xısın ağla,
Arabir dizinə vur,
Belə oxu, bu yerlərin
Başqa nəğməsi yoxdur...

1986

***

Bağ yolunda tənha işıq yanır,
yandıranı çıxıb gedib,
görənləri yatıb çoxdan...
Bağ yolunda külək əsir,
yırğalanır tənha işıq,
yandıranı
qayıtmır geri,
görənləri
oyanmır yuxudan...
Bağ yolunda
çiyin-çiyinə verib,
harasa gedirlər tənha işıqla külək...

1986

***

Günəşli yay günündə
göylərə qalxıb,
buludlarda yolunu azan
və
qarlı-şaxtalı qış günündə

yuvasını tapan
göyərçin kimiyəm.
Uşaqlıqda azıb,
bir bağlı yuva qarşısında
durmuşam neçə ildir.
Dimdiyimdən
qan damır yerə...

1986

***

Nə yazasan?
Qar əriyir buralara düşən kimi.
Boyanmaq istəmir qar rənginə
bu ellər,
neyləmək olar?
Bilməzsən bu cığır hara gedib çıxır
getməsən üstüylə.
Getsən hara gedəsən?
Bəlkə bu al qalstuklu pionerin
yadından çıxmayacaq
vətən haqda oxuduğu yad sözlər?
Çıxmasa
bir də yay gələcəkmi bu yerlərə?
Yox, addımlarımız yenə də
qarı əriməz yerlərdə səslənə bilər,
yuxularımız didərgin düşə bilər
ana yurd dediyimizdən.
Ancaq öz zərərinə yazmalısan
bu günün oxunmayacaq nəğmələrini.
Bu yerlərin öz qarı yağmaq üçün...

1986

***

Üzbəüz durmuş iki evin birinin
pəncərəsindən quş çıxar,
uçar o biri evin açıq pəncərəsinə.
Sonra yenə geri,
sonra yenə ora,
bir pəncərədən o birinə,
bir evin içindən, o biri evin içinə.
Bütün günü qanad çalar quş,
bir günlük yol gedər quş,
ora-bura uça-uça...
Göy açıq,
göydə quş yolları açıq,
dağlar, düzlər,
bağlar, meşələr açıq.
Quşsa uçar, hey uçar iki ev arasında,
uçar yerə quş təri tökə-tökə,
iki muncuq gözü bərələ.
Və quş uçan iki ev arasında
eşidilməz, eşidilməz quş səsi.
Arada
quş nəğməsi yaranmaz...

1986

***

Bu ilıq,
bu şəffaf ah,
köksündən çıxmış səs
əllərimin içində...
harda,
necə saxlayım,
nəylə qoruyum ahını?
Bilmirəm neyləyim,

çaşıb qalmışam
dünyanın tən ortasında,
addım atmaqdan da,
küləkdən də qorxa-qorxa.
Ahını
necə saxlayım əllərimin içində?
Neyləyim dağılmasın?

1986

***

Təkliyimin sürgünündə,
Bu tənhalıq qürbətində,
Üzümə bir günüm gülsə,
Vətəndən xoş xəbər gəlsə,
Deyərəm gül, sürgün yeri,
Deyərəm öl, sürgün yeri,
Harayıma yetən gəlib,
Çəkil, qürbət, vətən gəlib...

1986

***

Hələ gülmə, gülməyinə çox qalıb,
"Hə" deməyə hələ neçə "yox" qalıb,
Kaman yerdə, göydə hələ ox qalıb,
Bu dünyanın tünlüyündən bezikmə,
Tünlük bizi hər tərəfdən sıxıbdır,
O dünyada ruh ruh üstə çıxıbdır...

İnsan oğlu gördüyünə söz deyib,
Kor olsa da, gözlərinə göz deyib,
Tanrı ömür verib sonra döz deyib,
Təklik özü tək qala bilmir daha,
Evimizi tünlük yaman yıxıbdır,
O dünyada ruh ruh üstə çıxıbdır...

1986

***

Bir yəhər durmadı həsrət belində,
Bir qəpik qalmadı yolçu əlində,
Yenə qarğış gəzir insan dilində,
Nə yaman ağırmış bulud kölgəsi,
İçimdə qaralan köçəri səsi...

Deyəsən ölümün məndə gözü var,
Bəlkə də deməyə qardaş sözü var,
Elə bil sinəmdə dəvə dizi var,
Nə yaman ağırmış bulud kölgəsi,
İçimdə qaralan köçəri səsi...

Üzük var, taxmağa bir barmağım yox,
Yollar var, ayaqsız yol yormağım yox,
Yamaq vurmağa da öz bayrağım yox,
Nə yaman ağırmış bulud kölgəsi,
İçimdə qaralan köçəri səsi...

1987

***

Nə vaxtsa sevdiyim, fəqət
nədənsə unutduğum
dolu, ağır akkordlu bir musiqi kimi
çıxdın qabağıma.
Və çalındın, səsləndin
yaddaşımın neçə simi
sınmış yorğun sazında...
Bir səsə, bir akkorda, bir indiyə
büründük bir anda,
büründük ki, bircə an
qalıb dominantada
enək yenə də tonikanın ayrılığına.

Və indən belə
bir daha gələ bilməyək üz-üzə,
bir də çalınmayaq bir akkordda.
Bilək ki,
ömür qürbətdir payız günündə...

1988

***

Bıkdım, bezdim,
təngə gəldim həqiqətdən, doğrudan.
Yalan həsrətindəyəm...
Elə bil erkək məclisində
gözəl qadın yadıma düşüb...
Gəl, gözəlim,
gəl, sevgilim Yalan...

1991

***

Narın qumtək süzülür
Barmaqlar arasından
Eşitdiyin, dediyin
Boş həqiqət, boş yalan...

Rəngsiz qan axıb gedir
Sözlərin yarasından,
Yaşadığın günlərin
Ağından, qarasından...

Diri çıxa bilsən də
İnsanlar dünyasından,
Can qurtara bilməzsən
Quş səsinin yasından...

Gəlib bura çıxmısan
Dünyanın harasından?
Geri dön, qayıt geri
Zərərin yarısından...

1991

***

Doymaz divarlar yağışdan,
su axar aynaların üzüylə,
yağış yağır
neçə gündür şəhərdə,
yağış göy üzüylə,
göy üzünün qara bulud gözüylə.

1991

***

Orxan Vəliyə

Hamamçının
böyük qızı gözəldir.
Başmaqçının
kiçik qızı gözəldir.
Dəlləyin də
ortancılı gözəldir...
Böyüyün gözləri,
kiçiyin sözləri,
ortancılın dizləri gözəldir.

1991

***

Boylumusan, xanım?
Aslandanmı, ayıdanmı
düşdü analığına toxum?
Qarnını kim döndərdi ana bətninə?
Doğacağın kim olacaq?
İlk nəfəs dolan kimi ciyərlərinə
nərildəyəcək, böyürəcək,
yoxsa ağlayacaq doğacağın
insan evladı kimi?
İnsan gətirəcəksənsə dünyaya,
onda qaytar, indidən qaytar
aslanların, ayıların
insan olmaq röyasını.
Geri qaytar heyvan toxumlarını,
kəsilməsin, boğulmasın
yarı yolda
bir musiqi də...

1991

***

İraq ana qarğışından,
Viran könül bayquşundan,
Uçan evin üst daşından,
Yaman gəldi bu sel, yaman,
Axdı fələk yağışından.

İraq tərsin düz sözündən,
Yalançının yaş gözündən,
Millət çıxanda özündən
Başına çarə qıl, insan,
Haqq yoluna çıxır yalan.

İraq quyu nənəsindən,
Can verənin çənəsindən,
Elin qara tənəsindən,
Canın çıxar, qurtar canı,
Yerdə qalır haqqın qanı...

1991

***

Yenə min qara yuxum
Bir səhərlə çin oldu,
Yenə məni aldadan
Bir insan, bir din oldu...

Yenə sevincə uydu
Damarım, qanım, ətim,
Yenə burnumdan gəldi
Ölümə xəyanətim...

Yenə məni eşikdə
Gözləyir qara köpək,
İstəyir əvvəlkitək
Gah ulayaq, gah hürək...

Fəqət sona dönmədi
Günün dediyi ağı,
Yenə vaxtında düşdü
Divara gün işığı...

1991

***

Yer üzündə
ən gözəl, ən müdrik
bir məzar tənhalığı,
hər ötən günün

ağırlığı, bahalığı
bu yoxluq bazarında,
bu ölüm azarında.
Hamımız
ömür sürürük
durub ölümün hüzurunda...

1993

***

Sevinməyə vaxtmı var?
Sevinməyə baxtmı var?
Sevinc indi uzaqdır,
Sevinc burda yasaqdır,
Körpələri demirəm,
Burda ən ulu, qədim
Abidələr uşaqdır...
Sərin deyil yenə də,
Yurdda ağac kölgəsi,
Yenə dərdə sığınıb
Azərbaycan ölkəsi...

1993

***

Yuxularımın
yarasından axan qan da
qalır
özgə döşəyində,
yorğanında.
Nə ev var, nə eşik,
nə də

yadda qalmış bir laylay.
Ay dədə-vay,
haya getdi ömür,
oduna doğrandı beşik...

1993

***

Yırtıldı nağıl köynəyi,
Vuraqmı ona yamaq?
Ondansa gəl birgə gedib,
Ağlamağa yer tapaq...

O gün bazardan gələndə,
Zənbildən alma düşdü,
Həmən gecə ay işığı
Su dolu cama düşdü...

Ağ ayılar qara batdı,
Dəvələri basdı qum,
Buzlardan, səhradan uzaq,
Evdə neçin yoruldum?

Ömür nağıl deyə-deyə
Yuxuya gedib, yatdım,
Gözləmədim axırını,
Əvvəlini unutdum...

1993

***

Yolun indi hayanadır?
Kinayəli baxışların
Bu gün kimin payınadır?

Mənə baxma,
məndən keçdi,
sənin yolun yaşamağa,
mənim yolum o yanadır...

1993

***

Çaylar axa-axa,
Gözlər baxa-baxa
Bir güllə gəlir,
Ölümlə əlbir
Dil-dilə gəlir...
Tüfəng nəğmə deyir
Güllə səsiylə,
Barıt doğma imiş
Yad nəfəsiylə...
Çaylar görə-görə,
Gözlər görə-görə
Allah keçib gedir,
Dünya hürə-hürə...

1995

***

Bu pəncərənin baxarı,
o çayın axarı,
ömrümün də axırı
bilinmir hara açılır,
hara gedir, harda bitir...
Deyirlər bir çiçək var,
qarda bitir,
deyirlər bir mələk var,

dara yetir.
Nə onu, nə bunu gördüm...
Açıq pəncərədən
çaya baxa-baxa,
sularla axa-axa
günləri başa vururam
ömrün axırına çıxa-çıxa...

1993

***

Soyuqdur, deyəsən ilan yatıbmış,
sənin qucağında məndən irəli.
Başında əl gəzib,
fərqi yox, ya mələk, ya şeytan əli...
Yuxudan oyadıb səni bir anlıq,
sonra özü yatıb.
Yenə qaranlıq...
Ayın neçəsidir? Qurtarıb sayı
bütün günlərin.
Ya aprel, ya avqust, ya da mart ayı...

1995

***

Gəl, gəl, qurbanın olum,
Bircə xoş anın olum...
Fəsilləri, ayları,
Lal olmuş harayları,
Ona-buna pay eylə,
Orda-burda zay eylə,
Saraylara tay eylə,
Amma daxma yerini,

Min nəfəsdən birini,
Hələ sağkən dirini,
Məndən əsirgəmə, gəl.
Gəl, gəl, qurbanın olum,
Bircə xoş anın olum,
Özün uca saray qal,
Sənin viranın olum...

1995

***

Kaş bir bağım olaydı,
Hovuzu da dəyirmi,
Çox yox, ağac əkəydim,
5-10-15-20

Səhər idman eləyib,
Baş vuraydım hovuza,
Enəydim bu yaşımdan,
25-ə, 30-a...

Cavanlaşaydı canım,
Bükülməyəydi bel, diz,
Yubiley keçirəydim,
90-95 və 100...

1995

***

Səndən doğma, səndən yaxın,
Bir ayrılıq, bir həsrətmiş,
Sənsiz yaşadığım günlər,
Dörd yüz illik əsarətmiş.

Bilməzdim, susuz dünyada
Səsinin bulağı varmış,
Mirvarinin doğmalığı,
Bacanağın bağı varmış.

Gəl, keçək bu daş-kəsəkdən,
Keçək cənnət yolu kimi,
Qoy tarixdə adım qalsın
Nüşabənin qulu kimi...

1995

***

Bu quşcuğaz mənimdir,
Tək inamım, dinimdir,
İki gözüm solubdur,
Quş səsiylə dolubdur...

Bu quş mənim quşumdur,
Baharımdır, qışımdır,
Dünən bu günüm idi,
Sabaha dönüb indi...

Bu quş da uçub gedər,
Getməsə ondan betər,
Bu nə qəribə dərddir,
Canım bir quşa bənddir...

Bu quş səsi haraydır,
Viran qalan saraydır,
Gözlər qara, köks ala,
Ya anadır, ya bala...

1995

***

Əlvida, qurtaran yay,
Payız gəlir qabaqdan,
Bu yay sonuncu kərə
Gürzə çıxır qabıqdan...

Olan-qalan üzümlər,
Əncirlər də yığıldı,
Bu yayın sevincləri,
Deyəsən lap ağ oldu.

Narın qum daha qızmır,
Yandırmır ayaqları,
Bir az soyuq bərq vurur,
Xəzərin mayakları.

Yosun yaman çoxalıb,
Daha ləpədöyəndə,
Bədən dənizdən ürpür,
Ayaq suya dəyəndə.

Gələn yayı oturub
Gözləyək düz doqquz ay,
O doğulan günəcən,
Əlvida, qurtaran yay...

1995

***

Bu yazıq, bu yetim isti,
Bomboş, sonsuz səhrada,
Nə Allah var, nə də doğru,
Nə bir ağac arada.

Nə yalan var, nə əyləncə,
Nə bir ümid yeri var,
Burda biryolluq bağlanıb,
Hətta ah keçən yollar.

Burda min il kəsilməyib,
Cücü-mücü havası,
Bu heçlikdə göz oxşayır,
Siçan-miçan yuvası.

Bu düzənlik düzlük deyil,
Yerin bir hissəsidir,
Kiminsə sonsuz sevinci,
Kiminsə qüssəsidir...

1995

***

Yoranda, özünü yor,
Vuranda, özünü vur,
Yaranda, özünü yar,
Allah görüb, bağışlar...

Saxla, özünü saxla,
Bağla, özünü bağla,
Ağla, özünü ağla,
Allah görüb, bağışlar...

Sayıl, özündən sayıl,
Ayıl, özündən ayıl,
Ayrıl, özündən ayrıl,
Allah görüb, bağışlar...

1995

***

Səni də ələ alıb,
Məni ələ saldılar,
Olan-qalan çiçəklər
Saraldılar, soldular.

Yenə də öz sözümlə,
Öz üzümə durdular,
Göydə uçan üç quşdan,
İkisini vurdular.

Ömrün ağ bayraqları,
Yenə yellə doldular,
Bir ay, bir də min ulduz
Buna şahid oldular...

1995

***

Sənin də gözlərin
kor oldu bahara,
mənim də gözlərimə
çoxdan bəri payız gəlib.
Nə torpaq,
nə göy üzü
bu korluğa məlhəmdir,
nə də xatirələrimizdə
var bir şəfa bulağı.
Qonşu torpaqlarda da yox
gözümüzü dünya işığına
açacaq bir loğman.
Qonşu göylərdə də yəqin yoxdur
dünyamızı işıqlandıracaq bir günəş...

1995

***

Kimdən küsüb bu dəniz?
Neçin
giley-güzar toruna düşdük biz?
Niyə dalğalanıb, külək əsəndə,
sakitləşmədik
külək kəsəndə?
Axı neçin dərsimizi
özümüzdən aldıq,
yazımızda yuva saldıq?
Axı süst düşmüş dənizin
mavi kağızında ağaran
qağayı həsrətindən başlayıb,
qaya başında görünən qartalın
nida işarəsinə qədər
öyrənə bilərdik.
bu dünyanın əlifbasını!
Dünyanı öz dilində
oxuya bilərdik
Bilərdik sevincini, yasını.
Dünyanın öz dilində
ağlayıb, gülə bilərdik...
Kimdən küsüb bu dəniz?
Kimin toruna düşdük biz?...

1995

***

Öldün, getdin,
bağışla, ağlaya bilməyəcəyəm sənə.
Bilirsənmi
neçə ağac kəsilib
gözlərimin önündə,
qayalardan atılan

neçə şəlalə intiharı
görmüşəm?
Özüm də bilmirəm,
neçə ulduz basdırmışam
göylərdə,
neçə insan ümidinin meyidini
buza qoymuşam qəlbimdə?
Yer üzünə gələndən bəri
gündüzlər aydan,
gecələr günəşdən
yetim qalmışam hər gün.
Bağışla,
çoxdur ölənlərim,
sənə ağlaya bilməyəcəyəm...

1995

***

Buludlar göylərə mıxlanıb qalar,
Onları tərpədən külək olmasa,
Düzlüyün, doğrunun qiyməti olmaz,
Dünyada fırıldaq, kələk olmasa.

Gözlər açılantək torpaqla dolar,
Beyin şüşə təkin qırışsız qalar,
Ürək də heç nəyə gərəksiz olar,
Dalaq, kor bağırsaq, böyrək olmasa.

Qaranlıq görməyən işıq aramaz,
Tükün qiymətini bilər başı daz,
Mələklər də xeyrə-şərə yaramaz,
Allaha şeytanlar gərək olmasa...

1995

***

Quldarın qulsuz günü,
Yolçunun yolsuz günü,
Şairin pulsuz günü,
Yenə baş alıb gedir,
Başa daş olub gedir...
Gedir daşa dəyməyə,
Gözdə yaşa dəyməyə,
Dəyib daşa dönməyə,
Dəyib yaşa dönməyə,
Dönüb şama, çırağa
Yavaş-yavaş sönməyə...
Sönüb zülmət olmağa,
hər yana-sola, sağa
Qara işıq salmağa,
Yenə doğma qalmağa...

1995

***

Bu yolun qəm yolçusu,
Bir az sərsəm yolçusu,
Gedir dizləri gücsüz,
Yerdə izləri gücsüz,
Göydə sözləri gücsüz,
Başıaşağı gedir,
Dil deyib ağı gedir,
Dünyanın bir yoluyla
Bir cüt ayağı gedir,
Yuxusayağı gedir...
Nə soldan salam alır,
Nə sağdan salam alır,
Nə çöldən salam alır,
Nə dağdan salam alır,

Yoldan üzülmüş yolçu,
Yola süzülmüş yolçu,
Özündən çox-çox qabaq
Yolu kəsilmiş yolçu...
Özünü güllələyir
İçindən dualarla,
Özü özünə dəyir,
Sözü sözünə dəyir,
Dizi dizinə dəyir,
Üzüquylu yıxılıb,
Quzğun gözünə dəyir...
Göy üzündə bir anda
Quzğunlar dövrə qurur,
Quzğunlar dövrə vurur...
Yer üzündə yolçu var,
Yer üzünə sərilmiş,
Ömür-gündən dərilmiş,
Leş olmuş, ruzu olmuş,
Quzğunların bir günlük
Çörəyi, duzu olmuş...
Bu yolun qəm yolçusu,
Bəlkə sərsəm yolçusu,
İçindən dualarla
Bu yolda güllələnmiş,
Məhkəməsi, cəzası
Göy üzündən ələnmiş....

1996

***

Biz sizlərdən uzaqdayıq,
Siz də bizlərdən uzaqda,
Biz ölərik, siz də yəqin
Dirilərsiz bəd ayaqda.

Pozulmaz sonsuz tarazlıq,
Düz gələr Allahın sözü,

Bir bu dünya, bir o dünya,
Tərəzinin iki gözü...

Biri ömür, biri ölüm,
Biri gecə, biri gündüz,
Düzlük varsa kainatda,
Hər şey əyri, yalnız bu düz...

Xeyir şərmiş, şər xeyirmiş,
Hər ikisi bir ad imiş,
Qılıncla cəllad başını
Vuran da bir cəllad imiş...

Fərqi yox, baş harda gedir,
Ya bu qatda, ya o qatda,
Gedir müqəddəs cəlladın
Mübarək qılıncı altda...

1996

***

Soruşursan hardayam?
Burda, burda, burdayam,
Əslində Allah bilir,
Harda, harda, hardayam.

Soruşursan necəyəm?
Nə aqil, nə dəliyəm,
Necə görmək istəsən,
Qardaş, elə eləyəm...

Yenə də əvvəlkitək
Bir qələməm, bir özüm,
Nə göylərdə, nə yerdə
Yenə də keçmir sözüm.

O bağdakı xan söyüd
Budaqlarını əyib,
Gözlərim tez-tez dolur,
Bəlkə mənə göz dəyib,

Huşum korlanıb bir az,
İçməsəm də bir qram,
Yaddaşımın içində
Gizlənpaç oynayıram.

Bir az ümid içində,
Bir qədər qorxuluyam,
Bu qorxunun ucundan,
Bir qədər yuxuluyam...

1996

***

Gözlərimin qabağında
Yenə göy üzü durub,
Gecəni ayla ulduzlar,
Gündüzü günəş yorub.

Yenə möcüzə arzusu,
Xeyir tapmaq həvəsi,
Göydən isə yağır daha
Yağış nəsi, qar nəsi.

İki səsin arasından
Üçüncü səs çıxmadı,
Məndən başqa o boşluğa
Yenə heç kəs baxmadı.

Nə çoban oldum, nə qoyun,
Bitib, ya dönüb yolum?
Göy üzünə bıçaq verin,
Allaha qurban olum...

1996

***

Sənə yuxu görünən
bu dünyada
gerçəkdən körpələr ölür.
Şeytanlar gülür
yerlə sürünən
çiçəkli çəmənlərə,
deyib gülənlərə,
gedib gələnlərə.
Sənin yuxunda
acından ölənlər var, bala!
Oyan, oyan,
deyəcəkdim az qala.
Bağışla.
Yat!
Kaş səni də oyatmaya,
sənin də qəm qanına batmaya
bu dünyanın əlləri,
bu dünyanın türk elləri.
Yat!
Oyatmasın səni
uzaqda kişnəyən o at,
böyrümdəki saat,
nə də
qızanda dəliyə dönən
bu fağır, bu yalqız xalq,
bu zavallı camaat...

1996

***

Yox, bu uşaqlıq deyil,
Əlacsızlıq, zəiflik,
Sərsəm yumşaqlıq deyil,
Məğlubiyyət içində

Devrilmiş şahlıq deyil.
Bu göz yaşı kəsilmiş
Bir göyərçin başıdır,
Şübhənin oturduğu
Bəxtin elçi daşıdır,
Gözümdən yumruq-yumruq
Damlayan göz yaşıdır.
Yox, bu uşaqlıq deyil,
Sərsəm yumşaqlıq deyil...

1996

***

Bir gün o dağların quzey rüzgarı
Yetirər özünü sərin xəbərlə,
Sinə dağlarının əriyər qarı,
Qurtarar alverin dərin kədərlə.

Görərsən dibçəkdə gül nə gözəldir,
Gözünə bir yumşaq pişik də dəyər,
Duysan doğan günəş hər gün əzəldir,
Qupquru budaqda almalar dəyər.

Göydə himn oxuyar, qalx, deyər sənə,
Başının üstündə durna qatarı,
Həyat bir əl kimi uzanar yenə,
Həm Allaha sarı, həm sənə sarı...

1996

***

Yenə təngə gəlib dözüm hər şeydən,
Yenə yola çıxmaq istəyir həsrət,
Yorulub quzeydən, bezib güneydən,
Doğudan, batıdan dönüb cəsarət.

Quyruğu, yalmanı hörülmüş günlər,
Qulyabanı sürmüş yorğun at kimi
Oxunmuş kitabtək görülmüş günlər,
Kəfkirsiz, əqrəbsiz bir saat kimi.

Quraqlıq çox çəkdi, vaxt cadar-cadar,
Xoş söz bu ellərə yağmır haçandır,
Qəfəsdə bilinməz yer gendir, ya dar,
Yenə darlıq çəkən göydə uçandır.

Dünyanın hər günü toyla gələrdi,
İnsan taleyinə bürünməsəydi,
Göy üzü təsəlli ola bilərdi,
Kor quyu dibindən görünməsəydi.

Eyvanda hörümçək tor hörür yenə,
Bəlkə də toruna milçək düşəcək,
Məndən bu dünyaya, bu yer üzünə,
Bir qış sol əlimdən əlcək düşəcək...

1996

***

Adın nədir, ev yiyəsi?
Səsin anamın səsi...

Başım üstən ağ buludlar,
qara buludlar keçir.
Ağ durnalar başım üstən
qara yurdlara köçür.
Başım üstə cin oturub
səhər-axşam mey içir.
Zəmiləri qılınc ilə
sərxoş şeytanlar biçir...

Adın nədir, ev yiyəsi?
Səsin anamın səsi...

Ev yiyəsi, Allah göydən
yerə nə ələyibmiş?
Anam məni çağa ikən
kəfənə bələyibmiş?
İllər tozuna batıram,
burda artıq yer tuturam,
eşiyə qoyun məni.
Ölsəm, dostlar, tabuta yox,
beşiyə qoyun məni...

Adın nədir, ev yiyəsi?
Səsin – anamın səsi...

1996

***

Bəlkə bu yanmış çöl bağdı,
Bəlkə qara rənglər ağdı,
Uzaqda bir şimşək çaxdı,
Gözlə, bəlkə yağış yağdı...

Təzələnər göy ormanlar,
Yada düşər xoş zamanlar,
Çıxar ağlından yamanlar,
Gözlə, bəlkə yağış yağdı...

Dünyanın bir üzü savaş,
Bir göz quru, o biri yaş,
Odur yaşa yavaş-yavaş,
Gözlə, bəlkə yağış yağdı...

Bu yol nə sol, nə də sağdı,
Bəxt nə ölü, nə də sağdı,
Aranda da sinən dağdı,
Gözlə, bəlkə yağış yağdı...

1996

***

Ah çəkmə,
yavaş nəfəs al
o bulud dağılar...
Yadındamı, gözəl idi
ötən yay?
Sapsarıydı
gündüz qum, gecə ay.
Ora haraydı?
Ah çək,
dolu nəfəs al,
dağılmaq istəyirəm...

1996

***

Nuşabəyə

Elə şirin yatmısan ki,
Hay qaçıb, haray gedib,
Elə bil oxunan yerdə
Yuxuya laylay gedib.

Köksündən çıxan nəfəslə
Beynimdən ağıl çıxır,
Yaddaşımın hər küncündən,
İndi bir nağıl çıxır.

Bu gün məndən kədər nədir,
Qorxu da qorxub qaçır.
Bu yaşacan görməmişdim,
Yuxu da çiçək açır.

İndi bu sakit yuxuda
Nə görürsən, sevgilim?
Məni görsən, sərxoş görmə,
Təmiz, ayıq gör, gülüm...

1996

***

Hər ev, hər mərtəbə, göy üzü, dəniz,
Həm eşq sevincidir, həm göz yaşıdır,
Hər dağ, hər şəlalə, hər qaya, hər daş,
Həm eşq heykəlidir, həm başdaşıdır.

Hər bir quş cəh-cəhi, hər çiçək ətri,
Həm eşq nəğməsidir, həm dərd mahnısı,
Hər gün, hər dəqiqə, hər insan ömrü,
Həm toy şənliyidir, həm sevgi yası.

Küsmə bu dünyadan, küsmə özündən,
Baxt bizdən gah razı, gah gileylidir,
Doğulub dünyaya göz açan gündən
Hər oğlan Məcnundur, hər qız Leylidir...*

1996

***

Göyün sözü göydə qalar,
Yerin sözü – sinəsində,
Deyilməmiş sözlər vardır,
Bəlkə quyu nənəsində.

Getmədik cin səsləyəndə,
Hay vermədik harayına,
Ağ qoçdan ayrılıb getdik,
O bir yana, biz bir yana.

Damdabaca tək ağladı,
Ay göydə bədirlənəndə,

*Mahnı mətni. Musiqisi Cavanşir Quliyev.

Görmədik başımız üstdə
Simurq quşu hərlənəndə.

Odunsuz qaldı meşədə
Bir qış küpəgirən qarı,
Vərəm tutub öldü fağır,
Görə bilmədi baharı.

Ağ gəldi, qara su gəldi
Təpəgözün tək gözünə,
Kor olub düşdük ömürlük,
Bir başqa korun izinə.

Nağıl böyüyə bilmədi
Bizimlə çiyin-çiyinə,
Viran qalan uşaqlıqdan
Bayquş səsi gəldi yenə...

1996

***

Nəyinsə qorxusundan,
kiminsə xoş yuxusu
əlindən düşüb, sınıb.
Yuxu qırıntıları
ayaq altda tapdanıb,
küçələrə atılan
siqaretlərdən yanıb...
Bu yuxu daşlarından
təsbeh oynadır kimsə,
daşlar xeyrə cütlənib,
hamısı gəlir nəsə,
zildə qala bilməyib,
yuxu da enir pəsə.
İndi bu bəm aləmdə

gedəsən hansı səsə?
Gözlərə nə görünür,
dünya nəyə bürünür?
Göydə uçan yuxular,
indi yerlə sürünür...
Neçin düşür yuxular?
Ya əllər zəifləyib,
ya yuxular daş olub,
şər də tək qaldığından,
xeyirə yoldaş olub.
Gecə ay qorxusunda,
gündüz gün qorxusunda
yerə düşüb, sınarıq
ömür-gün yuxusunda...

1996

***

Əqrəb var çiçəkdə yuva salıbdır,
Bülbül var gül ilə dava salıbdır,
Mən toyuq yerişli şahin görmüşəm,
Dünyanın çox işin çətin görmüşəm.

Bəzən qapı iti qurdtək ulayır,
Bəzən qurd qapıda quyruq bulayır,
Allah da bəndənin hirsinə düşür,
Dünyanın çox işi tərsinə düşür.

Ömrün yazı solur, sərt qışı gedir,
Cəlladı sevənin öz başı gedir,
Şairin qiyməti sözü qədərdir,
Dünyanın ağrısı özü qədərdir.

Ocağa gedirsən, gözə göz dəyir,
Yanan ocağa da bəzən göz dəyir,
Ölümün ağaran dişlərinə bax,
Bu gözəl dünyanın işlərinə bax...

1996

***

Bu dünya,
bu Yer kürəsi
göylərə açılmış
bir dilənçi əlidir...
Bütün dinlər
Allahın deyil,
Allaha yalvaran dilənçi dilidir...
İnsanda inam yoxdur
çiçəkdə olduğu qədər,
vaxtında açılıb,
vaxtında solmaq,
inamla, Allahla dolmaq
və hər yerdə, hər zaman özü olmaq...

1996

***

Allah bu gün yaman çaşıb deyəsən,
Ya da göydə yorğun düşüb deyəsən,
Yer səyirir, bir az çəkmir yüyəni,
Nökər qorxar, sevməz belə yiyəni.

Qan axır, bu dünya qandan da umur,
Damcını tez görür, selə göz yumur,
Doğru böhtan olur, haqq düşür şərə,
Ölüm də bölünür xeyirə, şərə.

Elə bil hər günün lənətlə gəlir,
Gündüz də, gecə də minnətlə gəlir,
Məni yıxıb, yerlə heyrət sürüyür,
Bəlkə göyləri də rüşvət bürüyür?

Allah, bu yollamı gedəcək dünya,
Beləmi başlanıb bitəcək dünya?
Onda kəs dünyanı, bir oraqla biç,
Bir də bu şeirçün günahımdan keç.

1996

***

Yol göstərmək yaxşı şeydir,
getməyə bir yol olsa.
Yoldan sağa dönmək olar,
dönməyə bir sol olsa.
Əldən gözəl nə olar ki,
əl saxlayan qol olsa.
Pəhriz saxlamağa nə var,
evdə yemək bol olsa...

1996

***

Çay dəmsiz,
fikirlər yöndəmsiz,
aləm qəmsiz.
Yenə nə çəkir, insan çəkir,
yenə nə əkir
insanlar yox, insan əkir.
Yenə bircə kədər var,
kədərlər yoxdur.
Yenə bircə səhər var,
səhərlər yoxdur.
Yalnız arzu çoxdur
bu dünyada.
Kasıbın qızı çoxdur.

1996

***

Uzaqda görünüb sönən o işıq,
Gecənin ən gözəl qısa sözüydü,
Ya kasıb evində kədərli çıraq,
Ya seyrək meşədə bayquş gözüydü.

Bir zəif meh əsib açır sinəmi,
Sinəmdə nə qədər söz yeri varmış,
Baxıram, unudub sevinci, qəmi,
Dünyanın hər gözdə öz yeri varmış.

Bu iy heç nə ummur, yoxdur bir şərti,
Dolunun döydüyü otlardan gəlir,
O uzaq nal səsi, uzaq kişnərti,
Tarixin getdiyi atlardan gəlir.

Bu yerlər boyanıb gecə rənginə,
Hər ətri gecədir, səsi gecədir,
Min şükür deyərdim verdiyi günə,
Bilsəydim, Allahın özü necədir...

1996

***

Buludlar yoxdur,
hava bomboş.
Quşlar uçdular,
yuva bomboş.
Gözdən uzaqdır
yenə otlar.
Boğuq kişnəyir
qoca atlar.
Təriflər deyir
yenə dillər,

batır günaha
bizim ellər.
Neylim, İlahi?
Uzalı qaldı
yenə əllər.
Varmı təsəlli?
Sarı çiçəklər,
qara güllər...

1996

***

Bu sərxoş küçəylə...
Qol-qola verib,
bu sərxoş gecəylə
dayandıq bir ayıq
dükan vitrini qarşısında.
Biz şərab yasında,
o isə
bolluqla yas arasında...
Yağış çilədi qəflətən.
Qurban olum sənə, Allah,
sənə də, Vətən.
Tək qalmadı
bu sərxoş küçədə,
bu elin
şair övladı...

1996

***

Bəlkə bir gün geri dönüb
Ya qürbətdən, ya həbsdən,
Sənin evdə olduğunu
Duyacağam ilk nəfəsdən.

Ayrılıq sona yetəcək,
Amma qəlbdə qəm bitəcək,
Sevinc bayramı bitəcək,
Ya gərəkdən, ya əbəsdən.

Birgə ömür sürəcəyik,
Quştək yuva hörəcəyik,
Ancaq birdən görəcəyik,
Qanadlar düşüb həvəsdən.

Görəcəyik olan olub,
Ayrılıqda çox şey solub,
Aramıza illər dolub,
Küsməyə dəyməz heç kəsdən.

Kölgəm parklarda qalacaq,
Günlərimə nərd dolacaq,
Yəqin inciyim olacaq,
Həm Allahdan, həm "sobes"dən.

Özümü saxlayacağam,
Dözümə bağlayacağam,
Diksinib ağlayacağam
Zərlər qoşa düşən səsdən...

1996

***

Bilmirəm nə olub sənlə?
Necə danışım sənlə?
Gündüz
ya gecə danışım sənlə?
Nə deyim, deyim harda?
Qızmar qumda ya qarda?
Hansı dildə danışım sənlə?
Zaman ötüb,
hansı ildə danışım sənlə?...

1996

***

Nuşabəyə

Gözünün yoluna çıxmışam indi,
İndi gözlərinlə məni çək, apar,
Hər atdığım addım daha sənindi,
Amma, qurban olum, məni tək apar.

Bu yolda bir kəsi qoşma yanıma,
Gözümü yəhərlə, baxışımı sür,
Sal məni dağ-daşa, yanma canıma,
Çatlasam, rəhmət de, nal töksəm – şükür.

Yalvarsam, ağlasam, çəkmə yüyəni,
Səyirt ömrün boyu mənzilbaşına,
Amma gözlərinlə sür apar məni,
Özün yetir məni qoca yaşına.

Qoy sənin qapında durub qocalım,
Yalmandan ağarıb, dişdən saralıb...
Apar, burda qoyma, qadanı alım,
Başımın üstünü quzğunlar alıb...

1996

***

Qulaqlarında laylay,
Çoxları hələ subay,
Qız əlindən tutmayıb,
Arzu-kama çatmayıb,
Getdilər bu davaya
Qarayanız balalar,
Neçə il, neçə aya?
Analar qaldı evdə
Günləri saya-saya...

Fələyin atdığı daş
Bizim yuvaya düşdü,
Vətən davaya düşdü.
Baxtınızı, balalar,
Qurban olum, söyməyin,
Qələbəylə qayıtsaz,
Özünüzü öyməyin,
Qurban olum, öyməyin,
Evə şikəst gəlməyin...
Bığ yeri tər balalar,
Ürəyi nər balalar,
Balaca ər balalar,
Yurda nökər balalar,
Bizim əsgər balalar...*

1996

***

Bu dünya başdan-başa,
İstərsən min il yaşa,
Doğru deyəndə yalqız,
Yalan deyəndə təkdir,
Gah düzlük, gah kələkdir.
Ümid bəzən Allaha,
Bəzən bircə gülədir,
Dünya neçin belədir?...

Yaranıb hər şey qoşa,
Qoşa da dəyir daşa,
Kimə alqış deyəsən,
Boynun bircə kəndirlik,

* Mahnı mətni. Musiqisi Cavanşir Quliyevindir.

Sinən bir güllələlikdir...
Ümid bəzən Allaha,
Bəzən bircə gülədir,
Dünya neçin belədir?...*

1996

***

At belində şəklim yoxdur.
Dəvə üstündə də
şəkil çəkdirməmişəm.
Şükür,
bir diri də minməyib məni,
yalnız beş-on ölü gedib,
mənim çiynimdə,
yəhər altda
şəklim də yoxdur, şükür...

1996

***

Yubanıb köhnəlmişəm
Boz qış səhəri kimi,
Ötən yay ölənlərin
Ölüm xəbəri kimi...

Şerim uşaq üzündə
Qoca gözünə bənzər,
Dünyaya salam sözüm,
Sağ ol sözünə bəşər...

*Mahnı mətni. Musiqisi Cavanşir Quliyevindir.

Ömrün gecə çağını
Səhər bilib gəlmişəm,
Yuyulan günah kimi
Yubanıb köhnəlmişəm...

1996

***

Yenidən başlayıblar
Yer üzünü bölməyə,
Guya yerlər az imiş
Bircə kərə ölməyə...

Çoxaldıqca yollarda
Əlil, şikəst izləri,
Cırıldayır içimdə
Ümid protezləri...

Tərs kimi yağışlar da
Günbəgün soyuqlaşır,
Allah düz vurur bizi,
Böləndə yaman çaşır...

Göylərin yazısından
Nöqtə yeri görünür,
Orda süzən qağayı
Hələ diri görünür...

1996

***

Qapıları taybatay açacaq,
bir şimşək çaxacaq...

Bura işıqdır, işıq,
mənə bir çıraq qaranlıq verin
bu işıqda yol tapım özümə...

Budağa qonan quş
orda vurulub ölməyəcəksə,
uçacaq, uçacaq, uçacaq...

1997

***

Soyuq olan yerdə
saralmaq günahmıdır?
İstidə
qaralmaq günahmıdır?
Tüfəng olan dünyada
vurmaq bir yana,
vurulmaq günahmıdır?
Səhər-axşam Allahı
duayla yora-yora,
onunla həmdərd olub,
yorulmaq günahmıdır?
Boğazından son nəfəs
çıxan an günahmıdır?
Lap indicə doğulmuş
bir uşağın nəfəsi
başlanan günahmıdır?
Yazdığım bu şeir də
günahmıdır, ahmıdır?...

1997

***

Necə yetəsən,
nə təhər qovuşasan Ona?
hansı yolla,
nə üsulla

sığınasan onun qoynuna?
Yox,
bəzən dözmək olmur bu oyuna,
elə bil
gəlib düşmüsən düşmən toyuna,
hamı nişan kimi baxır
sənin buxununa, boynuna...
O da ki, uzaqda,
bəlkə o da
sənin kimi sazaqda...
Onun yerinisə,
bir sormaq yeri yox,
göy üzündəsə,
bir dırnaq yeri yox...

1997

***

Nuşabəyə

Nədən solmusan?
Nədən dolmusan?

Qızmar yay hələ gəlməyib,
Yarın da hələ ölməyib...

Əlsənmi sən, qolmusan?
Sona yetən yolmusan?

Ayna açıq, hava sərin,
Duayla dolub gözlərin...

1997

***

Radio, o qadına de,
Bir mahnı da oxusun,
Nənəm də bu gün dirilib,
Küncdə corab toxusun.

Sən yat, qurban olum, külək,
Yağış, mən ölüm, sən yağ,
Yaddaşıma qonaq gəlib
Norveçdə gördüyüm bağ.

Sən də, sevgilim, yuxudan
Asta oyan bu gecə,
Səssiz gəlib qıraqdan bax,
Gör qəşəngəm mən necə.

Bu gün yerdən götürüldüm
Ömrümün bu çağında,
Bir bax, pişik balasıyam
Allahın qucağında.

Hayıf, bu gün bir günlükdür,
Laylay deyən də yalqız,
Vaxt var ikən xoş söz deyin,
Miyoldayım bir ağız...

1997

***

Kimi boğulur hirsdən,
kimi də böyük hissdən.
Kimisi də
tüstüdən, hisdən.
Zildə boğulan var

Çahargah üstə.
Mənsə boğuluram,
Segah üstə
özü də pəsdən...

1997

***

Yorma məni
bu dünyada.
Bu dünya
ağ dünyadır,
sinəsi dağ dünyadır,
qurumuş bağ dünyadır.
Yorma məni, mən ölürəm,
bu dünya sağ dünyadır...

1997

***

Zülmət gecənin dərdini
Səsiylə çay deyəndə,
Necə yatım, qoca dünya
Arada vay deyəndə?

Açıl-yumul nəğməmizi
Günəşlə ay deyəndə,
Necə yatım bu səs-küydə
Səslər haray deyəndə?

Necə yatım göz yaşına
Şerimi tay deyəndə?
Birdəfəlik yatacağam
Allah laylay deyəndə...

1997

***

Hara baxır, nəyə baxır
O zirvədən top palıdlar?
Bəlkə gözlərində ümid,
Bəlkə balta qorxusu var...

Aşağıda gömgöy aran,
Hələ yaydan saralmayıb,
Qış da hələ uzaqdadır,
Yollar qardan daralmayıb.

Bilmək olmur nə cücərir,
Sular hardan-hara axır,
Zəhərlənmiş bu dünyada,
Qarışqalar hardan çıxır?

Meşələrin, düzlərin də
Ömrü-günü bəlalıdır,
Qış yuxusundan oyanan
Ayılar cüt balalıdır...

Unudursan gördüklərin,
Hayanda, hansı eldədir,
Görürsən ki, top palıd da,
Göy aran da bir əldədir...

1997

***

Bu şeh neçə gözdən düşüb?
Kimin, nəyin qəhərindən?
Torpaq da göz kimi dolub,
Bəxtinin bu səhərindən.

Canıma üşütmə gəldi
Şehli otlara baxmaqdan,
Bildim, alçalmaq deyilmiş
Söz götürmək hər axmaqdan.

Bildim, ölüm laylasıdır
Həm dost, həm düşmən sözləri,
Kaş ki bir an yumulmasın
Torpağın şehli gözləri...

1997

***

Bəlkə elə o bulud
Ötən ilki buluddur?
Bəlkə bulud dəyişib,
Sükut həmin sükutdur?

Səhərin hay-küyündə
Qaratoyuq oxuyur,
Quşcuğaz çöldəkitək
Ürkək, ayıq oxuyur.

Bu səs şərdən uzaqdır,
Xeyirdən xəbəri yox,
Günəş sabah doğmasa,
Bu quşun səhəri yox.

Yer üzündə ən qədim
Bir şeir eşidirəm:
"Vaqifim, ömür gedir,
Gün gedir", eşidirəm.

Şeir sükut üstündə
Quş səsiylə cızılıb,
Bu dünyanın ən qədim
Yazısıyla yazılıb.

Oxu, qurbanın olum,
O xaldan yenə də vur,
Vallah, elə o bulud
Ötən ilki buluddur...

1997

***

Salam, sulu qar, salam,
Şükür, istidir evim,
Nağıldan boylanırlar
Simurq quşumla devim.

Xəşil bulayır nənəm,
His verir neft lampası,
Süfrədə göz oxşayır,
Dəmir qabda manpası.

Anam çağırır məni,
Ən doğma səsdə adım...
İlahi, uşaqlıqdan
Mən neçin yadırğadım?

Dayım durub qapıda,
Dolaşıqdır dediyi,
Gözlərində sevinc var,
Ağzında araq iyi.

Sən demə, Almaniya
Məğlub olubmuş bizə...
İndi isə sulu qar
Yağır yerə, dənizə.

Salam, sulu qar, salam,
Gözlərim xumarlanır,
İçimdə his verərək
Bir neft lampası yanır...

1997

***

Hardasa bir qapı var
Üstündə gümüş açar,
Bir də bir quş var, enməz,
Həmişə göydə uçar.

Güllər də yaralanar,
Daşlar da aralanar,
Yağış var, damlaları
Yerə düşəntək yanar.

Buludlar da yarımçıq,
Göy otlar da yarımçıq,
Kişnərtisi boğulmuş,
Göy atlar da yarımçıq.

Barsız, sınıq buludlar,
Rəngi qaçmış dodaqlar,
Qapının qabağında
Çağrılmamış qonaqlar.

Sevindirməz heç kəsi
Gümüş açarın səsi,
Ölsə də yerə enməz,
Göydədir ev yiyəsi...

1997

***

Hara çıxıb gedə billəm
Bu sürətlə, bu cürətlə?
İzin ver, yalan danışım,
Sıxılmışam həqiqətlə...

Bütün bu aləm, bu həyat
Nəyin hesabı, sayıdır?
Bəlkə də sonsuz səxavət,
Bəlkə də yetim payıdır...

Yubanır xoş xəbər yenə,
Sevinc gəlməyə ərinir,
Əyri yol bir yana dursun,
Düz yol divara dirənir.

Göydə süzən qanadlara
Gözlərim bərəlib baxır,

Qağayı səsiylə çıxıb,
Dənizə dözümüm axır.

Bu dünyaya gələn gündən
Yerə-göyə olmuşam yük,
Özbaşına ölüb getsəm,
Vətən, canına yüngüllük...

1997

***

Dağlarımız, yaylağımız qalmadı,
İndən belə qışlağadır köçümüz,
El-obanın havalanan sazında
Zil sındı, bəm ayağadır köçümüz.

Aran-aran bu dünyanı dolanıb,
Yayda toza, qışda qara bulanıb,
Quru yurddan olanlara boylanıb,
Görəcəyik uzağadır köçümüz.

İllər susar, eşidilməz holaylar,
Günlər qız qarıyar, qalar dul aylar,
Dağdan enib, düzdə qalar dolaylar,
Həm soladır, həm sağadır köçümüz.

Bu köç ağladar, üzər ürəkləri,
Canavarla öpüşür köpəkləri,
Kəsib yeyər damazlıq inəkləri,
Sinəmizdəki dağadır köçümüz.

El ağladı, ağlar yerin bilmədim,
Haray çəkdi, harayına gəlmədim,
Hayıf ki, baxtım gətirdi ölmədim,
Deyəsən, yad bayrağadır köçümüz...

1997

***

Yatmış bildiyim ilan
Sən demə oyaq imiş,
Qəfil ölümlə aram
İkicə barmaq imiş...

İşığına getdiyim
Məzarda çıraq imiş,
Dünya malından payım,
Bir baş, bir ayaq imiş...

Sirrimi açdığım daş,
Sən demə qulaq imiş,
Qaniçənçün el qanı,
Dupduru bulaq imiş...

Şirin bal sandığım dil,
Sən demə bıçaq imiş,
Şair olan yerdə də,
Göydə də qaçaq imiş...

Kəfəni ağ bilirdim,
Üçrəngli bayraq imiş,
Yurdum da, qürbətim də,
Elə bu torpaq imiş...

1997

***

Sənin yalqızlığın məndə də varmış,
Çoxluğun, azlığın məndə də varmış,
Yaradıb-qurmağın məndə də varmış,
Sonra uçurmağın məndə də varmış,
İmdad diləməyin, qapı döyməyin,
Qonşuya gülməyin, dosta söyməyin
məndə də varmış...
Mənim də qəlbimdə baş-başa verib,
Göz-gözə dirənib, yaş-yaşa verib,

Bu ikili bəla, yanıqlı ağı –
Azadlıq eşqiylə qul rahatlığı...
Doğrunla yalanın məndə də varmış,
Gedənin, qalanın məndə də varmış,
İlahi, heyrətə gəldim bu gecə,
Oğul da Vətənə belə oxşarmış...

1997

***

Beynimdə sərin yer tapa bilmirəm,
Bir fikir dincələ bilmir beynimdə,
Dolanış bir yana, dövran bir yana,
Şairlə insan düz gəlmir beynimdə...

Mələk də, şeytan da dartır özünü,
Allah qəti demir yenə sözünü,
Gələcək günlərin ağlar gözünü,
Bircə ümid əli silmir beynimdə...

Ağ gün də, sən demə, qaraqabaqmış,
İnam da, inkar da çürük dayaqmış,
Bilmədim kim yatmış, kimlər oyaqmış,
Bircə uşaq üzü gülmür beynimdə...

1997

***

Məni mütləq tapacaqlar
Dalımca mələk salıb,
Hər yazımda, hər şerimdə
Barmaq izlərim qalıb.

Olmayan günahlarımı
Boynuma alacağam,
Yaddaşların məhbəsində
Əbədi qalacağam.

Hələliksə, tam sərbəstəm,
Sərbəstəm ölənəcən,
Bu dünyadakı yerimi
O dünya bilənəcən.

Sərbəstəmsə, demək baxtım
Yamanca gətiribdir,
Allah məni bir ömürlük
Zaminə götürübdür...

1997

***

Bu dünya görüş yerimizmiş
həyat dediyimizlə.
Bu dünya
Allahla ayrılıq nöqtəsi,
inamın yuxudan əvvəl
nağıla çevrilən gecəsiymiş.
Ayrılıqdan ayrılmayacağımız
yolayrıcı imiş bu dünya.
Bu dünya
şeytanların həbsxanası,
mələklərin sürgün yeriymiş...

1997

***

Neçə baharla, payızla
Yox oldu ömrün illəri,
İndi məni düşündürür,
O dünyanın fəsilləri...

Cənnətə gəlirmi bahar,
Cəhənnəmdə olurmu qış?
O dünyada ölüm yoxsa,
Burdakı ölümə alqış...

Payız varsa, nazik kəfən
Saxlamaz yağış yaşını,
Onda alıb geyinərəm
Əzrayılın plaşını...

Ağlım bir şey kəsən gündən
Düşündüm, o dünya nədir?
Guya illərlə yaşayıb,
Bilmişəm, bu dünya nədir...

Bacarsaydım dəyişməzdim,
İnanın, mən ölüm, mənə,
Bizim doğma cəhənnəmi
O dünyanın cənnətinə...

1997

***

Ay işığının
sapsarı kəndiri
düşüb dəniz sularına.
O kəndiri
boynuma dolayıb,
asmaq istəyirəm özümü Aydan,
ayağımın altdan
kənara atıb
Yer kürəsini...

1997

***

Nuşabəyə

Nifrətin yatan yerini,
Qəzəbin batan yerini,
Duaların göy üzündə
Allaha çatan yerini,
Gözlə, bilib gələcəyəm...

Çiynindən atma daşımı,
Dizinə qoyum başımı,
Bilsəm ki, gözləyənim var,
Bir daş ilə göz yaşımı,
Gözlə, silib gələcəyəm...

Məni hardasa yuxudan,
Oyadıb, şeir oxudan
Bir cəlladın gözlərinə,
Baxıb ilk dəfə qorxudan,
Gözlə, gülüb gələcəyəm...

Gözlə bu gün, sabah məni,
Yolda qoymaz Allah məni,
Əcəl ondan tez tərpənsə,
Yıxsa bir yad günah məni,
Gözlə, ölüb gələcəyəm...

1997

***

Ağac yorğun,
Pişik yorğun,
Vaqif yorğun...
Ağac yatır,
Pişik yatır,
Vaqif yatır...
Oyanırıq.
Oyanırıq üçümüz də.
Ağac yanır,
Pişik azır,
Vaqifsə şeir yazır.

1998

***

Nuşabəyə

Oyanma, yuxuda dəniz görürsən,
Aləmi kirimiş, səssiz görürsən,
Görürsən sahilin qumu sarıdır,
Yumşaq barmaqların qumu arıdır...

Dənizdə bir qayıq, yelkən görürsən,
Dənizi lap səhər erkən görürsən,
Görürsən o qayıq yuxuda üzür,
Başının üstündə qağayı süzür...

Bu yuxu sənindir, burda nə ki var,
Mamırlı qayalar, xəfif dalğalar,
Suları qaraldan bulud kölgəsi,
Sənə laylay deyən Allahın səsi...

Oyanma, evimiz soyuqdur yenə,
Yorğun dəyəcəyəm yenə gözünə,
Oyanma, orada dəniz, günəş var,
Mənə dəyib sınır şirin yuxular...

1998

***

Allah varmı,
yoxmu Allah?
Nə bu gün, nə sabah,
bu sualın dənizinə
girib, batan deyiləm.
Bir də bunu bilmək için,
göyə dua yerinə,
kəmənd atan deyiləm....

1998

***

Qar üstüylə ayı izi,
Aparır haraya bizi?
Bu payızı çıxıb sona,
Gedirik qış yuxusuna.

Ayıyla burun-buruna,
Ayıyla qarın-qarına,
Verib, bir qış yuxu görmək,
Bir qış ayı ömrü sürmək...

Şirin olmaz burda yuxu,
Dərin olmaz burda yuxu,
Burda yuxlasaq bir az,
Oyanmağa həvəs olmaz...

Ömrün bu nəm, əzəl yolu,
Yolun üstü xəzəl dolu,
Bir də seyrək ay işığı,
Qəmlə sevinc barışığı...

Gecə yarı, ömür yarı,
Gedirəm dağlara sarı,
Xəzəl üstə izim qalır,
İzim üstə dözüm qalır...

Burda azsam da nə ayıb,
Bu yol özü yol tapmayıb,
Ürəyim döyünür rahat,
Yaşa, ölüm, yaşa, həyat...

1998

***

Qorxağam mən,
ağciyərəm,
qorxum pərdə,
duman çəkib gözümə.
Qorxudan mən güc alıram,
güc verirəm sözümə.
Yoxdur, vallah,
ağıl varsa,
mərdlik yoxdur dözümdə!
Mən də sevinc istəyirəm,
sevinməyə
güc tapmıram özümdə...

1998

***

Hər gün falıma baxıram,
Ya əzələm, ya axıram,
Burda yaman darıxıram,
Çıxmağa bir səfərim yox.

Zərrə-zərrə yığılıram,
Tikə-tikə dağılıram,
Təngə gəlib, boğuluram,
Bir qələbəm, zəfərim yox.

Bacarsaydım baş əyərdim,
Ya da sinəmə dəyərdim,
Hədər yaşadım deyərdim,
Ağlabatan hədərim yox.

Bu ya tilsimdi, ya ovsun,
Allah özü məni vursun,
Sevinmək bir yana dursun,
Kara yetən kədərim yox...

1998

***

Yusif Səmədoğluna

Üzüm-gözüm quma batıb,
Başım hara düşüb yatıb?
Ayaqlarım göylə gedir,
İzim buludlarda itir...
Əllərim at yalı hörür,
Gözlərim zülmətdə görür!
Bu bir şeytan əməlimi?
Son mənzilin təməlimi?

Qağa, göylərə uçmuşdum,
İki ağ qanad açmışdım,
Biri dəydi başdaşına,
Düşdüm, dolanım başına...

1999

***

Soba qızıb, ey gözlərim,
Bir az isinin siz də,
İsinməsəz balıq olub,
Üzün soyuq dənizdə.

Bura evdir, dörd divarlı,
Adi insan yuvası,
Burda gözlər buz bağlasa,
Donar şükür duası.

Ağ gün, qara gün gözləmək,
Əzəl başdan əbəsdi,
Yetər, isinin, gözlərim,
Qar da deyəsən kəsdi...

1998

***

İncimişdim bu torpaqdan,
İndi bağa gedirəm,
Bir söyüdlə, uç vələslə,
Barışmağa gedirəm.

Ağac kölgəsində bitsin
Kədər-sevinc davası,
Məni baxtla barışdırsın,
Yarpaqların duası.

Bu dünya, dədəm demişkən,
Gah boşalar, gah dolar,
Dünyadan küsmək günahdır,
Hərdən incimək olar...

1998


Poemalar

ROYAL

Gecədir,
gözlərim açılır, yumulur.
Gecəm qotur,
qaranlığım kələ-kötür.
Yuxusuzluğun
uzun muğamına
mığmığa züy tutur...
Gecə oxuyuram,
ömrümü toxuyuram
kainat koridorlu,
kainat qapılı,
kainat pəncərəli,
vaxt emalatxanasında.
Kainatın İnsanxanasında...
Düşür yerə cında-cında
arzularımın bir vaxt möhkəm,
yumşaq parçası.
Dolanır
yer üzünü
ürəyimin, düşüncəmin qaraçısı.
Günəş dilində,
torpaq dilində,
yağış ləhcəsində,
külək ləhcəsində
anlamadığım
min səs eşidirəm.
Yaşayıram
əllərimi səbrimin cibinə soxub
əcnəbilər arasında.
"Küləkcə-Məncə",
"Məncə-Yağışca"
lüğətlər olsaydı...
Sürünürəm arzu-arzu,
dilək-dilək.